YENİ MÜSAVAT
www.musavat.com
Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 fevral 2017-ci il Cümə axşamı № 29 (6643) Qiymәti 60 qәpik

## Xəbər

**Azərbaycanda ali məktəblərə qəbul qaydaları dəyişdirilir**

yazısı səh.2-də

## Gündəm

**“Binə” ticarət mərkəzi “çökür”**



Rəhbərlik isə ticarətçiləri “soyur”; bazardakı mağazaların yarıdan çoxu boşalıb; alıcılar yoxa çıxıb

yazısı səh.15-də

**Ermənistan itkilərini niyə bir gün gizlədib?**

yazısı səh.3-də

**Tələbələrə yataqxana xərcləri üçün kredit veriləbilər**

yazısı səh.4-də

**Vulkanmı, təxribatmı - Qaz İxrac İdarəsi məsələyə aydınlıq gətirdi**

yazısı səh.3-də

**Manat möhkəmlənir - banklar məzənnə manipulyasiyasına gedir**

yazısı səh.6-da

**Beynəlxalq Bankın borcları yüklənir...**

yazısı səh.4-də

**Bakıda AŞ PA-nın komitə iclası keçiriləcək**

yazısı səh.8-də

**“Dünya Rusiyanın dağılmasına hazır deyil” - politoloq şərhi**

yazısı səh.9-da

**“ASAN xidmət” daha bir uğura imza atdı**

yazısı səh.6-da

**Həbsxanalarda baş verən ağlasığmaz qətliamlar...**

yazısı səh.13-də

**İlhamə Quliyevanın mirası bölüşdürüldü, oğulluğuna pay düşmədi**

yazısı səh.12-də

**Kaskasız, təhlükəsizlik kəməri olmadan işləyən fəhlələr...**

yazısı səh.13-də

### İşğalçı ölkə tarixində ən saxta seçkilərin keçirilməsi gözlənilir

# MOSKVA ERMƏNİSTANIN “İPİNİ YIĞIR” - YENİ QARABAĞ TƏLƏSİ...

Parlamentli respublikada ilk erməni parlamenti bütünlüklə Kremlin nəzarəti altına düşə bilər; Qarabağətrafı situasiyada da keyfiyyət dəyişikliyi istisna deyil...




yazısı səh.8-də

# Lapşinin Bakıya ekstradisiyası ciddi rezonans doğurdu

İnsident işğalçı ölkə ilə Belarusu üz-üzə qoydu; İrəvanda etirazlar başladı; səfir Ermənistanı tərk etdi; Qarabağdakı girovlarımızın məsələsi aktuallaşdı...

yazısı səh.5-də



*Elxan Şahinoğlu:*

**“Jirinovski siyasəti biznesə çevirib”**

yazısı səh.7-də



*Qabil Hüseynli:*

**“ABŞ konqresmeninin Azərbaycanla bağlı açıqlaması ciddiyə alınmalıdır”**

yazısı səh.9-da



*Mənsum İbrahimov:*

**“Canəli Əkbərovun dedikləri yaşına-başına yaraşmayan hərəkətdir”**

yazısı səh.12-də



# Azay Quliyev BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının nümayəndəsi ilə görüşdü

**Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasında Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycan üzrə nümayəndəsi Furio De Angelis ilə görüş keçirilib.**

Musavat.com xəbər verir ki, şura sədri, deputat Azay Quliyev hökumətin xarici donorların qrantverme qaydalarının sadələşdirilməsi istiqamətində həyata keçirdiyi son işlərlə bağlı qonağa ətraflı məlumat verib. Azay Quliyev qeyd edib ki, Azərbaycanda xarici donorlar tərəfindən qrantların verilməsi proseduru Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanına uyğun olaraq 2017-ci il yanvarın 1-dən "bir pəncərə" prinsipi ilə həyata keçirilir. Fərmana əsasən, yeni qaydalara uyğun olaraq Azərbaycan ərazisində qrantvermə hüququnu əldə etməyən xarici donorlarla qrant sazişlərinin bağlanması qaydası aradan qaldırılıb və donor qeydiyyatı ilə qrantın qeydiyyatı vahid prosesdə birləşdirilib. Eyni zamanda "bir pəncərə" prinsipinin tətbiqindən sonra donorun qeydiyyat sənədlərinin notarial qaydasında təsdiq olunmuş tərcüməsinə də ehtiyac yoxdur.

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycan üzrə nümayəndəsi Furio De Angelis bildirib ki, təmsil etdiyi təşkilat xarici donorlar tərəfindən qrantların verilməsi prosedurunda "bir pəncərə" prinsipinin tətbiqini yüksək qiymətləndirir və bunu vətəndaş cəmiyyətinin inkişafı üçün mühüm addım hesab edir.

Görüşdə Azərbaycan QHT-ləri ilə Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının əməkdaşlıq imkanlarının genişləndirilməsi və digər mövzularda fikir mübadiləsi aparılıb.




# TANAP-ın ümumi dəyəri 8,5 milyard dollar olacaq

**Trans-Anadolu Boru Xətti Kəməri (TANAP) layihəsinin dəyəri açıqlanıb. "APA-Economics" xəbər verir ki, Türkiyənin BOTAŞ şirkətinin baş direktoru Burhan Özcanın sözlərinə görə, TANAP-ın ümumi dəyəri 8,5 mlrd. dollar təşkil edəcək.**

Ümumi uzunluğu 1 850 km olan TANAP qaz kəməri "Mərhələ-2" çərçivəsində "Şahdəniz" yatağından hasil edilən Azərbaycan qazının Gürcüstan-Türkiyə sərhədindən Türkiyənin qərb sərhədlərinə qədər nəqli üçün nəzərdə tutulub.

17 mart 2015-ci il tarixində Türkiyənin Qars vilayətində TANAP qaz kəmərinin təməlqoyma mərasimi keçirilib. Qaz kəmərinin ötürmə qabiliyyətinin ən azı 16 mlrd. kubmetr təşkil edəcəyi ehtimal olunur. Bu həcmin 10 mlrd. kubmetri Avropaya, 6 mlrd. kubmetri Türkiyənin qərb regionlarına göndəriləcək

TANAP layihəsində şirkətlərin iştirak payı aşağıdakı kimidir: SOCAR - 58%, BP - 12%, BOTAS - 30%.


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Azərbaycanda ali məktəblərə qəbul qaydaları dəyişdirilir

## Bu il bakalavriat səviyyəsinə qəbul imtahanı iki dəfə keçiriləcək

**Təhsil Nazirliyi ali məktəblərə qəbul olan tələbələrin sayının artırılmasına dair təklifləri hazırlayaraq hökumətə təqdim edib.**

APA-nın xəbərinə görə, təhsil naziri Mikayıl Cabbarov deyib ki, ali təhsil müəssisələrində tələbələrin sayı getdikcə artacaq.

Onun sözlərinə görə, Təhsil Nazirliyinə ali təhsil müəssisələri tərəfindən edilən müraciətlər əsasında bu il ali təhsil sistemində hazırlıq ilinin tətbiqi şərti ilə ali təhsil müəssisələrinə qəbulun genişləndirilməsinə dair, yəni qəbul olan tələbələrin sayının artırılmasına dair təkliflər hökumətə təqdim olunub.



Nazir qeyd edib ki, hazırda həmin təklifə hökumətdə baxılır: "Bu dəyişiklik qəbul olunsa, ölkədə ali təhsil səviyyəsinə qəbul olan tələbələrin sayı nisbətən artacaq və yüksək akademik nailiyyətlər göstərən tələbələr təhsillərinə dərhal başlaya biləcəklər. Zəruri bilik səviyyəsi nümayiş etdirə bilməyən, lakin ali təhsilə meylli olan və ali təhsil almaq istəyən tələbələr bir sıra ixtisaslar üzrə ali məktəblərin nəzdində xüsusi hazırlıq kursları keçdikdən sonra ali təhsilə yiyələnə biləcəklər".

Həmçinin Dövlət İmtahan Mərkəzinin (DİM) təklifinə əsasən, Nazirlər Kabineti tam və ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə, ali təhsil pilləsinin bakalavr, magistratura və rezidentura səviyyələrinə tələbə qəbulu qaydalarını təsdiq edib. DİM-dən APA-ya verilən məlumata görə, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul qaydalarında edilən dəyişikliyə əsasən abituriyentlərə seçdikləri ixtisas qrupu üzrə eyni tədris ilində keçirilən bir neçə qəbul imtahanında iştirak etməyə icazə verilir.

Cari tədris ilində bakalavriat səviyyəsinə qəbul imtahanının iki dəfə keçirilməsi nəzərdə tutulur. Bu ilin və əvvəlki illərin məzunları hər iki imtahanda iştirak edə bilərlər. Abituriyentlər müsabiqədə hansı imtahanın nəticəsi ilə iştirak edəcəyini özləri müəyyən edəcəklər.

Digər qəbul qaydalarında ciddi dəyişiklik edilməyib. Təsdiq olunan qəbul qaydaları tqdk.gov.az saytında yerləşdiriləcək və "Abituriyent" jurnalının müvafiq buraxılışlarında çap ediləcək.

# Azərbaycanda siqaret qıtlığı yaşanır

**Azərbaycanda siqaretin topdansatışı ilə məşğul olan firmalar satışı dayandırıb.**

Fins.az xəbər verir ki, bu barədə siqaret satışı ilə məşğul olan bir neçə kiçik sahibkar məlumat verib.

Sahibkarların sözlərinə görə, siqaretlərin nağdsız satışına keçildikdən sonra firmalar topdansatışı, demək olar ki, məhdudlaşdırıb.

Bu barədə məlumat verən iş adamının sözlərinə görə, siqaretin nağd satışı dayandırıldıqdan sonra hesabına pul köçürüb, firmalardan siqaret istəsə də ona bildirilib ki, siqaret yoxdur, satış dayandırılıb: "Mən şəxsən 25 min manat pul ödəmişəm. Tanış sahibkarlar var ki, onlar 50 min manata yaxın pul köçürüblər. Bununla belə, firmalar heç kimə siqaret vermir".

Əldə etdiyimiz məlumata görə, topdansatış firmaları artıq bir aya yaxındır ki, xırda sahibkarları siqaretlə təmin etmir. Sahibkarlar məcbur qalıb, müxtəlif yollarla "qara bazar"dan siqaret alırlar.

Bakının mərkəzində fəaliyyət göstərən köşklərdə işləyən satıcılardan əldə edilən məlumatda isə bildirilir ki, siqaret satışı ilə əsasən 3 firma məşğul olur. Bunlar "Kent", "West" və "Winston" şirkətləridir.

Adıçəkilən firmalar isə qeyri-rəsmi olaraq siqaret satışını dayandırdıqlarını bildiriblər: ""Qara bazar"da siqaret satanlar isə konkret qiymət təklif etmir, kim neçəyə istəyir, o qiymətə satır", - deyə sahibkar qeyd edib.



# Rumıniya parlamenti hökuməti saxladı

**Rumıniya parlamenti Sorin Qrindyanu hökumətinə etimad məsələsini müzakirə edib. "Report"un Şərqi Avropa bürosu xəbər verir ki, fevralın 8-də baş tutan müzakirələr nəticəsində hökumətin istefaya göndərilməsi üçün tələb olunan 233 səs yığılmayıb. Cəmi 161 deputat məsələnin lehinə səs verib.**

Xatırladaq ki, paytaxt Buxarestdə artıq 8-ci gündür hökumət əleyhdarları Qələbə meydanını tərk etmirlər. Aksiyaya qoşulan minlərlə etirazçı hökumətin istefasını, həmçinin növbədənkənar parlament seçkilərinin keçirilməsini tələb edir. Etiraz tədbirləri Braşov, Kluj, Bistrita, Sibiu və digər şəhərlərdə keçirilir.

Qeyd edək ki, fevralın 6-da parlament Senatının və Deputatlar Palatasının plenar iclaslarında müxalifətdə olan Milli Liberal Partiyası və eləcə də "Rumıniyanı Qoru" Birliyinin deputatları tərəfindən Sorin Qrindyanu hökumətinə etimadsızlıq votumunun ifadə olunmasına dair qətnamənin mətni təqdim olunub.

Ölkə prezidenti Klaus İohannis isə ötən gün parlamentdə çıxış edərək hökumətdən ölkədə baş verən son hadisələri qısa zamanda aradan qaldırmağı tələb edib. Prezident həmçinin korrupsiyaya qarşı mübarizədə xalqın dəstəyini öyrənmək məqsədilə referendum təşkil ediləcəyini də vurğulayıb.

"Parlamentə ünvanladığım məktubun cavabını alar-almaz ümumxalq səsverməsi keçiriləcək", - deyə prezident bildirib. Baş nazir Sorin Qrindyanu öz növbəsində parlamentin təsdiqləyəcəyi təqdirdə, hökumətin referendumun keçirilməsini təşkil edəcəyini vurğulayıb. "Prezidentin təşəbbüsü ilə keçiriləcək referendumun təşkilinə hökumət pul tapacaq. Əlbəttə, 50 milyon avronun tapılması elə də asan olmayacaq, amma hökumət cəhd edəcək", - deyə baş nazir qeyd edib.


Elman Babayev

# Nazirlik sahibkarlara xəbərdarlıq etdi

**"Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən özəl sektora aid müəssisələrdə heç bir yoxlama həyata keçirilmir".**

Musavat.com xəbər verir ki, bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Elman Babayev məlumat verib.

O deyib: "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrı-ayrı şəxslərin özlərini "əmək müfəttişləri" kimi təqdim edərək bəzi sahibkarlıq obyektlərində yoxlamalar aparmaq istəməsi faktları barədə məlumatlar daxil olub.

Bununla əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sahibkarların diqqətinə çatdırır ki, ölkəmizdə sahibkarlığın inkişafının dəstəklənməsi istiqamətində aparılan işlərin davamı olaraq, Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, 2015-ci ilin noyabr ayından özəl sektora aid müəssisələrdə yoxlamaların aparılması iki il müddətinə dayandırılıb. Həmin vaxtdan etibarən Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən də özəl sektora aid müəssisələrdə heç bir yoxlama həyata keçirilmir.

Hazırda bu və ya digər sahibkarlıq obyektində kiminsə özünü "əmək müfəttişi" kimi təqdim edərək yoxlama aparmaq istəməsi də əsassızdır, qanunsuzdur.

Ona görə də sahibkarlardan belə halla qarşılaşdıqları təqdirdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 142-Çağrı Mərkəzinə dərhal məlumat verməri xahiş olunur".

# Dollar ucuzlaşmaqda davam edir

**Azərbaycan Mərkəzi Bankı (AMB) fevralın 9-na olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb.**

AMB-dən "APA-Economics"ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi 1,8252 səviyyəsində müəyyən olunub.

Qeyd edək ki, ötən həftə dolların məzənnəsi 1.92-ni ötmüşdü.

# Düşmən ölkədə gərginlik: Ermənistan itkilərini niyə gizlədib?

İşğalçı ölkə Azərbaycan Müdafiə Nazirliyinin rəsmi məlumatını 24 saat sonra təsdiqlədi; 1 ölü, 1 ölümcül yaralı xəbəri; **polkovnik Şair Ramaldanov:** “Ola bilsin ki, erməni tərəf təmas xəttindəki vəziyyəti yoxlamaq üçün belə cəhdlər göstərir”



Şair Ramaldanov

**Ermənistan prezidenti Serj Sərkisyanın, həmçinin siyasi partiya liderlərinin Qarabağla bağlı qarşılıqlı güzəştlərin zəruriliyi barədə seçkiqabağı bəyanatlarının əslində hiylə olduğu barədə yazdıqlarımız təsdiqləndi. Belə ki, son günlər İrəvandakı “sülhməramlı” bəyanatların ardınca düşmən ölkənin ordusu cəbhənin bir neçə istiqamətindən diversiya-təxribat cəhdləri göstərib.**

Fevralın 8-də isə İrəvan Azərbaycan Müdafiə Nazirliyinin bir gün öncə yaydığı məlumatı təsdiqləyərək, təmas xəttində verdiyi itkiləri rəsmən etiraf edib. Sözügedən məlumatda bildirilir ki, fevralın 8-də saat 11.00-da cəbhənin şimal istiqamətində (Talış-Goranboy) mühəndis-istehkam bölüyündə müqavilə ilə xidmət edən 1979-cu il təvəllüdlü Qeram Qenrixoviç Manukyan Azərbaycan ordusu tərəfindən məhv edilib. Xankəndindəki separatçı rejimin yaydığı məlumata görə isə çərşənbə axşamı saat 12.00-da cəbhənin şimal-şərq (Ağdərə) istiqamətində 1998-ci il təvəllüdlü müddətdən artıq hərbi qulluqçu Koryun Kmoeviç Kirakosyan ölümcül güllə yarası alıb. Başından ağır yaralanan əsgər Xankəndi hospitalında əməliyyat olunsa da, sağalacağına ümid yoxdur.

Haqqin.az saytının yaydığı xəbərdə bildirilir ki, Xankəndindəki hospitala yaralı əsgərlər gətirilir, yaralılardan ikisi İrəvana göndərilib. Sayt ən azı 5 erməni əsgərinin artilleriya atəşi nəticəsində öldürüldüyünü yazıb. Bundan əlavə, öldürülən hərbçinin podpolkovnik olduğu qeyd olunub.

Qeyd edək ki, fevralın 7-də Azərbaycan Müdafiə Nazirliyi düşmənin diversiya hərəkətinin qarşısının alındığı barədə məlumat yaymışdı. Sözügedən xəbərdə bildirilirdi ki, günün ikinci yarısından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən cəbhənin müxtəlif istiqamətlərində qoşunlarımızın müdafiənin ön xəttindəki mövqeləri iriçaplı silahlardan, minaatanlar və toplardan atəşə tutulub. Dərhal görülən təxirəsalınmaz cavab tədbirləri nəticəsində atəşlə düşmənin müxtəlif mühəndis qurğuları və atəş nöqtələri məhv edilib. Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı birləşmələrinin mövqelərimizi iriçaplı silahlardan atəşə tutmaqla Dağlıq Qarabağda cəbhənin başqa istiqamətində həyata keçirməyə cəhd etdiyi diversiyadan diqqəti yayındırmaq məqsədi güddüyü ehtimal olunur. Lakin bölmələrimizin sayıqlığı nəticəsində düşmənin aktivliyi əvvəlcədən aşkar olunub. Görülən tədbirlər nəticəsində itki verən düşmən geri çəkilməyə məcbur edilib.

Məlumata görə, Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti heç bir itki verməyib və hazırda bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edilir.

Azərbaycan tərəfinin bu açıqlamasından sonra Ermənistan da cəbhədə gərginliyin hökm sürdüyünü, Azərbaycan ordusunun topları işə saldığını, “İstiqlal”



silahlarından, həmçinin qumbaraatanlardan istifadə etdiyini açıqladı. Ancaq nədənsə İrəvan itkilər barədə yalnız bir gün sonra, fevralın 8-də rəsmi açıqlama verib. Çox qəribədir ki, düşmən hərbçilərin ölümü və yaralanması barədə dəqiq saatları da (11.00 və 12.00-E.P.) göstərib.

**Bu, bizə Azərbaycanın Müdafiə Nazirliyi ilə əlaqə yaratdığımız zaman aydın oldu. Belə ki, nazirliyin mətbuat xidmətinin rəisi Vaqif Dərgahlı “Yeni Müsavat”a dedi ki, ümumiyyətlə, 8 fevralda ciddi gərginlik müşahidə olunmayıb. Xidmət rəisi erməni mətbuatının yazdıqları ilə tanış olduğunu dedi. Onun fikrincə, çox güman ki, bu itkilər 7 fevraldakı döyüşlərin nəticəsidir, amma düşmən rəsmi açıqlamanı bir gün sonraya saxlayıb. V.Dərgahlı Azərbaycan ordusunun vəziyyətə tam nəzarət etdiyini bildirdi.**

Müdafiə Nazirliyi erməni diversiya qrupunun atəşlə məhv edilməsinin görüntülərini yayımlayıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, videoda bölmələrimiz tərəfindən erməni diversiya qrupuna atəş açılması, dəstə üzvlərinin panika içində qaçmaları, ölən və yaralıların avtomobilə daşınması, eləcə də hərbi nəqliyyat vasitəsinin məhv edilməsi anı müşahidə olunur.

“Ola bilsin ki, erməni tərəf təmas xəttindəki vəziyyəti yoxlamaq üçün belə cəhdlər göstərir. Yaxud arxaya keçib hansısa təxribat törətmək istəyirlər”. Ehtiyatda olan polkovnik **Şair Ramaldanov** “Yeni Müsavat”a düşmənin aktivləşməsini şərh edərkən bildirdi. Hərbi ekspert xatırlatdı ki, ötən ilin aprelində sarsıdıcı zərbələr alan düşmən indiyə kimi sakitləşmir: “Ermənistan hakimiyyəti cəmiyyətə vəd edir ki, ya həmin mövqeləri ələ keçirəcək, ya da ona uyğun ərazini işğal edəcək, ona görə də hansısa hazırlıqlar gedir. Ancaq bizim əsgərlər də ayıq-sayıqdırlar. Düşmən hər bir variantа gedə bilər. İstəyirlər ki, təmas xəttində narahatlıq, yaşayış məntəqələrində gərginlik olsun”. **Ş.Ramaldanov gərginliyin daha geniş fazaya keçməsini istisna etmir:** “Aprel hadisələrini gördük ki, hadisələr düşmənin yaşayış məntəqələrini atəşə tutması nəticəsində baş verdi. Sakinlər rəhbərliyə müraciət etdilər ki, düşmən təxribatları ilə bağlı tədbirlər görülsün, nəticədə yaşayış məntəqələrinin təhlükəsizliyi məqsədilə ordumuz işğalçıları geri atdı. Əgər erməni tərəf təxribatların sayını artırsa, özbaşınalıqlarına davam etsə, Azərbaycan Silahlı Qüvvələri sərt tədbir görərək onların cavabını verməli olacaq. Özü də bu cavab aprel hadisələrindən də təsirli olacaq”.

Şübhəsiz ki, Ermənistan hakimiyyəti cəbhədəki yeni itkilərin daxildə sərt reaksiyalara səbəb olacağından ehtiyatlandığına görə rəsmi açıqlama üçün “daha uyğun zaman” seçib. Belə ki, Azərbaycan qanunlarını pozduğu üçün Belarusda həbs edilərək Bakıya təhvil verilən blogger Aleksandr Lapşinlə bağlı məsələ 8 fevralda - Ermənistan mediası cəbhədəki itkiləri açıqladığı saatlarda - əsas müzakirə mövzusu oldu, Ermənistan parlamenti bununla bağlı geniş diskussiyalar açdı, hətta Belarusun İrəvandakı səfirliyi qarşısında aksiya keçirildi. Bu isə cəbhədə baş verənləri arxa plana keçirmək fürsəti yaratdı. Parlament seçkiləri ərəfəsində onsuz da dayaqları ciddi şəkildə sarsılan Serj Sərkisyan hakimiyyəti Qarabağdakı itkilərlə bağlı haqq-hesab tələb edəcəyindən ehtiyatlandığı üçün diqqəti yayındırmaq istəyir. İrəvanı təlaşlandıran digər məsələ də var. Lapşin mövzusu da sübut etdi ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan Belarus Ermənistanın yox, Azərbaycanın yanında yer alır və bu təşkilatın dəstəyinə olan ümidlər də dəfn edilir...

❑ **Elşad PAŞASOY**

# Vulkanmı, təxribatmı - Qaz İxrac İdarəsi məsələyə aydınlıq gətirdi

**Nazim Səmədzadə:** “Səngəçal terminalı ilə püskürmə baş verən dağın arasında azı 2 kilometr məsafə var”

**Xəbər verdiyimiz kimi, Qaradağ rayonu, Səngəçal qəsəbəsi ərazisində Otman-Bozdağ palçıq vulkanında partlayışla müşayiət olunan püskürmə baş verib. Bəzi xəbər saytlarında partlayışın vulkan püskürməsi deyil, ərazidən keçən qaz kəmərlərində baş verən partlayış kimi təqdim olunub.**

Qeyd edək ki, Otman-Bozdağ palçıq vulkanında baş verən püskürmə haqda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti məlumat yaymışdı. Məlumatda çatların 3-4 kilometr məsafəyə qədər uzandığı qeyd edilirdi. Bildirilirdi ki, vulkan püskürməsi zamanı xaric olunan sülb tullantılarının həcmi ümumilikdə 12 hektardan çox ərazini örtüb. Xaric olan brekçiya qatının qalınlığı 2 metrə, uzunluğu isə 350 metrə çatıb. Nazirlik palçıq vulkanının təhlükəli olmadığını da qeyd edib.

“Vulkanın yerləşdiyi tektonik çatın üzərində bir neçə iri palçıq vulkanı da vardır ki, onların da aktivləşmə ehtimalı artıb”, - nazirlik qeyd edir.

Palçıq vulkanının püskürdüyü ərazinin yaxınlığından ölkəmizin əsas qaz ixrac boru kəməri keçib. Son 2 ay ərzində həmin qaz ixrac borularında bir-birinin ardınca 3 partlayış baş verib. SOCAR-ın yaydığı məlumatlarda həmin partlayışların qaz ixrac kəmərlərində sürüşmə zamanı əmələ gələn çatlarda yaranan qığılcımdan meydana çıxdığı bildirilirdi.

Partlayışlardan əvvəl isə İŞİD-çi olduğu şübhə doğurmayan şəxsin videosu yayılmışdı. Həmin şəxs ölkəmizdəki həmfi-



Nazim Səmədzadə

kirlərini qanlı cinayətlər törətməyə səsləyirdi.

Vulkan püskürməsindən 1 gün əvvəl də oxşar hədələrlə zəngin daha bir videomüraciət yayılmışdı. Bu baxımdan, bəzi saytların ərazidə baş verən vulkan püskürməsini qaz kəmərində baş verən partlayış kimi təqdim etmələri də anlaşılandır.

Digər tərəfdən, son 4 ayda Azərbaycanda 10-a yaxın terrorçu məhv edilib, Türkiyədə keçirilən 2 günlük antiterror əməliyyatı nəticəsində Bursa əyalətində də terrorçu İŞİD qruplaşmasına üzv olmaqda şübhəli bilinən çoxlu adam saxlanılıb. Tutulanlar arasında 3 Azərbaycan vətəndaşı da var.

**SOCAR-ın Qaz İxrac İdarəsinin rəis müavini Nazim Səmədzadə “Yeni Müsavat”a açıqlamasında terror versiyasını istisna edib. Bildirib ki, kəmərlərin keçdiyi ərazidən 2 kilometr aralıqda vulkan püskürüb, püskürmə baş verərkən o da ərazidə olub:**

- Gurultu səsi gəldi, vulkan püskürdü, alov qalxdı. Az sonra da söndü. Əgər qaz kəmərində partlayış olsa idi, belə tezliklə sönməzdi.

***- Bəzi saytlar belə məlumat yayıb ki, əslində ərazidə qaz kəməri partlayıb, sadəcə, ictimaiyyətə məlumat vulkan püskürməsi kimi təqdim olunub.***

- Telekanallarda da vulkan püskürməsini göstərdilər. Hadisə baş verəndə mən orada idim. 2 dəqiqənin içində püskürmə oldu, alov qalxdı və söndü. Qaz kəmərində partlayış 2 dəqiqəyə sönməzdi. Həmin partlayışın neft-qaz kəmərlərinə aidiyyəti yoxdur. Səngəçal terminalı ilə püskürmə baş verən dağın arasında azı 2 kilometr məsafə var.

***- Ötən il dekabrın 27-də və yanvarın 2-də partlayan magistral qaz kəmərlərində təmir işləri yekunlaşıb?***

- Kəmərlər bərpa olunub. Birinci partlayış zamanı kəmərdə müəyyən nöqsanlar aşkar edildi. Kəmər rentgen olundu, zəif yerləri bərpa edildi. İkinci partlayışdan sonra kəmər bərpa olundu, hazırda işləyir.

***- Problem tam aradan qalxıb?***

- Hazırda heç bir problem yoxdur.

***- Baş vermiş partlayışlar zamanı dəyən ziyan hesablanıb?***

- Orada hazırda bütün stıklar yoxlanılır, ehtiyac olan yerlərdə təmir gedir. Ona görə ziyanı müəyyən etmək hələlik qeyri-mümkündür.

***- Həmin boruların əvəzlənməsi, yenilənməsi nəzərdə tutulur?***

- Xeyr, borular yaxşı vəziyyətdədir, işləkdir.

***- İlkin partlayışlardan sonra yayılan məlumatdan belə aydın oldu ki, kəmərlər aktiv sürüşmə zonasından keçir. Artıq orada vulkan püskürməsi də baş verib. Həmin kəmərlərin digər ərazidən yenidən çəkilməsi planlaşdırılırmı?***

- Kəmərlərin digər ərazidən keçirilməsi mümkün deyil. Sağ tərəfə çəkilsə gedib Təzəkəndin, sola çəkilsə Səngəçalın üzərinə çıxır. Həmin dəhliz 1959-cu ildə seçilib və kəmərlər çəkilib. İlk qaz boru kəməri həmin il Gürcüstana çəkilib. Həmin kəmərləri digər ərazilərə sürüşdürüb aparmaq istəsək, əhalinin yaşayış məskənlərinə gedib çıxacağıq.

***- Kəmərlərin təhlükəsizliyi hansı səviyyədə təmin edilir?***

- Kəmərlərdəki partlayışlar texnologiya ilə bağlı partlayışlar deyil. Biz kəmərlərə 60 faiz təzyiqlə işləyirdik. İlk partlayış boruda olan deffektə görə meydana çıxıb. Borunun deffektli hissəsini kəsib prokurorluğa təqdim etmişik. Hazırda müvafiq ekspertiza keçirilir. Bundan sonra qərar veriləcək. Sonrakı iki partlayış birbaşa qaynaqdan olan uyğunsuzluğa görədir. Qaynaq lazımi səviyyədə olmayıb. Həmin hissələri də kəsib prokurorluğa təqdim etmişik, müayinələr aparılır. Kimin nə səhvi var, bilinəcək, ölçü götürüləcək. Hazırda cinayət işinin istintaqı davam edir. Biz də bütün lazım olan fraqmentləri təhvil vermişik.

***- Cinayət işi boruların qəsdən partladılması, yoxsa texniki təhlükəsizlik qaydalarının pozulması maddəsi ilə başlanıb?***

- Söhbət təxribatdan getmir. Burada heç bir kənar müdaxilə yoxdur. Boruda deffekt olub, 2-ci, 3-cü dəfələrdə qaynaq işləri lazımi səviyyədə aparılmayıb.

❑ **E.MƏMMƏDƏLİYEV**



# Mərdanov dövrünün tənqidi

**Samir SARI**

**Xəbərin başlığı beləydi: "Mikayıl Cabbarov Misir Mərdanovun nazir olduğu dövrdəki fəaliyyəti tənqid edib".**

Ancaq mətnə baxanda görünürdü ki, indiki təhsil naziri sələfini - köhnə nazir Misir Mərdanovu o qədər də sərt tənqid etməyib, eləcə deyib ki, bir neçə ilin əvvəlki təhsil sisteminin infrastrukturu bir çox hallarda müasirləşdirilməli idi.

İndi bu tənqiddirmi? Tənqid o olardı ki, indiki nazir çıxıb 2013-cü ildən qabaq təhsil sferasındakı neqativ hallardan, şagirdlərdən yığılan xəraclardan *(fond pulu, süpürgə pulu, 8 mart pulu, müəllimlər günü pulu, təbaşir pulu, soba pulu və s.),* seçki saxtakarlıqlarına vadar edilən müəllimlərdən danışaydı.

Məsələn, Mikayıl müəllim desəydi ki, məndən əvvəl gedib Dağıstanda, Kiyevdə, Sankt-Peterburqda qeyri-test yoluyla, rüşvət müqabilində 3-cü dərəcəli universitetlərə daxil olan minlərlə tələbə sonradan köçürmə yolu ilə ölkəmizdəki dövlət ali məktəblərinə qəbul edilib və hazırda onlar diplom alaraq iş başındadırlar, bu olardı tənqid.

Özü də ən maraqlısı odur ki, universitetə daxil olarkən test imtahanında 600-650 bal toplayan, 4 il bakalavr, 2 il də magistr təhsili alan minlərlə tələbə işsiz qaldığı halda, testlə 150 bal toplaya bilməyən, amma gedib adı yuxarıda çəkilən ölkələrdəki "kitayski" universitetlərə girib, ordan da üzü bəri köçürülən, sonra məzun olan gənclər hazırda dövlət orqanlarında yaxşı və perspektivli vəzifələrdədir. Bu gün-sabah onlar daha böyük vəzifələrə təyin olunacaqlar, o zaman biz onların avtobioqrafiyasında oxuyacağıq ki, iki universitet qurtarıb, xaricdə təhsil alıb-zad. Heç kəs bilməyəcək ki, adam öz adını yazanda səhv buraxır. Hətta bunu bilənlər və deyənlər olanda da onlara cavab verən tapılacaq ki, ola bilər, cənab rəisin yazısında qrammatik səhvlər olsun, amma yaxşı təşkilatçıdır, sahəsinin peşəkarıdır, etibarlı kadrdır və s.

Nəyə görədirsə, hələ sovet vaxtından bəri bizim ölkədə universiteti fərqlənmə diplomu ilə bitirən savadlı məzunlar "yaxşı təşkilatçı" ola bilmirlər, əvəzində "günəş"i "güləş" yazan və elə də oxuyan bisavad adamlar "yaxşı təşkilatçı", "bacarıqlı rəhbər işçi" olurlar.

Burada Mərdanovun günahı yoxdur, bu, 30-40 il qabaqdan belədir. Sirri-xuda kimi bir şeydir. Hələ o vaxtlar adam düşünürdü ki, ola bilməzmi ya universitetlərdə savadlı tələbələrə dərs verəndə onlara "yaxşı təşkilatçılıq" işini də öyrətsinlər, ya da sonradan "yaxşı təşkilatçı" olacaq şəxslərə də bir az savad versinlər? Yəni bu məziyyətlərin ikisi bir yerdə ola bilməzdimi?

Bax, nazir Cabbarov bu məsələlərdən danışsaydı, olardı sağlam tənqid. Düzdür, o zaman onun tənqidi bir az dövlət ittihamnaməsinə oxşayacaqdı, amma sözləri yumşaltmaqla çıxış yolu tapmaq mümkün idi. Yoxsa bu da tənqiddirmi: "Müşahidələr nəticəsində müasir təhsil sistemlərində olan çevik alətlərin və mexanizmlərin ali təhsil sistemində o dövrdə olmaması problemi aşkarlanıb".

Biz deyirik, təhsil batıb gedib, camaatın uşağı kor olub, on minlərlə abituriyent elementar şeyləri bilmir, məzunların yarısı ana dilindən "iki" alır, nazirimiz də deyir, akademik mobillik, istər təhsilalan və təhsilverənlərin artıq fiziki məkana, yəni ali təhsil müəssisəsinə deyil, təhsil prosesinin daha çevik və sərhəd tanımayan prosesə çevrilməsi əsas idi".

Yox, daha dəqiqi, bəli, qardaşlar, tənqid dediyin açıq, gerçək, sanballı olmalıdır, neqativ halları bir-bir saymalısan və onların necə həll etməli olduğunu deməlisən.

Yoxsa hər iclasda saatlarla danış-danış, amma eyni problemlər olduğu kimi də qalsın.

Məsələn, hər il universitetlərə yüzlərlə məzun ən yüksək ballarla (600-700 arası) daxil olur, məktəb direktorları bunu nazirliyə öz uğurları kimi təqdim edir: "Cari ildə filan qədər məzunumuz tələbə adı qazanmışdır" - filan. Ancaq hamı da bilir ki, abituriyentlərin tələbə adı qazanması yüzdə doxsan beş halda valideynlərin repetitorlara hər ay bir ətək pul ödəməsi sayəsində mümkün olub. Yerdə qalan o beş faiz isə vunderkind uşaqlardır, beyinləri, namxuda, kompüter kimidir, özləri müəllimsiz, repetitorsuz oxuya bilirlər.

Dediyim odur ki, tənqid "yıxıb sürümə" janrında, "yıxılana balta çalma" modunda olmadısa, dilə gətirmə.

# Beynəlxalq Bankın borcları yüklənir...

## Ekspertlər hökumətin BB-nin 3 milyard dollar borcunu öhdəsinə götürəcəyi xəbərinə fərqli münasibət bildirirlər

**Beynəlxalq Bankla bağlı yeni gəlişmələr var. Artıq bankın on milyardlıq borcunun üçdə birinin hökumət tərəfindən ödəniləcəyinə dair ümidlər var. Bildirilir ki, hökumət Beynəlxalq Bankın "3 milyard dollar borcunu öhdəsinə götürür". Ekspertlər bununla bağlı müxtəlif fikirlər səsləndirirlər.**




Beynəlxalq Bank təxminən 3 milyard ABŞ dolları həcmində olan borcunu, hökumətin boynuna götürəcəyinə ümid edir. Bank sədri "Reuters"ə müsahibəsində bildirib ki, bu, ABB-nin yenidən maliyyələşdirilməsi çərçivəsində baş tutacaq. "Dövlət bankı olan ABB Azərbaycanın ən böyük bankıdır və hazırda Beynəlxalq Valyuta Fondunun təklifi və prezident İlham Əliyevin əmri ilə balans hesabını təmizləmək üçün yenidən maliyyələşdirilir",- deyə yazıda vurğulanır. 2015-ci ildə İqtisadiyyat Nazirliyi, Mərkəzi Bank və "Aqrarkredit" *(dövlət mülkiyyətində olan qeyri-bank təşkilatı)* - ABB-nin korlanmış və riskli borclarının Aqrarkreditə 2 il ərzində transfer ediləcəyi razılığına gəliblər. (BBC)

**İndiyə qədər 10 milyard manat həcmində korlanmış borclar "Aqrarkredit"ə keçirilib.** "İlkin hesablamalara əsasən, dövlətdən növbəti tranşın məbləği üç milyard ABŞ dolları olacaq",- deyə ABB sədri Xalid Əhədov "Reuters"ə müsahibəsində deyib. Onun fikrincə, zərər görmüş aktivlər balans hesabından götürüləcək: "Bu, bankın 500 milyon manatadək ehtiyatını geri qaytaracaq və kapital mövqeyinə dəstək verəcək".

X.Əhədovun sözlərinə görə, növbəti tranşın bu ilin ilk rübündə baş tutacağı gözlənilir və ABB-nin problemi üzrə son köçürülmə olacaq.

**Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, çox güman ki, bu vəsait Neft Fondu vasitəsilə veriləcək:** "Neft Fondundan keçən il ərzində Beynəlxalq Banka bir milyard manat depozit qoyuldu. Problemli kreditlərin silinməsi ilə paralel olaraq bu, edildi. Bu da Beynəlxalq Bankın bəzi beynəlxalq öhdəlikləri yerinə yetirməsi üçün istifadə edildi. Çox güman ki, bu il də həmin prosesin təkrarını biz görə bilərik. Çünki başqa bir mənbə yoxdur. Ya Neft Fondundan birbaşa depozit şəklində Beynəlxalq Banka pul qoyulacaq. Ya da Neft Fondundan Mərkəzi Banka bu il üçün ayrılmış 7,5 milyard manatlıq transfert var ki, bəlkə də bu transfert çərçivəsində bu vəsaitin bir hissəsinin Mərkəzi Bank tərəfindən Beynəlxalq Banka yönləndirilməsini də görərik. Yəni Azərbaycanda vəsaitin bir mənbəyi var. Neft Fondundan başqa digər ciddi vəsaiti olan mənbə yoxdur. Ona görə də Beynəlxalq Bankın problemləri həll olunacaqsa, yenidən Neft Fondunun vəsaitlərinə müraciət etməli olacaqlar. Çünki başqa mənbə yoxdur ki, Beynəlxalq Bankın problemli kreditlərini və ümumiyyətlə, problemlərini həll etsin. Beynəlxalq Bankın özünün də reytinqi çox aşağı düşüb. Hətta reytinq "zibil" səviyyəsinin bir addımlığına düşüb. Elə reytinqlə Beynəlxalq Bank maliyyə bazarlarından birbaşa kredit almaq imkanından məhrumdur. Ona görə də ancaq dövlətin dəstəyi ola bilər".

**Qeyd edək ki, Beynəlxalq Bankın 2016-cı ildə 1,4 milyard manat xalis itkisi olub. Dəyərləndirmə agentliyi "Fitch"ə əsasən, məbləğin 1,1 milyard manatı valyutada müəyyən edilmiş itkilərdir. "Fitch"ə görə, bank 300 milyon manat əlavə foreks itkisini sifariş edə bilər. X.Əhədov söyləyib ki, ABB-nin yenidən təşkili ilə bağlı hazırkı görülən tədbirlər 2017-ci ilin sonunadək bankın az miqdarda gəlir əldə etməsinə imkan yaradacaq.** "Deyə bilərəm ki, biz aza ümid etsək də, ilin axırınadək gəlir əldə edəcəyik",- deyə o vurğulayıb. O əlavə edib ki, bankın xarici öhdəlikləri yerinə yetirmək üçün heç bir problemi yoxdur. "Yenidən təşkildən sonra bank satışa çıxarılacaq və dövlət tədricən öz payını kəsəcək",- X.Əhədov bildirib. "Bankın özəlləşdirilməsi prosesinə Beynəlxalq Maliyyə Korporasiyası, "Avropa Yenidənqurma və İnkişaf Bankı" və "Asiya İnkişaf Bankı" kimi beynəlxalq qurumları cəlb edə bilmək çox mühümdür",- deyə o vurğulayıb. **X.Əhədov bankın xarici özəl alıcılarla yanaşı, yerli investorlara da təklif olunacağını istisna etməyib:** "Bu, daxili fond birjasına qoyulan paylar sayəsində baş tutacaq. Lakin o, bunun nə vaxt baş tutacağını bildirməyib. ABB-nin dövlətin əsas layihələrində iştirakını nəzərə alsaq, hökumət öz hissəsini tədricən satışa çıxaracaq". Neft qiymətlərinin düşməsi nəticəsində Azərbaycan iqtisadiyyatı zəifləyib və milli pul valyutası dəyərini itirib. İqtisadiyyat zəiflədikcə, Azərbaycan banklarının korlanmış kreditləri artıb və kapitalları azalıb. Bəzi banklar lisenziyalarını itiriblər.

**Röya RƏFİYEVA**

# Tələbələrə yataqxana xərcləri üçün kredit verilə bilər

**"Gələcəkdə təhsil kreditlərinin verilməsi zamanı yalnız tələbələrin təhsil haqqının ödənilməsi nəzərdə tutulmayacaq. Bu mexanizmi genişləndirməyi düşünürük".**



"Report"un məlumatına görə, bunu "Maarifçi" Tələbə Kredit Fondunun icraçı direktoru Rüfət Mahmud deyib.

O bildirib ki, gələcəkdə tələbələrin yataqxana xərcləri üçün də kredit verilə bilər: "Bəzən rayonlardan gələn tələbələrlə ünsiyyətdə olarkən görürük ki, onların təhsil haqqından əlavə, yaşama yerləri ilə bağlı bir çox problemləri olur. Bunu nəzərə alaraq tələbələrə yataqxana xərcləri üçün kredit verilməsi məsələsinə də baxılacaq. Sonrakı müddətlərdə hətta hansısa tədqiqat, araşdırma işlərində də kömək edilə bilər".

**R.Mahmud onu da qeyd edib ki, bu gün kreditlərin qaytarılması mexanizmi sabit qrafiklə hesablanır:** "Lakin bir çox ölkələrdə gəlirə bağlı olan qrafiklər, mexanizmlər mövcuddur. Bu gün bizim üçün bunu tətbiq etmək bəlkə də bir qədər tezdir. Biz bunu bir çox dövlət qurumları ilə birgə işləyib hazırlamalıyıq. Amma gələcəkdə bu mexanizmin olmasını istisna etmirik".

**O, eyni zamanda hazırda ailə başçısını, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan, sağlamlıq imkanları məhdud tələbələrə kreditlərin güzəştli şərtlərlə verildiyini xatırladıb:** "Kreditlərin faiz dərəcəsi 6 faizdən 8 faizədək dəyişir. Kreditin qaytarılma müddəti 5 ildən 10 ilə qədərdir. Amma qaytarılma üçün tələbələrə təhsil müddəti bitdikdən sonra müəyyən güzəşt müddəti də verilir. Nəzərdə tutulur ki, o müddət ərzində tələbə hansısa işlə təmin olunsun. Ödənişlər güzəşt müddəti bitdikdən sonra olmalıdır. Tələbəyə maksimum 7 min manat kredit verilir. Bu, sosial bir layihədir və burada tələbələrdən hər hansı zamin və ya girov tələb olunmur".

**İcraçı direktor deyib ki, bu gün, sadəcə, bakalavr səviyyəsi üzrə kreditlər verilir:** "Gələcəkdə isə digər təhsil dərəcələrinə görə də kreditlərin verilməsi mümkün olacaq. Təbii ki, strateji planlara görə hansısa ixtisaslar üzrə də prioritetlər qoyula bilər".

**Yəhudi blogger Aleksandr Lapşinin ölkəmizə təhvil verilməsi ciddi rezonans doğurub. Azərbaycana ekstradisiya edilən blogger Ədliyyə Nazirliyi Penitensar Xidmətin 1 saylı Bakı İstintaq Təcridxanasına köçürülüb. (APA) Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov bildirib ki, hazırda onunla bağlı başlanmış cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir. Ona vəkil də təyin edilib.**




# Lapşinin Bakıya ekstradisiyası ciddi rezonans doğurdu

## İnsident işğalçı ölkə ilə Belarusu üz-üzə qoydu; İrəvanda etirazlar başladı; səfir Ermənistanı tərk etdi; Rusiya və İsraildən reaksiyalar gəldi; Qarabağdakı girovlarımızın məsələsi aktuallaşdı…

Rusiya, İsrail və Ukrayna vətəndaşı olan bloggerin Azərbaycana verilməsi Ermənistanda şok yaradıb. Modern.az saytı Ermənistan KİV-nə istinadən xəbər verir ki, iqtidara yaxınlığı ilə seçilən Beynəlxalq Sülh və Əlaqələr İnstitutunun rəhbəri Stepan Safaryan ölkəsinin Belarusdakı səfirinin geri çağırılmasını tələb edib. “Belarusdakı səfirimiz rüsvayçılıqla qovulmalıdır”. Müxalifətdəki “İrs” partiyasının rəhbərlərindən olan David Sanasaryan isə Lapşinin həbsindən sonra heç bir ağlı başında olan əcnəbinin Qarabağı ziyarət etməyəcəyini deyib.

“Ermənistan Belarusun KTMT-dəki üzvlüyünə xitam verilməsi məsələsini qaldırmalıdır”. Musavat.com erməni mediasına istinadən xəbər verir ki, bu təklifi Ermənistan parlamentinin 8 fevral tarixli iclasında hakim Respublikaçı Partiyasının fraksiya rəhbəri Vaqram Baqdasaryan verib.

Belarusun Ermənistandakı səfirliyi Aleksandr Lapşinin həbsi ilə bağlı açıqlamalara cavab vermir. Səfirliyin siyasi məsələlər üzrə müşaviri Vadim Mixaylov bu barədə açıqlama verməyəcəklərini deyib. O, Belarus səfirinin də İrəvanda olmadığını təsdiqləyib. Səfirin təcili olaraq Minskə çağırıldığı bildirilir.

Fevralın 8-də Belarusun İrəvandakı səfirliyinin binası qarşısında blogger Aleksandr Lapşinin Azərbaycana ekstradisiyasına etiraz olaraq nümayiş keçirilib. Virtualaz.org erməni KİV-lərinə istinadən xəbər verir ki, nümayişdə deputatlar da iştirak edib. Müxalif deputat Nikol Paşinyan Belarus səfirinin ünvanına “qısa müddət ərzində Ermənistanı tərk et” tələbi yazılmış bəyanatı səfirliyə təqdim etməyə çalışıb, lakin səfirliyin əməkdaşları domofonla ona çatdırıblar ki, səfir yerində yoxdur və bəyanatı qəbul edə bilməyəcəklər. Səfirliyin qarşısına toplaşanlar Belarus səfirinin ünvanına “Rədd ol!” şüarları qışqırıblar.

Məsələ dünya mətbuatının diqqət mərkəzindədir. Nüfuzlu xəbər agentlikləri və saytları, o cümlədən Rusiya, Türkiyə, Gürcüstan, Ukrayna, İsrail, Ermənistan və Avropa mətbuatında bununla bağlı xəbərlər tirajlanıb. İrəvan Azərbaycana qarşı həqarətlərə yol verən bloggerin ekstradisiyasının “media azadlıqları”na zidd olduğu barədə hay-küy qaldırıb. Ermənistanın Xarici İşlər Nazirliyi guya Lapşinin Azərbaycana ekstradisiya olunmasının söz və hərəkət azadlığına zidd olduğunu bəyan edib. Ermənistanın ombudsmanı isə Brüsseldə səfərdə olmasından istifadə edərək Avropa Birliyinin bir sıra rəsmi nümayəndələri, o cümlədən AB-nin Cənubi Qafqaz üzrə nümayəndəsi Herbert Salberə Azərbaycandan şikayət edib.

**Bu kimi iddialara media eksperti Ələsgər Əhmədoğlu özünün facebook səhifəsində tutarlı arqumentlərlə reaksiya verib:** “Lapşin Azərbaycanın BMT tərəfindən tanınan sərhədlərini qanunsuz pozan və ərazi bütövlüyünü şübhə altına alan açıqlamalarla gündəmə gəlib. Yerli və beynəlxalq qanunvericiliyə əsasən məsləyindən asılı olmayaraq, hər kəs bu pozuntuya görə məsuliyyət daşıya bilər. İfadə azadlığı mütləq azadlıq deyil və müəyyən legitim mənafelər baxımından məhdudlaşdırıla bilər. Bu legitim mənafelərdən biri də ”ərazi bütövlüyü" anlayışıdır. Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinin 1-ci hissəsi ifadə azadlığını qoruyur, 2-ci hissəsi isə ifadə azadlığının konkret hansı hallarda qanunla legitim mənafelər üçün məhdudlaşdırıla biləcəyini göstərir. Bu mənafelərdən biri də “Milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş” çərçivəsidir".

**Rəsmi Bakının bu məsələ ilə bağlı prinsipial mövqeyi təqdir olunur:** “Ermənistan tərəfindən işğal edilmiş ərazilərimizə qanunsuz səfər edən Aleksandr Lapşinin ölkəmizə ekstradisyası Azərbaycanın bir dövlət kimi yüksək nüfuzunun göstəricisidir”. Bunu YAP-çı deputat Aydın Mirzəzadə deyib (axar.az) Deputat qeyd edib ki, Lapşin məsələsi ötən ilin aprel hadisələri kimi tariximizə yazılacaq bir məsələdir: “Bu, eyni zamanda Ermənistana növbəti ciddi xəbərdarlıqdır. Azərbaycanın dinc əhalisinə qarşı hərbi cinayətlər törətmiş erməni cinayətkarları da nə zamansa, əlləri qandallı məhkəməmiz qarşısında duracaqlar”.

**“Aleksandr Lapşinin Azərbaycana ekstradisiyası son dərəcə mühüm hadisədir”. "Trend"in məlumatına görə, bunu mətbuata açıqlamasında Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov deyib. Ə.Amaşov qeyd edib ki, A.Lapşinin ekstradisiyası Ramil Səfərovun Azərbaycana ekstradisiyası qədər önəmlidir:** “Hər iki halda prezident İlham Əliyevin şəxsində Azərbaycan dövləti öz prinsipial və qətiyyətli mövqeyini bəyan etməyi bacarıb. Bu baxımdan, qeyd edəcəyim ikinci məqam ondan ibarətdir ki, Lapşin Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyinə əks-təbliğat xətti seçmiş, ölkəmizin qanunlarına məhəl qoymamışdır. 3 ölkənin vətəndaşı olan belə bir adamın məhz Azərbaycanda mühakimə olunması eyni yolu tutmaq istəyənlər üçün yaxşı dərsdir. Axı biz zaman-zaman lapşinləri, ona oxşar nələrisə az görməmişik”.

**Lapşinin həbsi Dağlıq Qarabağdakı azərbaycanlı girovların məsələsini də aktuallaşdırıb. Politoloq Elxan Şahinoğluna görə, əgər Rusiya Lapşini Dağlıq Qarabağda saxlanılan iki girovumuza dəyişmək istəyərsə, onda o, vaxtından əvvəl azad edilə bilər:** “Dağlıq Qarabağda iki azərbaycanlı girovun geri qaytarılması üçün müraciət etmədiyimiz ünvan *(Rusiya, ATƏT, Beynəlxalq Qırmızı Xaç Təşkilatı və s.)* qalmadı, ancaq İrəvan geri addım atmır, Moskva isə vassalına güldən ağır söz demir. Belə isə biz niyə Moskvanın istəyi ilə Lapşini vaxtından əvvəl həbsdən azad etməliyik? Yox, əgər Rusiya Lapşini Dağlıq Qarabağda saxlanılan iki girovumuza dəyişmək istəyərsə, bu, başqa məsələ. Ancaq bu olmadan Lapşin Dağlıq Qarabağdakı girovlarımız kimi həbsxanada yatmalıdır. Şübhə etmirəm ki, Rusiya Azərbaycan hakimiyyətindəki ”5-ci kolon"unu da hərəkətə gətirməyə çalışacaq".

Bloggerin vətəndaşı olduğu ölkələrdən də reaksiyalar gəlib. İsrail blogger Aleksandr Lapşinin işini diqqətlə izləyir. Axar.az xəbər verir ki, bunu “RİA Novosti” agentliyinə açıqlamasında İsrail Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Emmanuel Naxşon söyləyib. O, Tel-Əvivin bütün tərəflərlə əlaqədə olduğunu bildirib.

**Rusiya XİN də Lapşinin ekstradisiyasına dair bəyanat verib. Orada deyilir ki, Rusiya Belarus Ali Məhkəməsinin qərarından məyusdur.** “Rusiya tərəfi iki ölkə arasında müttəfiqlik münasibətlərinin ruhuna uyğun gəlməyən bu qərarla bağlı dərin məyusluğunu ifadə edir. Biz bundan sonra da Rusiya vətəndaşının qanuni hüquqlarının müdafiəsi üçün lazım olan tədbirləri görməkdə və onun tezliklə ailəsinə qaytarılması üçün səy göstərməkdə davam edəcəyik”, - bəyanatda deyilir.

**“Blogger Aleksandr Lapşinlə bağlı danışıqlar aparılmır, lakin onun müdafiəsi üçün mümkün hüquqi tədbirlər görülür”. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu isə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib. Kreml sözçüsü A. Lapşinin bir neçə vətəndaşlığının olduğunu xatırladıb:** “Onun Rusiya vətəndaşlığı da var. Bizim üçün o, ölkəmizin vətəndaşıdır. Biz onun maraqlarını qanun çərçivəsində müdafiə etməyə davam edirik”.

Rusiya Dövlət Dumasının vitse-spikeri, LDPR lideri Vladimir Jirinovski Belarus prezidenti Aleksandr Lukaşenkonun bu addımını “partizanlıq” adlandırıb. Onun sözlərinə görə, bununla Belarus növbəti dəfə Rusiyanı sancmaq istəyir.

**Politoloq Şahin Cəfərli “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, Azərbaycanın Lapşinin ekstradisiyasına nail olması müsbət hadisədir:** “Bu hadisə Azərbaycanın suverenlik hüquqlarına zidd şəkildə işğal altındakı ərazilərə səfər etmək istəyən xarici ölkələrin vətəndaşları üçün çəkindirici amil olacaq. Ola bilsin, Dağlıq Qarabağa qanunsuz səfərlər dayanmayacaq və yenə davam edəcək. Amma bu fikrə düşənlər bundan sonra ən azı iki dəfə düşünməli olacaqlar. Lapşin şübhəsiz ki, barəsində qaldırılmış cinayət işi çərçivəsində dindiriləcək. İstintaq yekunlaşdıqdan sonra iş məhkəməyə verilməlidir. Əgər iş məhkəmə mərhələsinə qədər gedib çıxarsa, Lapşin irəli sürülən ittihamlar əsasında həbs cəzası alacaq. Ola bilər ki, Lapşin həbsə məhkum edildikdən sonra Azərbaycan prezidenti onun özünün, ailəsinin, eləcə də Rusiya və İsrail dövlətlərinin müraciətlərini nəzərə alaraq bir müddət sonra onu əfv etsin. Eyni xahişlər nəzərə alınmaqla, cinayət işi məhkəməyə göndərilmədən istintaq mərhələsində də xətm edilə bilər. Hər halda, Azərbaycan bu məsələdə artıq əsas məqsədinə nail olub və bundan sonrası təfərrüatdır”.

**Ş.Cəfərli hesab edir ki, bu hadisə Azərbaycan-Belarus münasibətlərinin yüksək səviyyəsini nümayiş etdirməklə bərabər, Rusiyanın prestijinə də müəyyən zərbə vurdu:** “Bir daha ortaya çıxdı ki, Rusiyanın postsovet məkanında həyata keçirdiyi inteqrasiya layihələri ciddi böhran yaşayır. Avrasiya İqtisadi İttifaqı və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı daxilində ciddi problemlər yaranıb. Bu qurumların iştirakçısı olan ölkələrin müttəfiqliyi yalnız kağız üzərində qalıb və orada dezinteqrasiya prosesi başlayıb. Hətta Rusiya-Belarus İttifaq Dövləti də böhran mərhələsinə qədəm qoyub. Mən Kremldə çox ciddi məyusluq hökm sürdüyünə inanıram. Çünki Rusiya dünya miqyasında hegemonluq, ikinci qütb və ya ən pis halda çoxqütblü düzənə nail olaraq qütblərdən biri olmaq iddiasındadır. Moskva 2-ci Dünya müharibəsi sonrası Yalta konfransına bənzər şəkildə Vaşinqtonla masaya oturaraq nüfuz dairələrinin bölüşdürülməsini həyata keçirmək arzusundadır. Kreml minimal vəzifə kimi postsovet məkanının onun müstəsna nüfuz dairəsi kimi Qərb tərəfindən tanınmasına nail olmaq əzmindədir. Lakin məlum olur ki, bütün cəhdlərinə, son illər apardığı məqsədyönlü siyasətə, külli miqdarda xərc çəkməsinə baxmayaraq, Rusiya nəinki qlobal miqyasda, hətta ”yaxın xaric" adlandırdığı keçmiş sovet coğrafiyasında da cazibə mərkəzinə çevrilə bilmir". **Politoloq qeyd etdi ki, diqqətlərdən yayınan çox maraqlı bir məqam da var:** “Azərbaycan əslində özü də istəmədən getdikcə Rusiya üçün başağrısına çevrilməkdədir. Avrasiya İttifaqı və KTMT daxilində böhranlı vəziyyətin yaranmasında Azərbaycanın da rolu var. Azərbaycan məsələsi bir müddətdir ki, bu qurumların daxilində problem yaradan faktora çevrilib. Azərbaycanın Qazaxıstan və Belarusla yaxın münasibətləri istər Avrasiya İttifaqı, istərsə də KTMT daxilində fikir ayrılıqlarını getdikcə gücləndirir. Təsadüfi deyil ki, Rusiya və Ermənistan Lapşin olayı ilə bağlı bəyanatlarında Belarusu müttəfiqliyə zidd hərəkət etməkdə qınayıblar. Digər tərəfdən, Azərbaycan bu qurumlara qoşulmur və belə görünür ki, qoşulmaq fikri də yoxdur. Məncə, son aylarda Rusiyanın Azərbaycana münasibətinin neqativ istiqamətdə dəyişməsində qeyd etdiyim məsələlərin də mühüm rolu var”.

**Beləliklə, internetdəki şəxsi səhifəsində “Mən indi Azərbaycanın qara siyahısında 16-cı yerdəyəm, amma 1-ci olmaq istəyirəm” yazıb ölkəmizə həqarət edən bloggerin həbsi başqalarına ibrət dərsidir.**

❑ **Elşad PAŞASOY**




# “ASAN xidmət” daha bir uğura imza atdı

## “Könüllülük: Uğurun formulu”

**Fevralın 8-də 2 saylı (AMAY) Bakı “ASAN xidmət” mərkəzində “ASAN Könüllüləri” Təşkilatı, Azərbaycan Fotoqraflar Birliyinin və AZƏRTAC-ın dəstəyi ilə “Könüllülər hərəkatı fotoqrafların gözü ilə” I Ümumrespublika açıq foto sərgisi keçirilib.**

Eyni zamanda sərgi çərçivəsində Azərbaycan Turizm və Menecment Universitetinin elmi şurasının müvafiq qərarı ilə könüllülük fəaliyyəti barədə şəxsi inkişafa dəstək məqsədi ilə nəşr olunan Dr. Nadir Adilov və Elvin Paşayevin birgə yazdıqları “Könüllülük: Uğurun formulu” kitabı təqdim olunub.

**Musavat.com-un məlumatına görə, tədbirdə ilk olaraq çıxış edən Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ülvi Mehdiyev bildirib ki, hələ müstəqilliyimizin ilk illərindən könüllülük Azərbaycanda mövcud olub:**

“Bu gün istər Milli Məclisdə, istər icra hakimiyyəti, istərsə də məhkəmə orqanlarında yüksək vəzifədə çalışan gənclərimiz var ki, onlar vaxtilə ictimai fəaliyyətlə, könüllüklə məşğul olublar. Ancaq bir hərəkat olaraq könüllülük hərəkatı ”ASAN xidmət"in yaradılması ilə bir dövrə təsadüf etdi. “ASAN xidmət”in ilk mərkəzinin fəaliyyətə başladığı gün cənab prezident İlham Əliyev birinci könüllülərlə görüş keçirdi. Orada gənclərimizə öz tövsiyələrini verdi. Həmin gündən, yəni 2012-ci ildən etibarən böyük bir könüllülük hərəkatı yaranmağa başladı. Qısa müddət ərzində könüllülər özlərinin ictimai birliklərini yaratdılar və bu birlikdə bu gün on mindən çox gənc könüllü toplaşıb. Onlar “ASAN xidmət” çərçivəsindən kənara çıxaraq, 200-dək layihə icra ediblər. Əsas qarşılarına qoyduqları məqsəd, vətənə, dövlətə sədaqət, özünü inkişaf etdirmə, gələcəkdə vətəninə və özünə xidmət etməkdən ibarətdir. Bu bizi əlbəttə ki, sevindirir. Onu da qeyd edim ki, könüllülük artıq gənclərimizin həyat tərzinə çevrilib. Tələbələrin böyük əksəriyyəti “ASAN xidmət”ə könüllü olmaq üçün müraciət edirlər. Əlbəttə ki, gözəl dərk edirlər ki, bununla onlar həm vətəndaşlara xidmət etmiş olurlar, həm də dövlət orqanlarının işlərinə kömək edirlər. Burada toplanan təcrübə gələcəkdə onların iş fəaliyyətində lazım olacaq. Bu təmənnasız xidmətə görə, bütün gənclərə təşəkkürümüzü bildiririk. Bu gün həmçinin “Könüllülük: Uğurun formulu” kitabı təqdim olunur. Bu kitab könüllülərimiz üçün yol xəritəsi olacaq. Bu kitabın ərsəyə gəlməsinə görə dəstək göstərən bütün əlaqədar təşkilatlara təşəkkürümüzü bildiririk".

**Daha sonra söz Azərbaycan Respublikası Gənclər və İdman Komitəsinin sədri, millət vəkili Fuad Muradova verilib. F. Muradov çıxış edərək bildirib ki, bir neçə gün öncə “Gənclər günü”nü qeyd etdik:**



“Çox yaxşı yadımdadır ki, 1996-cı ildə Azərbaycanın bütün bölgələrindən gənclərimiz Bakıya üz tutmuşdular. İndiki Heydər Əliyev Sarayında möhtəşəm bir görüş olmuşdu. Həmin görüşdə ulu öndər Heydər Əliyev, Azərbaycan dövlətçiliyinin istiqamətini, müstəqilliyimizin qorunub saxlanması istiqamətlərini çox açıq şəkildə gənclərə bildirmişdi. Çox sevindiricidir ki, bu gün biz cənab prezidentin ideyası olan və digər ölkələrin çox böyük marağına səbəb olan layihəsinin bir uğuruna da yığışmışıq. ”ASAN xidmət"in vətəndaşlarımız üçün çox böyük rolu var. Hər bir vətəndaş sərbəst şəkildə sənədləri ilə məşğul ola bilir, müəyyən istiqamətlər üzrə öz işini qurur. Bu gün biz eyni zamanda müstəqilliyimizin 25 illiyini qeyd edirik. Proseslər onu göstərir ki, Azərbaycan 25 ildə çox şərəfli bir yol keçmişdir. Bu illər ərzində biz möhtəşəm idman yarışları keçirmişik. Bu tədbirlərin əsas istiqaməti də məhz bizim vətəndaşlarımızadır. Bizim gənclərimiz olmasaydı, belə bir uğurlar qazana bilməzdik. Yadımdadır ki, ilk könüllülük hərəkatı yaranan zaman bu, yalnız dövlət orqanlarına, ictimai işlərə kömək edirdi. Ancaq bu gün könüllülük fəaliyyəti hər bir istiqaməti əhatə edir. İnanıram ki, bu gün gənclərimizin könüllülüyə olan sevgisi, heç şübhəsiz ki, onların gələcək fəaliyyətinə müsbət təsir göstərəcək. Könüllülüyün əsasında eyni zamanda Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş gənclərimiz durur. İlk batalyonlar o zaman məhz bu könüllülük prinsipi əsasında qurulub".

**Azərbaycan Turizm və Menecment Universitetinin rektor əvəzi Eldar Aslanov da çıxış edərək bildirib ki, “Könüllülük: Uğurun formulu” kitabı ölkədə bu istiqamətdə çap olunan ilk kitabdır:**

“Eyni zamanda bu, akademik nəşrdir. Bu nəşr təkcə könüllük fəaliyyəti ilə məşğul olanlar üçün stolüstü kitab yox, həm də akademik nəşr olaraq, ali məktəblərdə, mütəxəssis hazırlığında istifadə olunacaq vacib dərs vəsaitidir. Bu vəsaitin ərsəyə gəlməsində əməyi keçən hər kəsi təbrik edirəm. Onlara keçmiş könüllü olaraq öz təşəkkürümü bildirirəm ki, bu cür bir ilkə imza atdılar”.

Onu da qeyd edək ki, yuxarıda adını qeyd etdiyimiz kitab Azərbaycan Turizm və Menecment Universitetinin rəsmi nəşridir.

**Tədbirdə daha sonra çıxış edən Azərbaycan Fotoqraflar Birliyinin sədri Mirnaib Həsənoğlu da hər kəsi salamlayaraq bildirib ki, könüllülük məsələsi daim cəmiyyətdə hələ tam formalaşmayan hansısa problemi həll edib, ictimaiyyətə mesaj göndərmək kimi qəbul olunur:**

“Biz könüllülərlə Lahıcda ”Həmrəylik düşərgəsi"ndə iştirak etdik. Biz də könüllü olaraq bu yola qoşulduq. Bunların hamısı sevindiricidir. Bugünkü sərginin burada keçirilməsinin də özünün bir ictimai mesajı var. Belə ki, sərgi salonları üçün harasa getməyə ehtiyac yoxdur. Ən gözəl sərgi salonu “ASAN xidmət”in öz divarları və zalıdır. Bizə yaratdığınız şəraitə görə çox sağ olun".

Tədbirdə daha sonra Bakı Şəhər Halqası Könüllülərlə iş üzrə koordinatoru Tural Hümbətov, “ASAN könüllüləri” Təşkilatının sədri Bəxtiyar İslamov da çıxış ediblər.

Çıxışlardan sonra isə fotoları sərgilənən fotoqrafların mükafatlandırma mərasimi keçirilib. Qeyd edək ki, sərgidə 34 fotoşəkil nümayiş olunub. Bu fotolar arasında “ASAN könüllüləri” ilə bərabər Formula 1, “Eurovision”, Beynəlxalq Bakı Şahmat Olimpiadası, “BAKI 2015" ilk Avropa Oyunları könüllülərinin fotoları yer alıb.

**Sonda “Könüllülük: Uğurun formulu” kitabının müəlliflərindən olan Nadir Adilovun da fikirlərini aldıq. N. Adilov musavat.com-a bildirdi ki, kitabın meydana çıxmasında ictimai fikirdə rol oynayan şəxslərə müraciət edilib:** "O şəxslərdən biri də sizin qəzetin baş redaktoru Rauf Arifoğludur. Kitabda yer alan bu şəxslərin fikirləri əminik ki, gənclərimizin həyatında böyük rol oynayacaq. Kitabın ikinci nəşri də olacaq. Bu kitabın satışından əldə edilən vəsait könüllülər tərəfindən yaradılan və idarə edilən www.asanmektub.az internet portalına müraciət edən aztəminatlı ailələrin övladlarının məktublarındakı arzuların reallaşdırılmasına yönəldiləcək. Kitab ikinci nəşr üçün də hazırlanır. Mütəxəssislərin fikri, irad və təkliflər alınandan sonra məqsəd qoymuşuq ki, təxminən bir ildən bir təkmilləşən kitab nəşr edirək”.

❑ **Əli RAİS**
**Fotolar müəllifindir**

# Manat möhkəmlənir - banklar məzənnə manipulyasiyasına gedir

## Ekspertlər bildirirlər ki, “məzənnə oyunları”ndan itirən əhali, zərbə alan isə ölkə iqtisadiyyatı olacaq...

**Milli valyuta olan manatın iki hərracda bahalaşması bir çox suallar yaradıb. Üstəlik, banklar dolların alış və satış məzənnəsi arasında olan ciddi fərqdən də narahatlıqlarını bildirirlər.**

**Ekspert Samir Əliyevin** sözlərinə görə, banklar çox pis oyuna girişiblər, valyuta spekulyasiyası ilə məşğuldurlar: “Bu, çox pisdir: həm əhaliyə, həm sahibkara, həm də dövlətə”. Ekspertin sözlərinə görə, manatın fevralın 2-dən başlayan bahalaşması davam edir: “Görünən odur ki, valyuta bazarındakı gərginlik əhaliyə keçib. Banklara dollar borcu olanlar sevinir, dolları alıb yığanlar isə narahat olmağa başlayıb. Dolların bahalaşması necə narahatlıq yaradırsa, onun ucuzlaşması da eyni gərginlik yaradır.

Axı nə baş verib ki, manat bahalaşır? Bəlkə ölkəyə dollar axını güclənib? Və ya idxal kəskin azalıb? Yaxud da hərraca çıxarılan dolların həcmi dəfələrlə artıb? Təəssüf ki, bunların heç biri baş verməyib. Ölkəyə dollar yenə də bir kanalla- Dövlət Neft Fondu vasitəsilə daxil olur. Hərraca çıxarılan dolların həcmində nəinki artım var, hətta azalma qeydə alınıb. Ötən il hərraca 50 milyon dollar çıxarıldığı halda indi 25-35 milyon dollar arasında dəyişir. İdxal cəmisi 7,6 faiz azalıb. Hətta dövlət satınalmalarında 2018-ci ilə qədər idxal mallarının alışına qadağanın qoyulması idxalı əhəmiyyətli azalda bilməyib. İxrac 20 faiz, qeyri-neft ixracı 28 faiz azalıb. Neftin qiyməti isə il başlayandan 54-56 dollar arasında dəyişib. Yəni neft də bahalaşmayıb".



**Ekspertin sözlərinə görə, manatın bahalaşması üçün fundamental səbəb yoxdur:** “Bu bahalaşmanın bir neçə səbəbini qeyd etmək olar; birincisi, manatın bahalaşması spekulyasiya ilə bağlıdır. Artıq bir sıra banklar aktiv şəkildə valyuta alqı-satqısına girişiblər. Kreditləşmə imkanları məhdudlaşan banklar yeni gəlir mənbəyi əldə ediblər və zərərləri valyuta alqı-satqısı hesabına aradan qaldırırlar. Üstəlik, hər il olduğu kimi, bu il istər dövlətin, istərsə də dövlət şirkətlərinin xarici öhdəlikəri qaytarılmalıdır. Bu vəsaitlərin bir hissəsi Neft Fondu tərəfindən Mərkəzi Banka ayrılan vəsait hesabına ödəniləcək. Manatın ucuzlaşması həmin borcların qaytarılmasına çətinlik yaradır”.

**S.Əliyev qeyd edib ki, bir qayda olaraq ilin əvvəlki aylarında büdcə xərclərinin icra səviyyəsi aşağı olur, iqtisadiyyata yönəldilən pul kütləsi az olduğundan manat qıtlığı hiss olunur. Dollara tələbat isə aşağı səviyyədə olur:** “Neft Fondundan Mərkəzi Banka ayrılan 7,5 milyard manat məbləğindəki ”makroiqtisadi sabitlik" pulu valyuta bazarında ötən il müşahidə edilən gərginliyi azaltmağa imkan verəcək. Həmin vəsaitlər bazarda gərginlik yaradan xarici borc problemini həll edəcək. Manatın sabitliyi hazırda neftin qiymətindən birbaşa asılıdır. Hökumət neftin ucuzlaşmasını ya Neft Fondunun aktivləri hesabına həll etməlidir, ya da manatı ucuzlaşdırmalıdır. Bir şey aydındır ki, hökumət bu il kəskin devalvasiyaya getmək niyyətində deyil. Gözlənilməz proseslər baş verməsə, hökumət 2017-ci ildə manatın məzənnəsini rahatca idarə edə biləcək. Bu, manatın möhkəmlənməsi və ya manatın məzənnəsinin bir nöqtədə dayanması anlamına gəlməməlidir. Hökumət Neft Fondunun aktivləri hesabına tədiyyə balansındakı kəsiri örtə biləcək. Ancaq bir sıra amillər var ki, onların nəzərə alınması vacibdir: kapital axınının səviyyəsi, idxalın səviyyəsi, xarici ticarət tərəfdaşlarının milli valyutasının məzənnəsi və neftin qiyməti".

**Ekspert Azər Mehtiyev isə qeyd edib ki, banklar dollar alışı ilə bağlı dəhşətli səviyyədə manipulyasiya edirlər:** “Bir çoxları dolların alış kursunu həm kəskin azaldıblar, həm də lövhələrdə belə göstərmirlər. Məqsəd son günlər manatın bahalaşması dalğasında panikanı artırmaqla əllərdə olan dolları ucuz alıb kurs fərqindən böyük qazanc götürməkdir. Əlbəttə ki, kommersiya qurumları olan bankların mənfəət üçün özlərinə sərf edən addımlar atmasını haradasa başa düşmək olar, amma bundan zərbə alan milli valyutaya olan etimad məsələsidir. İndiki durumda manatın sabitliyini təmin etməklə iqtisadiyyatda olan son dərəcə böyük qeyri-müəyyənliyi azaltmaq investisiya mühiti baxımından çox önəmlidir. Amma bankların məzənnə manipulyasiyaları hesabına böyük gəlirlər götürmək cəhdləri iqtisadi sabitləşməyə, həm də əhalinin əksər təbəqələrinə böyük zərbə vurur. Hökumət insanların əlinə manat düşən kimi qaçıb dollar almasını istəmirsə, onda manatın məzənnəsində nisbi sabitliyə nail olmaq önəmlidir. Bu cür ”məzənnə oyunları"ndan itirən əhali, zərbə alan isə ölkə iqtisadiyyatı olacaq".

❑ **RÖYA**

# Jirinovski Putinin sözünü deyir?

**Rusiya Liberal Demokrat Partiyasının sədri, Dumanın deputatı Vladimir Jirinovski son sayıqlamaları ilə gündəmə gəlib. O, SSRİ-nin bərpası ilə bağlı məsələyə toxunaraq, bunun reallaşacağı halda Azərbaycan və Ermənistanın yalnız paytaxtlarından ibarət quberniyalar olacağını dilə gətirib. Jirinovski hətta Qarabağ münaqişəsinin həllinin mümkünsüzlüyündən danışıb, Azərbaycan və Ermənistan arasında daim müharibənin olacağını bildirib.**

## Elxan Şahinoğlu: "Bu şəxs siyasəti biznesə çevirib"
## Fərəc Quliyev: "Azərbaycan ehtiyat etməli deyil"
## Sahib Kərimli: "Jirinovskini danışdırmaq zərurəti hiss etdilər"



Ötən il ölkəmizə səfər edən və yüksək səviyyədə qarşılanan, hətta ölkə başçısı ilə görüşən Rusiya Dumasının deputatının bu açıqlamaları hiddət doğurub. İndiyə qədər hökumət səviyyəsində onun dediklərinə kəskin reaksiyaların olmaması suallar doğurur. Ekspertlər hesab edirlər ki, bir deputatın sayıqlamalarına dövlət səviyyəsində reaksiya vermək doğru deyil və ona daha çox azərbaycanlı deputatlar cavab verməlidir.

**Politoloq Elxan Şahinoğlu bildirdi ki, Jirinovski Kremlin danışan dilidir:** "15 il öncə deyirdi ki, Krım Rusiyaya keçəcək, amma ona heç kim əhəmiyyət vermirdi. Lakin onun dediklərinin həyata keçdiyinin şahidi olduq. Bəzi açıqlamalarını görürük ki, bir müddətdən sonra Rusiya hakimiyyəti həyata keçirir. Bəzi vaxtlarda da ağlına gələni danışır. Amma yəqin ki, yenə də onu danışdırırlar. Ümumiyyətlə, bu şəxs siyasəti biznesə çevirib. Kim ona pul verirsə, onu da idarə edir. İndi də yəqin haradansa sifariş alıb. Bunun əsasında da Azərbaycanla bağlı bu cür fikirlər dilə gətirir. Halbuki bir müddət əvvəl ölkəmizə gəlmişdi, buradan da Türkiyəyə getmişdi. Öz ölkəsinə qayıtdıqdan sonra isə hər iki ölkə ilə bağlı müsbət fikirlər səsləndirirdi. Görünür, indi də nəyisə çatmır, ona görə də bu cür açıqlamalar verir. Hətta düşünürəm ki, bir müddətdən sonra Türkiyənin də əleyhinə çıxış edəcək. Kimlərdənsə maliyyə qoparmaq üçün hər şeyi edir. İstənilən halda bu məsələlərə ciddi yanaşmalıyıq. Düşünürəm ki, onun cavabı sərt şəkildə verilməlidir. Amma hökumət, Xarici İşlər Nazirliyi səviyyəsində məsələyə münasibət bildirməyin əhəmiyyəti yoxdur. Deputatlar onun cavabını verməlidir. Amerikalı bir konqresmen desəydi, indi Azərbaycanın siyasi dairələrinin içinə vəlvələ düşmüşdü və onlarla siyasi bəyanatlar verilirdi. Lapşin məsələsində Rusiyaya qarşı ciddi mövqe sərgiləndi. Hesab edirəm ki, burada da elə olmalıdır".

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev Jirinovskinin fikirlərinin Rusiyanın utopik ideyalarından qaynaqlandığını düşünür:** "Rusiyanın istəkləri ilə gücü bərabər deyil. Çox pis vəziyyətdədir. Jirinovskinin İrəvan quberniyası ifadəsi ona əsas verir ki, Azərbaycan "Türkmənçay" müqaviləsini gündəmə gətirə, eyni zamanda torpaqlarımız hesabına qondarma bir erməni dövlətinin yaradıldığını müzakirəyə çıxara bilər. Rusiya tarix boyu bizimlə düşmənçilik edib. Nə qədər Rusiyaya qarşı xoş münasibətdə olsaq da, onlar öz siyasətlərindən əl çəkməyəcəklər. Amma Rusiya təklənmiş bir müttəfiqsiz ölkəyə çevrilib. Yaxın zamanda Rusiya özünün iç problemləri ilə üz-üzə qalacaq. Ona görə də Jirinovski əziyyət çəkib, sərsəm açıqlamalarını Putinin cəhənnəmə döndərdiyi Rusiya haqqında söyləsin. Azərbaycanın taleyinə Rusiya heç bir təsir edə bilməz. Azərbaycan ehtiyat etməli deyil".

**Siyasi ekspert Sahib Kərimli rus deputatın dediklərinin arxasında duran mətləblərə toxundu:** "Rusiya və İranın Azərbaycanda siyasi proseslərə müdaxilələr etməyə başlaması aydın sezilir. Ciddi mərkəzlər tərəfindən tezislərin hazırlanması, ictimai rəylərin formalaşdırılması, Türkiyə və Qərbin mövqelərinin sıxışdırılması aşkar görüntüdür. Araz Əlizadənin, Hacı Əbdülün açıqlamaları təsadüf deyil. Onlara verilən çeşidli cavablar, müxtəlif səviyyəli mövqelərin ümumi məzmunu Rusiya üçün ürəkaçan olmadığı üçün, Jirinovskini danışdırmaq zərurəti hiss etdilər. Və ya onun dili ilə Azərbaycanı təhdid etdilər. Hökumətin daha cəsarətli və təmkini saxlamaq şərtilə cavab vermə zərurəti var. Bütövlükdə Azərbaycan cəmiyyətinin reaksiyası isə normaldır. Zatən Jirinovskinin dili ilə aqressiv tonun seçilməsinə səbəb cəmiyyətin mövqeyi oldu. Rusiyanın Azərbaycan cəmiyyəti ilə işləməsi, öz lehinə ictimai rəy formalaşdırması üçün mexanizmlər məhduddur. Milli, dini və dil birliyimiz, mədəni yaxınlığımız baxımından çətinliklər var. Təbii ki, əllərində başqa mexanizmlər, bizim zəif tərəflərimiz kimi xarakterizə oluna biləcək boşluqlar az deyil. Bütün hallarda dövlət və cəmiyyət həssasiyyətindən uzaqlaşmamalı, hamı məsuliyyətli olmalıdır. Susmaq lazım gələndə susmağı, danışmaq lazım gələndə danışmağı bacarmalıdır. Və ya danışmalı olanın yerinə bir başqası danışmalıdır. Əsas məsələ odur ki, Müstəqil Azərbaycan onu istəməyənlərə və ərazimizi öz coğrafiyası kimi görənlərə rəğmən var və yaşayır. Onu müstəqil və ədalətli Azərbaycan etməliyik ki, daha təhlükəsiz olsun.

Ədalət cəmiyyətin potensialının böyük çoxluğunu, yəni əslində bütün ölkəni vətəndaşın və dövlətin gücünə çevirir. Ölkəmiz güclənir və kənar təsirlərə qarşı daha müqavimətli olur".

❑ **Cavanşir ABBASLI**

# "Trampın qərarları beynəlxalq hüquqla yanaşı, ABŞ Konstitusiyasına da ziddir"

## Sərdar Cəlaloğlu: "Bizim onun addımlarına fikir bildirmədiyimiz, nəyisə gözlədiyimiz barədə deyilənlər yanlışdır"
## Mirmahmud Mirəlioğlu: "Hamının kütləvi şəkildə Trampa münasibət bildirməsi ilə vəziyyət dəyişən deyil"
## İqbal Ağazadə: "ABŞ qanunları və ABŞ ictimaiyyəti hələ ki bu şəxsə dözür"

**Donald Trampın ABŞ-ın prezidenti olaraq fəaliyyətə başladığı hələ üç həftə deyil. Buna baxmayaraq, bir sıra qərarları və açıqlamaları ilə nəinki öz ölkəsində, dünyanın əksər bölgələrində özünə qarşı etirazlara yol açıb. Dünyanın bir çox ölkələrinin rəsmi şəxsləri, həmçinin müxalifət liderləri Trampı qərarlarına görə tənqid edir. Vəziyyət o həddə çatıb ki, ABŞ-ın tarixi müttəfiqi olan Britaniyada belə, o, qəbuledilməz şəxs elan edilir.**



Britaniya parlamentinin spikeri Berkov D.Trampı Londona səfəri zamanı parlamentə dəvət etməyəcəyini deyib.

Bəzi media orqanları və sosial şəbəkə iştirakçıları isə Azərbaycan müxalifətinin hansısa şəxsi maraqları üzündən ABŞ-ın yeni prezidentinin etiraz doğuran qərarlarını görməməzlikdən gəldiyini, susduğunu iddia edir.

İddialarla bağlı bir neçə müxalif partiyanın sədri ilə danışdıq.

**ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, Donald Trampın ABŞ-a giriş qadağası barədə qərarına görə heç cür haqq vermək olmaz. Tramp haqlı deyil. Onun bir çox qərarları beynəlxalq hüquq normalarına ziddir: "İnsanların dünyanın bir ölkəsindən başqa ölkəsinə getmək hüququ var. Trampın atdığı bir sıra addımlar beynəlxalq hüquqla yanaşı, ABŞ Konstitusiyasına da ziddir. Eyni zamanda o qərarlar dünyada gərginliyin artmasına səbəb olur. Bizim Donald Trampın bu kimi qərarlarına heç bir fikir bildirmədiyimiz, nəyəsə görə susmağımız, nəyisə gözlədiyimiz barədə deyilənlər yanlışdır. Heç bir gözləmədən söhbət gedə bilməz. Biz də Trampın insanların hüquqlarını pozan, dünyada gərginlik yaradan qərarlarına, davranışlarına etiraz edirik. Bizim etirazımız Trampın şəxsinə deyil, Trampın düşməni deyilik. Sabah dünyada sülhə, insanların hüquqlarının qorunmasına, demokratiyanın genişlənməsinə xidmət edən qərarlar olacaqsa, Trampın bu qərarlarını alqışlayacağıq. Trampın səhvi odur ki, özünü yalnız ABŞ prezidenti kimi görür və ABŞ-ı da sıradan bir milli dövlət kimi görür. Ona elə gəlir ki, Amerikanın bugünkü nailiyyəti yalnız Amerika xalqının nailiyyətidir. Əgər dünya iqtisadiyyatının 70 faizinə ABŞ nəzarət edirsə, deməli, dünyada problemlərin 70 faizinin də həllinə Amerika məsuliyyət daşıyır və daşımalıdır. Nə qədər ki, Tramp bunu qəbul etməyib və nə qədər ki, ABŞ-ı yalnız öz sərhədləri daxilinə cavabdeh dövlət kimi görəcək, yanlış qərarlarını davam etdirəcək".

**KXCP sədri Mirmahmud Mirəlioğlu da Azərbaycan müxalifətinin Amerikanın yeni prezidentinin qərarlarına hər hansı bir reaksiya vermədiyi barədə iddiaların yanlış olduğunu dedi. Onun sözlərinə görə, Trampın yürütdüyü siyasəti izləyirlər və əmindirlər ki, bu siyasət təkcə Trampın özfəaliyyəti deyil:** "İndiyə qədər ABŞ prezidentlərinin əksəriyyəti bu siyasəti müxtəlif metodlarla yürüdüblər. Bu məsələnin kökündə o dayanır ki, ABŞ-ın siyasətini prezident təkbaşına yönəltmir. Bu gün Amerikanın siyasətində bu cür addımlar lazım bilinir və Trampın qərarları ilə bu plan, sadəcə, həyata keçirilir. İndiyə qədər dünyada baş verənlərdə Amerikanın iştirakını unutdurmaq istəyirlər. Bu, razılaşdırılmış bir siyasətdir, təkcə Trampın beyninin məhsulu deyil.

Biz isə sadəcə ona görə bu məsələ ilə bağlı çox danışmırıq ki, Azərbaycanda hamının kütləvi şəkildə Trampa münasibət bildirməsi ilə vəziyyət dəyişən deyil. Azərbaycan siyasətçiləri gözləmə mövqeyi tutmasaydı və hər gün nə isə desəydi, guya ABŞ-da vəziyyət dəyişəcəkdi, Tramp o qərarları imzalamayacaqdı? Trampa dünyada və ölkəsində ona görə bir qıcıq müşahidə olunur ki, çoxları Trampın ABŞ prezidenti seçiləcəyini düşünmürdü".

**Ümid Partiyasının sədri İqbal Ağazadə isə Azərbaycan müxalifətinin ABŞ-ın yeni prezidenti barədə susqun davranışının müxalifətin Trampdan gözləntisinin olmaması ilə izah etdi:** "Mən əvvəldən də bildirmişdim ki, Azərbaycan müxalifəti Trampdan bir şey gözləmir. İndi də bir cümlə ilə ifadə edirəm ki, ABŞ qanunları və ABŞ ictimaiyyəti hələ ki bu şəxsə dözür. Nə qədər dözəcəklərini isə Amerika cəmiyyəti göstərəcək".

❑ **Etibar SEYİDAĞA**




## ABŞ İran idmançılarına viza qadağasını aradan qaldırdı

**ABŞ İran idmançılarına viza qadağasını aradan qaldırdı. "Report" "Anadolu"ya istinadən xəbər verir ki, bunu İran Oxatma Federasiyasının sədri Məhəmmədəli Sücai qurumun saytına açıqlamasında bildirib.**

"Yarışın başlamasına iki gün qalır. İran idmançılarına vizanı ABŞ-ın Ermənistandakı səfirliyi verməli idi. Ancaq səfirlik tərəfindən viza gec verildiyindən bizim həmin yarışa qatılmağımız mümkün deyil", - deyə o vurğulayıb.

Məlumata görə, fevralın 10-12-də ABŞ-ın Nevada ştatının Las-Veqas şəhərində kamandan oxatma üzrə Dünya Kuboku keçiriləcək.

Qeyd edək ki, ABŞ prezidenti Donald Trampın yanvarın 27-də imzaladığı fərmana əsasən, İran, İraq, Suriya, Yəmən, Somali, Sudan və Liviya vətəndaşlarına 90 gün ABŞ-a viza verilməsi qadağan edilib.

YENİ MÜSAVAT
N 29 (6643) 9 fevral 2017



# Bütün yollar Bakıya aparır

Zamin HACI
zaminhaci@gmail.com

**Dünən qaraqabaq olmağımızda dişsizliyimizin səbəbi haqda yazdım, sonra təsadüfən Baba Pünhanın şeiri qarşıma çıxdı. Şair sanki ürəyimdən keçənləri yazıbdır:**

***"Bir zamanlar dağ çəkərdi zənciyə dağ dişlərim***
***Həm günüm ağ idi onda, həm də ki ağ dişlərim.***
***Ac günümdən doymuşam, tox günümçün acmışam,***
***Çeynəmir zəncirdən özgə heç bir ərzaq dişlərim.***
***Hansı gün ki, sözlərim partlar qəzetdə "bomba" tək,***
***Bax, həmən gün partlayar həm ağzım, həm çağ dişlərim...***
***...Diş dibindən çıxdığın qoymur boşaldım Az.TV***
***İqtidara istəyir gülsün bu yaltaq dişlərim..."***

Ola bilər mənə vergi verilir. Sabahda-birigündə köşəmi ocaq elan edib, nəzir yığmağa başlamaq fikrim vardır, yoxsa nədən diş temasında yazan kimi diş haqda şeir gəlsin qarşıma çıxsın?

Keçək həlli vacib aktual məsələlərə, siz hər ehtimal nəziri büdcənizdə nəzərdə tutun. O bir neçə ölkənin vətəndaşı olan blogger Lapşinin dövlət sərhədimizi qanunsuz keçmək cinayəti üzündən Belarusda yaxalanıb Bakıya gətirilməsi çox əla bir iş oldu. Bütün dünya Azərbaycanın necə qüdrətli dövlətə çevrildiyini bir daha əyani şəkildə gördü. Yoxsa vallah, adamın pisinə gəlirdi. Biz burdan özümüz xaricə gedib-gələndə min dənə əziyyət çəkirdik, biri Astara gömrüyündə ölürdü, başqasını Gürcüstana keçən yerdə ayaqlayırdılar, bir ayrısı Yalamanı yalayırdı və sairə. Bu Lapşin kimi əcnəbilər isə kef eləyirdilər. Sərhədimizi oynaya-oynaya keçirdilər. Gedib xaricdən yanıq verirdilər. Di al gəldi... Hətta mənim ağlıma yaxşı ideya gəlibdir: bu axmaq oğlu axmaq onsuz da planetin yarısının pasportunu yığıbdır. Deyirlər İsrail, Rusiya, Ukrayna, Kanada, Fil Dişi Sahili və sairənin vətəndaşlığı bunda vardır. Gəlin biz buna zor-xoş Azərbaycan vətəndaşlığı verək, qalsın burda yaşasın. Həyatı başa düşsün, görüb-götürsün. Subaydırsa, bir halal süd əmmişlə baş-bel edək.

Ümumiyyətlə, bizdə vətəndaşlıq, pasport, sərhəd, qanun kimi məsələlər çox dəqiq qorunur. Respublikanın üstündən milçək uça bilmir. Elə partiya sədrləri var, 15 ildir pasport vermirik, qalıb vətəndən həzz alır. Dünyadakı hər şeydən müəyyən miqdarda bizdə də var, hara gedirsən ki?

Qanunlarımıza hörmət bəsləyib bu avaranı tutub verdiyi üçün biz Belarus prezidenti Lukaşenko müəllimə də dərin minnətdarlığımızı bildiririk, Kəlbəcər qaçqınları adından bütün işıq pulu limitimizi toplayıb ona təzədən 200 milyon dollar faizsiz kredit verməyə səsləyirəm! İmkan varsa, ... Lukaşenkoya "Şöhrət", ya da "1-ci dərəcəli Vətənə xidmət" medalı vermək lazımdır.

Bu yaxında oxudum, bizdə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin 10 illiyi" yubiley medalı da təsis edilibdir. Medal bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, səkkizguşəli ulduz formalı lövhədən ibarətdir. Qalınlığı 3 mm, guşələrinin ən uzaq nöqtələri arasındakı məsafə 36 mm-dir. Bəd ayaqda Lukaşenkoya bunu da verə bilərik. Nə qədər çox medal versək, yenə azdır. Hətta mən təklif edərdim Anar müəllim Lukaşenko haqda şeir yazıb onu AYB-nin fəxri üzvlüyünə qəbul eləsin. Yoxsa həmişəki kimi fil qulağında yatıb qatar gedəndən sonra dalıyca əl yelləyəcək, guya iş gördüyünü göstərəcək. Vaxtında təşəbbüsü ələ almalısan. Necə olur, dövlətimiz bu qədər gərgin iş görür, bloqçer tutur gətirir, ancaq AYB hələ də "Hardan başlanır vətən? Sərhəddən başlanır vətən!" temasında şeir müsabiqəsi keçirmir? İşləmək lazımdır. Sizə dövlət büdcəsindən hər il 4-5 milyon manatı "Tələsmə, Zaur" kimi melodramatik temalar üçün ayırmırlar. Bir az da vətənpərvər olmaq lazımdır.

Misal üçün, mən bu yaxında AYB katiblərindən Çingiz Abdullayevin hayqırtısını oxudum, kövrəldim. Düzü, hansı temada hayqırmışdı, nə istəyirdi yadıma gəlmir. Ancaq əsas odur hayqırır. Ümumiyyətlə, Çingiz müəllimdə hər üç-dörd ildən bir belə hayqırmalar olur. Özü də seysmoloq alimlərimiz qəribə qanunauyğunluq kəşf ediblər: hər dəfə Çingiz müəllim hayqıranda Bakı ətrafında mütləq bir palçıq vulkanı püskürür. İndi də biri püskürdü.

Şair demişkən, Azərbaycan yatmış vulkandır, gərək sərhədlərini qurdalayıb oyatmayasan. Son anda ağlıma bir təzə ideya da gəldi: bəlkə Lapşini aparaq ataq o palçıq vulkanına, "dövlətçiliyimiz qurban tələb edir" adıyla?




# Moskva Ermənistanın "ipini yığır" - yeni Qarabağ tələsi...

## İşğalçı ölkə tarixində ən saxta seçkilərin keçirilməsi gözlənilir; parlamentli respublikada ilk erməni parlamenti bütünlüklə Kremlin nəzarəti altına düşə bilər; Qarabağətrafı situasiyada da keyfiyyət dəyişikliyi istisna deyil...

**Ermənistanda parlament seçkiləri kampaniyası getdikcə qızışır. Bunun bir əlaməti də deputat mandatlarına iddia edən rəqib siyasi qüvvələrin bir-birinə qarşı sərt və kompromat xarakterli ritorika sərgiləməyə başlamasıdır. Təbii, təbliğat mübarizəsində Dağlıq Qarabağ mövzusu da önəmli yer tutur.**

Yada salaq ki, aprelin 2-də gözlənilən parlament seçkiləri ilə Ermənistan parlamentli üsul-idarəyə keçəcək. Yəni prezidentin səlahiyyətləri parlamentin seçəcəyi yeni baş nazirin xeyrinə kəskin azalacaq. Faktiki, prezident sırf dövləti təmsil edən formal fiqura çevriləcək - təxminən Gürcüstandakı kimi.

***

Şübhə yox ki, Rusiya öz satelliti və Cənubi Qafqazdakı yeganə forpostu kimi Ermənistanda bu seçkiləri ən çox diqqətdə, əslində isə nəzarətdə saxlayan ölkədir. Bir səbəb artıq deyildi - yeni dönəmdə ilk parlamentin Ermənistanın siyasi həyatında, o cümlədən xarici siyasət kursunun müəyyənləşməsində rolu artacaq. İkinci motiv təzə parlamentdə anti-Rusiya qüvvələrinin sanballı güc təşkil etməsini əngəlləməklə bağlıdır.

Sirr deyil ki, son illər İrəvanda qərbyönlü qüvvələr əhəmiyyətli dərəcədə fəallaşıb. Bu, özünü keçən ilin yayında Sərkisyan rejimi əleyhinə silahlı qiyam zamanı qabarıq göstərib. O vaxt ABŞ səfirliyi, yerli qərbyönlü media və qərbyönlü ekspertlər çevrəsi qiyamçıları açıq şəkildə dəstəkləmişdilər. Bunun nəticəsi olaraq da prezident V.Putin Qarabağ məsələsində irəliləyiş naminə Sərkisyana hansısa təzyiq göstərməkdən vaz keçdi...

Bu və digər səbəbdən səsvermə günü yaxınlaşdıqca Rusiyanın seçkilərdə "barmaq izləri" də artacaq. Artıq yerli analitiklərin bir çoxu bu tendensiya barədə danışmağa başlayıblar. Məsələn, qərbyönlü erməni politoloq, Ermənistan Təhlükəsizlik Xidmətinin sabiq rəhbəri David Şahnazaryan tert.am saytına açıqlamasında deyib ki, "hələ indiyədək Moskvanın Ermənistandakı seçkiyə bu qədər yüksək səviyyədə qoşulması müşahidə edilməyib" (axar.az).

**Politoloq deyib:** "Bu seçkinin daha bir özəlliyi siyasi fikir ayrılıqlarının olmamasıdır. Əvvəllər Ermənistanı Avropa modelinə bənzər dövlət şəklində görmək istəyən qüvvələr artıq bu məsələdə ciddi kompromisə gediblər. Buna görə də Ermənistanı Avropa dövləti kimi görmək istəyən kontingent yumşaq şəkildə desək, seçkidə aktiv iştirak etməyəcək. Üstəlik, seçkidə iştirak edən blokların çoxu özlərinin hakimiyyətdən yaxşı olduğunu göstərməyə belə cəhd etmirlər. Bu mənada onlar yalnız deyirlər ki, biz gələcəyik və hər şey yaxşı olacaq. Moskva üçün Ermənistanda ən böyük problem ölkədə anti-Rusiya əhval-ruhiyyəsinin artmasıdır. Qarşıdakı seçki vasitəsilə Moskva bu məsələni həll etməyə çalışır. Bir sözlə, yeni parlament daha çox Dumaya bənzəyəcək. Yəni burada siyasi müxalifət olmayacaq. Ən yaxşı halda parlamentə bir neçə müstəqil deputat buraxacaqlar. Ermənistanın siyasi sistemi ciddi problemdir və seçkidə iştirak edən siyasi subyektlər də bu problemin həlli yox, bir hissələridir. Bu seçki vasitəsilə Moskvanın Ermənistanın daxili siyasi proseslərinə təsiri artacaq. Yeni parlament Ermənistanın daxili siyasi stabilliyini stimullaşdıran orqan olmayacaq. Məncə, Moskvanın təsiri ilə yeni ictimai və hökumətdaxili ciddi silkələnmələr yaşanacaq", - politoloq bildirib.

***

Vaxtilə təhlükəsizlik məsələləri ilə məşğul olmuş erməni ekspertin fikirlərindən belə qənaət hasil olur ki, Rusiya bu seçkilərlə həm də Ermənistana tələ hazırlayır, onun "ipini yığmağa" hazırlaşır. O mənada ki, yeni parlament Dumaya bənzəyəcəksə, orada rus qafalılar böyük əksəriyyət təşkil edəcəksə, - görünür ki, belə də olacaq, - o halda Kreml həmin "Duma" vasitəsilə ölkədaxili situasiyanı daha asan manipulyasiya edə, daxili duruma daha effektli təsir göstərə biləcək. Ən önəmlisi, Dağlıq Qarabağ məsələsində Moskva Ermənistan üzərində əvvəlkindən daha güclü söz sahibinə çevrilmiş olacaq.

Bu, həmçinin o anlama gəlir ki, Qərbin, NATO-nun bölgədə getdikcə güclənməsi fonunda Kreml işğalçı ölkəyə növbəti və mühüm siyasi təzyiq rıçaqı əldə etmiş olacaq. Azərbaycanın maraqları, Qarabağ problemi, sülh yoxsa müharibə məsələsi baxımından bu, yaxşıdır, ya pis - yəqin ki, bir qədər gözləmək lazım gələcək...

***

**Politoloq Rasim Musabəyov da Ermənistanda qarşıdakı parlament seçkisinə Rusiyanın müdaxiləsini real sayır.** "Doğrudur, hazırda müxalifət aktivləşib. Ancaq Ermənistanda fövqəladə hadisə baş verməsə, böyük ehtimalla, Serj Sərkisyanın Respublikaçılar Partiyası parlamentdə çoxluğu qoruyub saxlaya biləcək. Sərkisyan da, indiki baş nazir də birbaşa Rusiyanın adamıdır. Faktdır ki, bu gün Ermənistanda Rusiyanın adamı olmayan çox az siyasətçi var", - politoloq qeyd edib.

Lakin rusiyayönümlü siyasətçilər də eyni cür sədaqətli, etibarlı deyil. Onları hamıdan yaxşı elə məhz Kreml yetkililəri tanıyır. Bu mənada seçkidən sonra gizli qərbpərəstlərin sırasının incik düşən rusiyapərəstlərin hesabına genişlənəcəyi də istisna deyil. Unutmaq olmaz ki, ABŞ hər zaman bu prosesi həvəslə körükləyib, bundan ötrü böyük məmnuniyyətlə maliyyə dəstəyi verib. Odur ki, 2 apreldən sonra Ermənistanda kritik proseslərin başlaması da mümkün görünür.

❑ **Siyasət şöbəsi**




# Bakıda AŞPA-nın komitə iclası keçiriləcək

**Bakıda Avropa Şurası Parlament Assambleyasının Miqrasiya, Qaçqın və Məcburi Köçkünlər üzrə Komitəsinin iclası keçiriləcək. APA-nın AŞ PA-nın saytına istinadən verdiyi məlumata görə, iclas martın 15-16-da olacaq. AŞ PA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi Sezar Florin Preda da toplantıda iştirak edəcək. O, "Fövqəladə qaçqın hallarının maliyyələşməsi yollarının inkişafı"na dair hesabat təqdim edəcək və bunun əsasında qətnamə qəbul olunacaq.**

Yığıncaqda bir sıra digər hesabatlar da dinləniləcək, həmməruzəçilər təyin ediləcək.

YENİ MÜSAVAT
N 29 (6643) 9 fevral 2017

# "Dünya Rusiyanın dağılmasına hazır deyil"-politoloq şərhi

## Elçin Mirzəbəyli: "Avrasiya qitəsi cəhənnəmə çevrilər"

**Son üç ildə Rusiyaya qarşı Avropa Birliyinin tətbiq etdiyi sanksiyaların sonda şimal qonşumuzu bitirə biləcəyi ilə bağlı fikirlərə artıq tez-tez rast gəlirik. Hətta bir federasiya kimi Rusiyanın tamamilə dağılmaq təhlükəsi ilə üzləşdiyi də deyilir.**



Doğrudur, Kreml hələ ki tab gətirə bilir. Lakin bunun ömrünün qısa olacağı söylənilir. Ərazisinə görə dünyada ilk sırada qərarlaşan Rusiya dağılarsa, bunun fəsadlarının daha çox olacağı vurğulanır. Vaxtilə Rusiyanın varisi olduğu SSRİ-nin tərkibində olan respublikalarda ABŞ başda olmaqla, Qərb dövlətləri yaratdıqları xalq cəbhələrinin əli ilə böyük bir imperiyanı süquta uğratmışdılar. İndi də Avropa ölkələrinin sanksiyalar vasitəsilə federasiya olsa da, əslində imperiya sayılan Rusiyanı çökdürmək planlarını həyata keçirdikləri deyilir. Çünki Rusiya daxilindən xalqları ayağa qaldırmaq indiki halda çox çətin görünür.

**Politoloq Elçin Mirzəbəyli öncəliklə SSRİ-nin dağılmasına səbəb olan xalq cəbhələrinin yaradılmasında fərqli yanaşmaların olduğunu söylədi:** "Sovetlər Birliyini Azərbaycanda yaradılan Xalq Cəbhəsinin süquta uğratdığını söyləmək doğru olmazdı. Müxtəlif ölkələrdə yaradılan bu adla olan qurumların da burada böyük rolu var. Bu yanaşmaları birmənalı şəkildə qəbul etmək düzgün deyil. Amerikanın yaratdığı təşkilatların, eləcə də milli-azadlıq hərəkatlarının SSRİ-ni dağıtdığını demək də düzgün deyil. Burada bir çox amillər var. Silahlanma yarışı, sovet iqtisadiyyatının çökməsi, milli məsələlərin dərinləşməsi və ziddiyyətli hala gəlməsi kimi amillər SSRİ-nin süquta uğramasına səbəb oldu. İndiki Rusiya özünü SSRİ-nin hüququ varisi elan edib. SSRİ-nin götürdüyü bütün öhdəliklərə cavabdeh olduğunu da bəyan edib. Rusiyanın dağılması prosesinə gəlincə, bunun qısa zamanda reallaşacağını düşünmürəm. Təbii ki, qonşularına qarşı Rusiya öz imkanlarından daha artıq potensialını qoyacaqsa, proseslər indiki müstəvidə davam edəcəksə, Rusiyanın dağılması qaçılmaz olacaq. Yürüdülən hər bir siyasət dünyada bumeranq rolunu oynayır. Rusiya ayır-ayrı ölkələrdə, xüsusilə keçmiş postsovet ölkələrindəki separatçı rejimləri dəstəkləyir. Açıq şəkildə digər ölkələrin ərazilərini işğal, ilhaq edir. Beynəlxalq hüququn prinsiplərinə əməl etmir. Yazılmış və yazılmamış bütün oyun qaydalarını pozur. Təbii ki, bunun da bir bumeranq effekti olacaq. Bu dövlətdə muxtariyyət şəklində yaşayan kifayət qədər çoxsaylı xalqlar var. Bu xalqlardan elələri var ki, müstəqil yaşamaları üçün bütün potensialları var. Şübhəsiz ki, Rusiyanın yürütdüyü hazırkı siyasət sonda əks-effekt verə bilər. Dünyanın bu proseslərə hazır olub-olmamasına gəldikdə isə düşünürəm ki, dünya Rusiya kimi bir imperiyanın dağılmasına hazır deyil. Düşünmürəm ki, Rusiyanın dağılmasında Qərb dövlətləri və Avropa İttifaqı maraqlıdır. Çünki burada müxtəlif faktorlar var. Rusiyanın dağılması bir çox problemlərə gətirib çıxara bilər. Bu həmçinin terrorizmin həmin ərazilərdə geniş vüsət almasına, radikal dini cərəyanların Rusiya ərazisində daha aktiv fəaliyyət göstərmələrinə səbəb ola bilər ki, bu da faktiki, Avrasiya, qitəsini cəhənnəmə çevirər. İndiki şəraitdə bu perspektivlər yoxdur. Amma bu siyasət davam etsə, bunun adekvat cavabı da olacaq".

**Politoloq Rusiyanın dağılmasının yarada biləcəyi konkret fəsadlardan söz açdı:** "Təsəvvür edin ki, SSRİ-nin dağılmasının üzərindən nə qədər vaxt keçib. Bu müddət ərzində SSRİ-nin mirasından hələ bəşəriyyət xilas ola bilməyib. Şərqi Avropa ölkələrinin bir çoxu Avropa İttifaqına üzv olsalar da, hələ də iqtisadiyyatlarını inkişaf etdirə bilməyiblər. Nəticədə Avropa Birliyi öz büdcəsindən həmin ölkələrə vəsait ayırmaq məcburiyyətindədir. Eyni zamanda postsovet məkanında da vəziyyət ürəkaçan deyil. İdarəçilik sisteminin mükəmməl hala çatdırılması prosesi başa çatdırılmayıb. Avropanın hüququ dəyərlər sisteminə inteqrasiya prosesi çox ləng gedir. Bu baxımdan, kifayət qədər ciddi problemlər var. SSRİ-dən qalan münaqişələr də bu günə qədər tənzimlənməyib. Bu münaqişələr də həmin ölkələr üçün deyil, Avropa, Avrasiya qitəsi üçün ciddi problemlər yaradıb. Bu proseslərdən sonra hadisələrin Rusiyanın öz daxilinə keçdiyini nəzərə alaq. Radikal İslam faktorunu nəzərə alsaq, görün hansı fəsadlar ortaya çıxır. Düşünürəm ki, bunu dünyanın aparıcı dövlətləri, xüsusilə Amerika hesablaya bilir".

❑ **Cavanşir ABBASLI**

# "ABŞ konqresmeninin Azərbaycanla bağlı açıqlaması ciddiyə alınmalıdır"

## Qabil Hüseynli: "Amerikadan İranın casus şəbəkəsinin əli ilə çevriliş hazırlıqları barədə xəbərdarlıq xarakterli açıqlamanı elə-belə məsələ hesab etmək olmaz"

**ABŞ Konqresinin Nümayəndələr Palatasının xarici işlər üzrə komitəsinin rəhbəri, respublikaçı Ed Roys "İsrael Project" forumu zamanı İranın Azərbaycanın işlərinə müdaxiləsi ilə bağlı sensasion bəyanatla çıxış edib. Konqresmen bildirib ki, İran region ölkələrinə təhdid yaradır. Ed Roys bildirib ki, İranın İnqilab Keşikçiləri Korpusu regional təhlükəsizlik üçün təhdiddir və sanksiyalara məruz qalmalıdır. Konqresmenin bildirdiyinə görə, İran Yəmən, Bəhreyn kimi Yaxın Şərq ölkələrinə təhdid yaradır, husi qiyamçılarını Səudiyyə Ərəbistanına qarşı silahlandırır. Ed Roys İranın Azərbaycan üçün də "təhdid olduğunu" deyib. Onun sözlərinə görə, bu gün İran agentləri Azərbaycana soxulur, kəndlərdə insanları öz tərəflərinə çəkir, onlara bildirir: "Casus şəbəkəsi insanlara təbliğatında deyir ki, siz dünyəvi hökuməti niyə dəstəkləyirsiniz? Siz şiələrsiniz. Siz bu rejimi devirməyə çalışmalısınız". Konqresmenin fikrincə, bu fəaliyyətlə məhz İnqilab Keşikçiləri Korpusu məşğuldur.**



Amerikalı konqresmenin bəyanatını, sadəcə olaraq, İranla münasibətlərin gərginləşməsindən doğan növbəti açıqlama, yoxsa arxasında ciddi informasiyalar olan bir bəyanat hesab etmək olar?

**Politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a bildirdi ki, yaxın qonşuluğumuzda olan ölkələrdən İranla yanaşı Rusiyanın da Azərbaycanda müəyyən səviyyədə casus şəbəkəsi var. Bu şəbəkələr hələ Azərbaycan yenicə müstəqillik əldə etdiyi zamanlardan burada yerləşməyə, formalaşdırılmağa başlanıb. Azərbaycanda zaman-zaman bu şəbəkələrin əli ilə daxildə qarışıqlıq salmağa, müəyyən separatçılıq ocaqları yaratmağa cəhdlər edilib. Lakin heç bir uğur əldə etmələri mümkün olmayıb: "Əvvəla, ölkəmizdə bütün azsaylı millətlərin hüquqları konstitusion qaydada qorunur və burada separatçılıq ocağını yaradıb alovlandırmaq üçün münbit şərait yoxdur. Casus şəbəkələri kütlələri öz ətraflarında toplaya bilməyiblər. İkincisi isə, Azərbaycan dövlət səviyyəsində belə məsələlərdə qətiyyətli mövqeyini ortaya qoya bilib".

**Politoloqun sözlərinə görə, indi ABŞ-dan İranın casus şəbəkəsinin əli ilə Azərbaycanda çevriliş hazırlıqları barədə xəbərdarlıq xarakterli açıqlamanın verilməsini elə-belə məsələ hesab etmək olmaz:** "Ola bilsin ki, konkret kəşfiyyat informasiyaları ABŞ-ın əlində var və konqresmen də buna əsaslanıb belə bir ciddi açıqlamanı verib. Kimlərsə hansısa məkrli planlarını həyata keçirməyə cəhd edə bilər. Odur ki, Azərbaycan cəmiyyəti, müvafiq dövlət orqanları, siyasi partiyalar ayıq-sayıq olmalıdır. Casus şəbəkələrinin ifşa olunması istiqamətində ciddi işlər həyata keçirilməlidir".

❑ **Etibar SEYİDAĞA**

# Miqrant məsələsində Trampı haqlı saymaq olarmı?



**Hüseynbala SƏLİMOV**

**Onun məqsədi və siyasi niyyətləri hələ tam aydın deyil. Bilmək olmur ki, bu və ya digər fikri deyərkən hansı məqsədi güdür və bütün bu dedikləri hansı siyasi qərarlara çevriləcək?**

Amma o, bəzi şeyləri düz deyir. Ona qarşı nə qədər antipatiyan olsa da yenə də müəyyən məqamlarla razılaşmalı olursan. Bəli, söhbət yeni ABŞ prezidenti D.Tramp cənablarından gedir...

Düşünürük ki, davranışı və maneraları ilə bir az V.Jirinovskini xatırladan bu adam bizi hələ çox təəccübləndirəcək.

Bu adam heç bir ABŞ rəhbərinin dilə gətirmək istəmədiyi və ya gətirmədiyi detallardan danışır və nə qədər çalışırsan ki, onun belə çərənləmələrinə diqqət yetirməyəsən, amma ki, yenə də bacarmırsan...

Məsələn, onun son müsahibəsi mənə çox, hətta olduqca maraqlı göründü. Son vaxtlarda o, bəlkə ilk prezident idi ki, öz ölkəsinin mələk olmadığını və onun siyasəti nəticəsində böyük fəlakətlərin baş verdiyini etiraf edirdi.

Bizə bu qəribə görünür. Bəlkə də ona görə ki, bu adamın məqsədini bilmirik. Amma bircə anlığa özümüz də fikirləşək və bircə suala cavab verək: məgər bir vaxtlar ABŞ cəmiyyəti ölkələrinin, məsələn, Vyetnam müharibəsi zamanı etdiklərini lənətləmədimi? Və yaxud da B.Obama özü də etiraf etmədi ki, bəzi ərəb ölkələrində yaranmış vəziyyətdə onun ölkəsinin də təqsiri az deyil?..

Amma bütün bunlar Trampın dilindən səslənəndə bizə qəribə gəlir? Niyə? Bir daha deyirik ki, yalnız ona görə ki, bu adamın son məqsədini bilmirik.

Elə miqrantlarla bağlı siyasət də həm ölkədə, həm də kənarda xeyli mübahisə doğurdu. Təbii ki, tarixən mühacir ölkəsi olan Amerikanın da birdən-birə durub qapılarını yeni mühacirlərin üzünə bağlaması hamıya, elə bizə də təəccüblü göründü.

Amma yenə də onun dedikləri haqqında daha ciddi düşünməyə cəhd etdik. Bəlkə o düz deyir? Deyir ki, öz ölkələrinizdə qalın, oraları sahmana salmağa çalışın.

Amma üçüncü ölkələrin, bəli, kasıb və avtoritar ölkələrin insanları nə edirlər? Ölkələrini müstəbidlərə və ya quldur məmurlara təhvil verib başqa ölkələrə üz tutur, bununla da məsuliyyətdən qaçırlar. Bu adamlar, necə deyər, heç bir əziyyət çəkmədən hazıra nazil olmaq və həyatlarını qayğısız yaşamaq istəyirlər.

İnkar etmirəm ki, bəziləri bunu sonuncu addım kimi edirlər. Bəli, elə insanlar var ki, öz ölkələrində zülmə və zorakılığa qarşı bacardıqları qədər müqavimət göstərirlər və sadəcə, elə bir an yetişir ki, onlar daha ölkələrində qala bilmirlər və mühacirətə getməyə məcbur olur, bu yolla həyatlarını xilas edirlər. Belə insanları başa düşmək olar. Amma beləlri ümumi mühacir selində nəçə faiz təşkil edir? Məsələ də elə bundadır ki, onlar çox azdır. Böyük əksəriyyətsə daha çox "qızıl axtaranlar" - qayğısız həyat axtaranlardır.

Təbii, mən bu adamların köçdükləri ölkələrin iqtisadiyyatına müəyyən qədər xeyir verdiklərini də inkar etmirəm. Onlar yerli adamların görmək istəmədiyi işlərin qulpundan yapışırlar və bu yolla da bir növ daha ucuz işçi qüvvəsi funksiyasını yerinə yetirirlər...

Amma yenə də hesab edirəm ki, hər bir adam ilk növbədə öz ölkəsini sahmana salmağa, öz ölkəsində normal dövlət və həyat qurmağa cəhd etməlidir.

Elə bu səbəbdən də düşünürəm ki, Trampın mühacirlərlə bağlı dediklərində də müəyyən məntiq var. Sadəcə, problem ondadır ki, bu gün mühacirlər ölkəsi olan ABŞ-ın mühacirlərdən gileylənməsi və yaxud da narazılıq etməsi bir qədər qeyri - adi görünür.

Həm də D.Trampın çıxışlarından belə duyulur ki, o, diqqəti ölkənin içinə yönəltməyə cəhd edir. Müəyyən mənada haqlıdır da...

Ona görə ki, Çin artıq ABŞ-ın dabanlarını tapdayır. Deməli, nə etmək lazımdır? Bəli, ABŞ iqtisadiyyatına yeni bir nəfəs vermək lazımdır. Yoxsa ABŞ rekord dərəcədə borclu olan bir nəhəngə çevriləcək. Hamı ABŞ-a bir qlobal donor kimi baxır. Bu vaxta qədər ABŞ da bu missiyanı yerinə yetirib. Amma hiss olunur ki, daha Sem dayı bu yükü çəkə bilmir.

Əslində niyə də çəkməlidir ki? Digər dövlətlərə nə qalıb? Məsələn, Avropa ölkələri nədən NATO ilə bağlı xərclərin bir hissəsini bölüşməsin? Etiraf edək ki, Tramp müəyyən qədər haqlıdır...

# “Azərbaycan Lapşinin işi üzrə məhkəməni udacaq”

## Əvəz Həsənov: “Bu prosesə ən savadlı istintaqçı və hakimlər cəlb olunmalıdır”

**Ermənilərlə separat əlaqələrdə olan və yazıları ilə Azərbaycanın ərazi bütövlüyünə qarşı çıxan, təhdidlər yağdıran blogger Aleksandr Lapşinin fevralın 7-də axşam saatlarında qandallanaraq Bakıya gətirilməsi Azərbaycan hökumətinin ciddi uğuru kimi qiymətləndirilir. Bu istiqamətdə ictimaiyyətin bütün təbəqələrindən reaksiyalar gəlməkdə davam edir.**

Humanitar Tədqiqatlar İctimai Birliyinin rəhbəri, hüquq müdafiəçisi Əvəz Həsənov Lapşinin fəaliyyətinin Azərbaycan hökumətinin onu ittiham etməyə tam əsas verdiyini söylədi: “Dağlıq Qarabağa səfər etməyə nəzarət etmək Azərbaycan hökumətinə çox çətindir. Amma hökumətimiz ”qara siyahı" tərtib etməklə bir növ belə səfərlərə mane olmaq üçün əlindən gələni etməyə çalışıb. Müəyyən mənada buna da nail olub. O şəxslər ki, “qara siyahı”ya düşüblər, müəyyən müddətdən sonra Azərbaycandan üzr istəyiblər, yaxud bu siyahıdan çıxarılmaları üçün izahat xarakterli yazılar yazıblar. Lapşin də Dağlıq Qarabağa səfər edib. Azərbaycan hökumətinin etirazlarını qulaqardına vurub. Hətta o öz bloqunda yazmışdı ki, “Azərbaycan hökumətinin mənə olan etirazından sonra ora başqa pasportla getdim,



orada mənə bir söz demədilər, məni saxlamadılar. İndi Azərbaycan hökuməti mənə nə edə bilər?” Bu iddialı mövqeyi olduğu üçün Azərbaycan tərəfi onun ölkəmizə ekstradisiya edilməsi istiqamətində daha qətiyyətli, prinsipal işlər görməyə vadar oldu. Əslində Dağlıq Qarabağda olan, Azərbaycana bu barədə məlumat verməyən şəxslərin ölkəmizə gətirilmələri üçün əlimizdə kifayət qədər imkanlar var idi. Onların bəziləri ilk dəfə idilər, bəziləri etiraf edirdilər ki, onları aldadıblar. Lapşin bütün qırmızı xətləri keçmişdi. Onun Azərbaycandakı məhkəməsi təbii ki, çox uzun proses olacaq. Əminəm ki, Azərbaycan məhkəməsi onun ittiham olunması üçün lazımi qanunlardan istifadə edəcək və Azərbaycan Xarici İşlər Nazirliyi, Baş Prokurorluğun və digər qurumların fəaliyyəti ilə onun məhkəməsi açıq olacaq. Lapşinin vəkilləri bir və ya bir neçə ölkədən ola bilər. Bu məhkəmə prosesi çox çətin keçəcək. Azərbaycan hökumətinə təklif edirəm ki, qanuni maddələrdən başqa onun səfərləri zamanı verdiyi açıqlamalarını, mövqeyini əsaslandırılmış şəkildə ortaya qoysun. Azərbaycan ən savadlı istintaqçı və hakimlərini bu prosesə cəlb etməlidir. Yəqin ki, proses rus dilində olacaq. Peşəkar hakimlərin olması, ciddi arqumentlərin ortaya qoyulması imkan verəcək ki, Azərbaycan bu işi udsun. Onu həbs etmək işin birinci mərhələsidir. Amma onu ittiham etmək, cəza çəkməsinə nail olmaq ikinci mərhələdir və Azərbaycanın bu imkanları kifayət qədər genişdir".

**Ə.Həsənov onu da vurğuladı ki, Azərbaycan hökuməti məhkəmənin açıq olmasında maraqlı olmalıdır:** “Bəlkə də bizdə ilk dəfədir ki, əcnəbi vətəndaşı belə bir siyasi prosesdə həbs ediblər. Bu həm də Azərbaycan hökumətinin Dağlıq Qarabağ və işğal edilmiş ərazilərə səfər edən bir şəxsi ittiham etməsini bütün dünyaya göstərməsinə imkan verəcək. Ona görə yaxşı olar ki, Azərbaycan hökuməti onu açıq ittiham etsin, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini dərindən bilən hakimlər bu işə cəlb olunsun. Ola bilsin ki, şahidlər qismində həm jurnalistlər, həm onun blogger yoldaşları, həm də onunla əlaqələri olan şəxslər virtual şəkildə dinlənilə bilərlər. Bu texniki məsələlər indidən düşünülməlidir. Azərbaycan hökuməti maraqlı olmalıdır ki, məhkəmə prosesi uzansın, məhkəmədə çoxsaylı ittihamlar səslənsin. Onların da arqumentləri açıq dinlənilməlidir. Onsuz da Azərbaycan hökumətinin mövqeyi qətidir, aydındır. Çünki əvvəldən Azərbaycan tərəfi işğal edilmiş ərazilərə səfər edənlərə sərt mövqe bildirmiş, onları məhkəmə ilə hədələmişdi. Amma bütün hallarda məhkəmə açıq olsa, savadlı hakimlər iştirak etsə, Azərbaycan bu məhkəməni udacaq. Nəticədə şou vasitəsilə olsa da, bu şəxsin ittiham edilməsi gələcəkdə Dağlıq Qarabağa səfər edəcək, yaxud bu düşüncədə olanlara nümayiş etdiriləcək”.

❑ Cavanşir ABBASLI

# Qərb Rusiyaya uduzdumu...

## Sülhəddin Əkbər: “Rusiya legitim Ukraynanı uduzdu”

**Gələn ay Avropa Birliyinin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyaların 3 ili tamam olacaq. Bu illər ərzində gəlinən qənaət budur ki, Qərb Rusiyadan istədiyini hələ ki əldə edə bilməyib. Əksinə, Rusiya dünya hegemonluğu siyasətini yürütməkdə davam edir.**



Belə ki, Kreml sanksiyalara məruz qalmasına səbəb olan işğal etdiyi Ukrayna ərazilərini geri qaytarmayıb, belə bir fikri də yoxdur. Eyni zamanda Suriyada istədiyi siyasəti həyata keçirə bilib, yəni Bəşər Əsəd rejimini hələ də hakimiyyətdə saxlayır. Bütün bunlar Qərbin Rusiyaya uduzması ilə bağlı fikirlərin meydana çıxmasına səbəb olub.

**Azad Demokratlar Partiyasının sədri, MTN-in sabiq birinci müavini Sülhəddin Əkbər deyilən fikirlərlə razı deyil:** “Rusiyanın Ukraynaya təcavüzündən sonra dünyanı idarə edən güclər- üçtərəfli komissiyanı nəzərdə tuturam - Putin rejimin dəyişdirilməsi, bu mümkün olmasa, siyasətinin qarşısının alınması barədə qərar qəbul etdilər. O zamankı Barak Obama administrasiyası və NATO birlikdə hərəkətə keçdilər. İki illik proqram bununla bağlı hazırlandı. 6 fevral 2015-ci ildə Amerika öz milli təhlükəsizlik strategiyasını yenilədi, Rusiyanın qarşısını almağı bir nömrəli hədəf seçdilər. İki illik hazırlıq dövrü oldu və bu bütün sahələri əhatə edirdi. Bu müddət artıq başa çatıb. NATO-nun 8-9 iyuldakı Varşava sammiti ilə bu hazırlığa yekun vuruldu. Bundan sonra ABŞ, Avropa Birliyi və NATO aktiv hərəkətə keçdi. NATO-nun çevik qüvvətləri artırıldı. Yeri gəlmişkən, 500 nəfərlik hərbi kontingent qonşu Gürcüstanda yerləşdirilib. Buna təəssüflər olsun ki, Azərbaycan mətbuatı o qədər də ciddi önəm vermir. Şərqi Avropa ölkələri və digər dövlətlərdə də belə kontingentlər yaradıldı. 15-16 fevralda NATO-nun müdafiə nazirlərinin görüşündə Qara Dənizdə flotriyasının yaradılması haqqında qərarın qəbulu gözlənilir. Bu da çox ciddi məsələdir. Bütün bu və ya digər amillər ABŞ, Avropa Birliyi və NATO-nun aktiv hərəkətə keçdiyini göstərir. Rusiya sanksiyalar, xüsusilə dünyada neftin qiymətinin kəskin şəkildə azalması nəticəsində xeyli zəifləyib. Bunun nəticəsidir ki, onun aqressivliyi xeyli artıb. Məncə, insanlar Rusiyanın qəzəbinin artmasını düzgün izah edə bilmirlər. Rusiya aktiv hərəkətə nə zaman keçdi? 13 may 2005-ci ildə. Həmin vaxtda Azərbaycan və Moldovada seçkilər idi. Ölkəmizdə demokratik dəyişikliklər önə alındı, Əli İnsanov və Fərhad Əliyevin həbsi, Rəsul Quliyevin ölkəyə gəlişinin qarşısının alınması və digər hadisələr baş verdi. 2008-ci il 8 avqustda Gürcüstana hərbi təcavüz edildi. Bu hadisə isə o zaman baş verdi ki, həmin ilin fevralında Kosovanın müstəqilliyi elan olundu, ABŞ və digər dövlətlər onu birtərəfli qaydada tanıdılar. Ardınca da apreldə NATO-ya üzv üçün hazırlıq proqramı Ukrayna və Gürcüstana verilmədi. Bütün bunlar Rusiyanın qarşısında, faktiki, ”yaşıl işıq" yandırdı. Rusiya da bunun əvəzini Gürcüstanda çıxdı. Kremlin ikinci aqressivliyi isə Ukraynaya hücumu ilə özünü göstərdi. Putin açıq şəkildə demişdi ki, biz bu addımı atmasaq, Ukrayna Avropa Birliyi ilə assosiativ saziş imzalayaqdı, ardınca da Ukraynanın NATO-ya üzvlüyü baş verəcəkdi, Krımda da NATO-nun hərbi bazası yerləşdiriləcəkdi, indi isə onlar bizə yalnız qonaq gələ bilərlər. Belə ciddi ifadələr işlətmişdi. Hadisələrə qiymət verərkən qlobal və regional yanaşma olmalıdır. Çox zaman Rusiyanın həmişə qazanclarından danışırlar. Gürcüstan, Ukrayna və Suriyadakı uğurlarını dilə gətirirlər. Amma nəzərə almırlar ki, Rusiya legitim Ukraynanı uduzdu. Onun qeyri-legitim olaraq bir parçasını müvəqqəti ələ keçirdi. Eyni sözü Gürcüstan barədə də demək olar. Mən həmişə deyirəm, kaş Azərbaycanın bir hissəsini elə Rusiya açıq şəkildə işğal edərdi. Gürcüstan və Azərbaycanı müqayisə edəndə fərqi görərik. Gürcüstan artıq NATO-nun bir parçası olmaq üzrədir. Görün bizdən nə qədər irəlidədir. Bir müddət gələcək, Gürcüstan öz suverenliyini təmin edəcək, amma Azərbaycan yox. Qarabağ belə mübahisəli zona hesab olunur. Azərbaycan Gürcüstan və Ukrayna kimi müdafiə olunmur. Hərbi yolla problemini həll etmək istəsə, bu dəfə önündə Amerika və Fransanı da görəcək".

❑ Cavanşir ABBASLI




### “Aleksandr Lapşinin ekstradisiyası Azərbaycan dövlətinin uğurudur” - rusiyalı politoloq

**“Aleksandr Lapşinin ekstradisiya olunması Azərbaycan dövlətinin uğurudur. Bu, Azərbaycan dövlətinin güclü olmasının göstəricisidir. Lapşinin ekstradisiyası həm də Azərbaycan hakimiyyətinin nüfuzunun möhkəmlənməsinə xidmət edir”.**

Bu sözləri APA-nın Moskva müxbirinə açıqlamasında Rusiya Siyasi Araşdırmalar İnstitutunun baş direktoru, tanınmış politoloq Sergey Markov deyib.

S. Markov bildirib ki, Azərbaycan rəhbərliyi ölkə qanunlarının qəti şəkildə yerinə yetirilməsində təkid edir: “Azərbaycanın qanunlarına görə, onun icazəsi olmadan Dağlıq Qarabağ regionuna səfər etmək qanunsuzdur. Lapşin həmin qanunu pozmuşdu və bu azmış ki, hələ üstəlik, sosial şəbəkələrdə Azərbaycanın qanununu pozduğuna görə fəxrlə öyünmüşdü. O, Dağlıq Qarabağa səfər etdikdən sonra başqa pasportla yenidən Azərbaycana səfər etmiş və sosial şəbəkədə bu barədə nümayişkaranə şəkildə öyünmüşdü. Hətta Dağlıq Qarabağa yenidən səfər etmək üçün pul toplamağa başlamışdı. Bütün bunlardan sonra Azərbaycan dövləti onu axtarışa verdi”.

**Rusiyalı politoloq təmsil etdiyi ölkədən asılı olmayaraq, hər bir vətəndaşın Azərbaycanın qanunlarına hörmət etməli olduğunu vurğulayıb:** “Azərbaycanın qanunları var. Bu ölkə işğal altında olan Dağlıq Qarabağ uğrunda mübarizə aparır. Azərbaycan dövlətinin vəzifələrindən biri Dağlıq Qarabağa gedən əcnəbilərin qanunsuz səfərlərinin qarşısını almaqdır. Hesab edirəm ki, Lapşinlə bağlı baş verən hadisə Dağlıq Qarabağa səfər edənlərə və etmək istəyənlərə dərs olacaq və bu regiona gedənlərin sayı kəskin azalacaq”.

**S. Markov Lapşin olayının Moskva ilə Bakı arasındakı münasibətlərə təsir edib-etməyəcəyi məsələsinə də aydınlıq gətirib. Onun sözlərinə görə, iki ölkə arasındakı münasibətlər hazırda yüksək səviyyədədir:** “İnanmıram ki, bu hadisə ikitərəfli münasibətlərə təsir etsin. Əgər Lapşin Azərbaycan həbsxanasında axıra kimi cəzasını çəksə, bu, bəlkə də Rusiya-Azərbaycan münasibətlərinə mənfi təsir edə bilər. Fikrimcə, ona hökm oxunandan sonra ya əfv olunacaq, ya da cəzasının qalan hissəsini çəkmək üçün vətəndaşı olduğu Rusiyaya ekstradisiya ediləcək. Bu addım isə ikitərəfli münasibətləri daha da möhkəmləndirməyə xidmət edəcək”.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 29 (6643) 9 fevral 2017

**Meyiti 39 gün düşmən Ermənistanda girov saxlanılan Çingiz Qurbanov Azərbaycan prezidentinin sərəncamı ilə Milli Qəhrəman adına layiq görüldü. Bu, şübhəsiz ki, ermənilərin acığına edilən jest deyil, Azərbaycanın öz şəhid hərbçisinə hər zaman verdiyi dəyərdir. Analoji qiymətə 7 il öncə Mübariz İbrahimov layiq görülmüşdü. Şəhidinə, əsgərinə yüksək dəyər verən xalq isə məğlub sayıla bilməz - savaşı müvəqqəti uduzsa da.**




# Sərkisyanın sabiq müttəfiqi onun əleyhinə çıxdı



**Ermənistanda ictimai-siyasi vəziyyət yenidən gərginləşib. Keçmiş müdafiə naziri Seyran Ohanyanla Serj Sərkisyan arasında qalmaqal getdikcə dərinləşir. O, Ermənistan rəhbərini 1 mart hadisələrinin təşkilatçılığında ittiham edib (AzərTAc). Belə ki, tərəflər 9 il əvvəl İrəvanda martın 1-də baş verən qırğınlarda bir-birilərini günahlandırırlar.**

2008-ci il martın 1-i Ermənistan tarixinə qara hərflərlə yazılıb. Həmin gün baş verən qanlı toqquşmada 10 dinc sakin öldürülüb, 200 nəfər xəsarət alıb, 100 nəfər isə həbs edilib. 1 mart hadisələrinin öyrənilməsi və faktların toplanması üzrə qrup hələ də hadisələrdə əli olanları üzə çıxarmayıb. 9 il sonra həmin iğtişaşlar yenidən hadisələrin iştirakçısı, keçmiş müdafiə naziri Seyran Ohanyan tərəfindən Ermənistan gündəminə gəlib.

S.Ohanyan jurnalistlərə müsahibəsində bildirib ki, onlara həmin gün İrəvanın küçələrinə qoşun yeridilməsi tapşırığı verilib. Müdafiə Nazirliyinin tabeliyindəki hərbçilərin böyük hissəsi S.Sərkisyana və onun klanına məxsus obyektlərin mühafizəsinə cəlb olunub. Xüsusi təyinatlı qoşunlar isə dinc əhalinin üzərinə yeridilib. Aksiya zamanı iğtişaşları da Sərkisyanın mülki geyimdə olan adamları törədib. Bu isə nümayişçilərə atəş açmaq üçün bəhanə olub.

Ermənistanın Xüsusi Təhqiqat Xidmətinin keçmiş üzvü Andranik Koçaryan da baş verənlərdə S.Sərkisyanın birbaşa iştirakı olduğunu deyib. O bildirib ki, 1 mart qurbanları cəmiyyətə cinayətkar kimi təqdim edilir. Onlar, sadəcə, Ermənistanda növbəti prezident seçkisindən sonra seçkinin nəticələrinə etiraz edən dinc sakinlər olublar.

Xocalı hərbi canilərindən sayılan S.Ohanyan nazir postunu tərk edənədək digər Xocalı canisi, hazırkı prezident Sərkisyanın müttəfiqi olub. O da əslən Dağlıq Qarabağdandır.



# Rəsmi Bakının bir gündə iki mühüm qərarı

## Lapşinin ekstradisiyası ilə eyni gündə girovluqdakı şəhidimizə Milli Qəhrəman adının verilməsi təkcə işğalçıya ünvanlı mesaj deyil; düşmən belə presedentlərin təkrarlanacağından yana xofdadır; Ermənistandan xaricə mühacirət axını güclənir; sıra "patriot" kəsimə də çatıb...

Prezidentin sərəncamı da ən əvvəl o deməkdir ki, biz gec-tez, mütləq işğal altındakı torpaqlarımızı azad edəcək və ora qayıdacağıq. Bu xüsusda Çocuq Mərcanlıya qayıdış planı böyük yolun yalnız başlanğıcıdır. Proses artıq başlayıb və getdikcə böyüyən qar topası kimi o da böyüyərək, daha geniş vüsət alacaq.

*****

Şəhid Çingiz Qurbanova Milli Qəhrəman adı verildiyi gündə Qarabağa birbaşa dəxli olan daha bir mühüm olay baş verdi - işğal altındakı Dağlıq Qarabağa dəfələrlə və nümayişkaranə şəkildə, qanunsuz səfər etmiş, üstəlik, separatçı qurumu "müstəqil dövlət" kimi təbliğ eləmiş blogger Aleksandr Lapşin Azərbaycana təhvil verildi. Ermənistanın havadarı Rusiyanın ciddi cəhdlərinə baxmayaraq, ölkəmizin qanunlarını pozmuş və ona həqarət etmiş cinayətkar Azərbaycana gətirildi.

**Yeri gəlmişkən, bu olay işğalçı tərəfdə ciddi əndişə və xof yaradıb. Ermənilər belə bir insidentdən sonra separatçı bölgəyə səfər etmək istəyən əcnəbilərin olmayacağından narahat olmağa başlayıblar. Musavat.com-un məlumatına görə, bu xüsusda tanınmış iqtidaryönlü politoloq, İrəvandakı Beynəlxalq Əlaqələr və Təhlükəsizlik İnstitutunun rəhbəri Stepan Safaryan özünün facebook səhifəsində yazdığı statusda Ermənistanın Belarusdakı səfirinin təcili geri çağırılmasını tələb edib.**

"Ermənistanın Belarusdakı səfiri rüsvayçılıqla qovulmalıdır. AŞ PA-nın yanvar sessiyasında iştirak edən erməni nümayəndə heyəti isə bu mövzuda özünə rəva bilmədi ki, Azərbaycan və Belarusda insan haqlarının kobud pozulması ilə bağlı çıxış etsin. Parlament rəhbərliyi tərəfindən bizim nümayəndə heyətinə ciddi xəbərdarlıq elan edilməlidir. Yerdə qalan məmurlar haqda mən susuram", - deyə erməni politoloq qəzəbini və təlaşını gizlətməyib.

"Lapşinin Azərbaycana təhvil verilməsindən sonra heç bir ağlı başında olan əcnəbi Dağlıq Qarabağa səfər etməyəcək". Bunu isə jurnalistlərə açıqlamasında Ermənistanın İrs Partiyasının mətbuat katibi David Sanasaryan söyləyib (axar.az). "Lukaşenkonun Lapşini Azərbaycana verməsi sübut edir ki, bizim heç bir diplomatik rıçaqımız Belarus prezidentinin qarşısını ala bilmədi. Xaricilər daha yeni "lapşinlərə" çevrilməmək üçün Qarabağa səfər etməyəcəklər. Belarusun bu cür hərəkəti yeni xəbər deyil. Bu ölkə hər zaman Azərbaycanın müttəfiqi olub. Nədənsə Ermənistan hələ də heç bir müttəfiqinin olmadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Avrasiya İttifaqında öz üzvlüyünü saxlayır", - Sanasaryan bildirib.

*****

Şübhə yox ki, yəhudi bloggerin Azərbaycana gətirilməsi Sərkisyan rejiminin Qarabağ mövzusunda seçki təbliğatına da güclü zərbədir. Eyni zamanda dövlətimizin öz ərazilərinin işğalı ilə heç vaxt barışmayacağının növbəti təsdiqidir. Təkcə təsdiqi deyil, eyni zamanda düşmənə və onun arxasında duranlara, dünyaya xəbərdarlıq mesajıdır. Belə mesajlar isə, əlbəttə ki, sonsuza qədər verilməyəcək. Ötən ilin aprelində kimi, günün birində real işə çevrilib təcavüzkara sarsıdıcı hərbi zərbələr şəklini alacaq.

Qısası, işğalçı əmin ola bilər ki, Azərbaycan torpaqlarında ləngidikcə bu torpaqlar onun əsgərləri üçün yalnız məzara çevriləcək, yadellilərin altında torpaq yanacaq. Azərbaycan bu yöndə gərəkən hərbi, siyasi addımları atır və qurtuluş yetişənə kimi atmaqda davam edəcək...

Bu arada illərlə həlli uzanan Dağlıq Qarabağ məsələsi, davam edən müharibə qorxusu və izolyasiya səbəbindən işğalçı Ermənistanda miqrasiya ilə bağlı göstəricilər faciəvi həddə çatmaqdadır (virtualaz.org). Belə ki, hər ay on minlərlə vətəndaş ölkəni tərk edir. Serj Sərkisyanın iki müddətlik prezidentliyi dövründə, yalnız rəsmi məlumatlara görə, Ermənistanı hər yeddi nəfərdən biri tərk edib.

İşsizlik, siyasi repressiyalar, Qarabağda müharibə - bütün bunlar insanları ölkə xaricində daha sakit və ləyaqətli həyat axtarmağa məcbur edir. Yüksək vəzifəli, özü də kifayət qədər kapital yığmış məmurların başlanmış qaçışı ölkənin həm iqtisadi, həm də siyasi cəhətdən sərfəli olmamasının danılmaz sübutudur.

Bir az əvvəl KİV-ə informasiya sızmışdı ki, sabiq maliyyə naziri Qaqik Xaçatryan ailəsi ilə birlikdə ABŞ-a gedib. Ona qədər yenə ailəsi ilə birgə ölkənin təhlükəsizlik idarəsinin rəisi, eyni zamanda Respublika partiyası Vardenis rayon təşkilatı qərargahının başçısı ölkəni tərk etmişdi. İndi isə mühacirlərin sırasına "Azadlıq" radiosu erməni filialının sabiq-direktoru, politoloq Aqasi Yenokyan da qoşulub. Bu yaxınlara qədər o həm də Ermənistan hökuməti yanında KİV-lə iş üzrə idarə rəisi idi. Deyilənə görə, o, San-Fransiskoda məskən salıb.

Yenokyanın facebookdakı son yazısı xüsusi diqqət çəkir. Görünür, indiki Ermənistan üçün dəqiq təyinlər tapmadığından, o, Lermontovun məşhur şeirindən bir misranı misal gətirib: "Bağışla, yuyulmamış Rusiya!" Hərçənd istisna edilmir ki, bununla o, həm də özünün Rusiyadan olan himayədarlarına təşəkkürünü çatdırıb...

*****

Beləcə, düşmən ölkədən xaricə emiqrasiya ən "patriot" kəsimə də çatıb. Bu da öz növbəsində Ermənistanda ənənəvi problemin - orduya çağırış probleminin daha da kəskinləşəcəyi deməkdir. Çünki daha əvvəlki kimi "miatsum" ideyası populyar olmayacaq. Zatən, onsuz da Sərkisyan hakimiyyətinə etibar sarsılmışdı. Bu yandan onun siyasətinə dəstək verənlərin də yorulub kənara çəkilməsi və ya ölkən tərk eləməsi əlbəttə ki, ölkədən mühacir axınını bir qədər də sürətləndirəcək. Təəssüf ki, 19 ildir Ermənistanda hakimiyyəti qəsb eləmiş "Qarabağ klanı" bu proseslərin, Qarabağ məsələsində təxribatçı mövqe tutmağın ölkəni hara apardığının fərqində deyil.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi



## Azərbaycanda dini müqəddəsləri kim və nə üçün təhqir edir...

### Son zamanlar dinləri təhqir edən artan yazıların arxasındakı mümkün səbəblər

**Son günlər sosial şəbəkələrdə yenidən dindar-dinsiz mübahisələri alovlanıb. Motiv hər zamankı kimidir: Yerli ateistlər İslam dinini, onun müqəddəslərini təhqir edən fikirlər yazır, qarşı tərəf də buna hər zaman olduğu kimi sərt reaksiya verir. Bundan sonra uzun-uzadı müzakirə və mübahisələr başlayır, qarşılıqlı təhqirlər və buna paralel olaraq nifrət artır.**

Əslində yeni bir mövzu və ya hadisə də yoxdur. Amma sanki mövzu qıtlığından dini təhqir etmək, dindarların inanclarını təhqir edib onları qəzəbləndirməyə çalışırlar. Doğrudanmı, indi buna zərurət var? Azərbaycanda nə İranda olduğu kimi teokratik hakimiyyət mövcuddur, nə də Türkiyədə olduğu kimi islamçı siyasi partiya hakimiyyətdə deyil. Yəni ölkədə hansısa siyasi, iqtisadi və ya sosial məsələyə görə İslam dinini, dindarları ittiham etmək üçün hər hansı səbəb yoxdur.

Hətta Yaxın Şərqi bürümüş dinçi terror hərəkətləri də Azərbaycana yayılmayıb. Ara-sıra baş qaldırmalar olur, o da hökumət qurumları tərəfindən qarşısı alınır. Yəni narazı bir nəfərin Azərbaycanda hansısa problemə görə İslamı ittiham etməsi üçün bir səbəb yoxdur. Yaxın Şərqdə, müsəlman aləmində baş alıb gedən müharibələr, geriliyin səbəbini dində axtarıb İslama hücum etmək üçünsə ciddi arqument yoxdur. Üstəlik, bunu geriliyin səbəblərini tapmaq, xalqı cəhalətdən, xurafatdan çəkindirmək məqsədilə, maarifçi bir fəaliyyət olaraq deyil, açıq-aşkar təhqir və nifrət yaradırsa, deməli, səbəb başqadır. Sosial şəbəkədə yeri gəldi gəlmədi dini müqəddəsləri aşağılayan paylaşımlar etmənin iki səbəbi ola bilər.

Bunu edənlərin psixoloji durumu, həyatının hansısa dönəmində din və dindarlardan gördüyü münasibət nəticəsində aldığı psixoloji travmanın doğurduğu patoloji nifrət buna səbəb olur. Bir qayda olaraq dinə keskin münasibəti olanların şüuraltında dərin travma yatır və həyatlarında hansısa bir dönəmdə dindarlardan gördüyü münasibət nəticəsində vaxtaşırı o nifrətini büruzə verir. Hindistanlı müsəlman ailədə doğulmuş Salman Rüşdünün İslam düşməninə çevrilməsində məhz uşaqlıqdan yaşadığı travmaların səbəb olduğu deyilir.

Şəxsi münasibətin ikinci və daha yüngül forması gündəmdə olmaq, cəmiyyətin diqqətini, hətta nifrət formasında da olsa üzərinə çəkmək, standart toplumdan daha fərqli olduğunu büruzə verməkdir. Bunun ən rahat yolu dinə qarşı sərt fikirlər səsləndirməkdir. Çünki adətən bu cür fikirlər sərt reaksiya doğurur, kütləni qəzəbləndirir, fikir müəllifinə isə dissident, cəmiyyətə qarşı olduğu üçün təzyiqə məruz qaldığı hisslərini yaşadır. Bizim cəmiyyətdə bu sindromdan əziyyət çəkən çoxlu sayda insan var.

Nəhayət, daha məkrli oyun olması ehtimalı. Azərbaycanda dini radikalizm çağırışları, xüsusən də xarici ölkələrdəki radikal qruplaşmalar tərəfindən ölkədə terror və xaos yaradılması ilə bağlı çağırışların artdığı bir zamanda ölkədə kimlərinsə davamlı olaraq dini, dini müqəddəsləri təhqir etməsi, barələrində ən aşağılayıcı ifadələrdən istifadə etmək istənilən halda terror üçün zəmin hazırlayır. Və heç şübhəsiz ki, bu cür təhqiramiz yazılar, fikirlər radikal dinçi terrorçuların əməllərini legitimləşdirməyə xidmət edir. Bunun ən bariz nümunəsi Paris terroru oldu. İŞİD Parisdə törətdiyi terroru "Charlie Hebdo" jurnalındakı təhqirlə əsaslandırdılar və bu hətta ən tolerant müsəlman cəmiyyətlərində belə tərəfdar olmasa da. Müsbət rəylər qazandı. Azərbaycanda dini müqəddəsləri təhqir edənlərin bunu bilərəkdən, terror və təxribat üçün zəmin yaratmaq məqsədilə edib-etmədiyini demək çətindir, amma bir şey məlumdur ki, bu cür fikirlər radikal terrorçular üçün əlverişlidir, onların həm fikir dəstəkçilərini artırır, həm də törətmək istədikləri terrora legitimlik qazandırır.

❑ Kənan RÖVŞƏNOĞLU

## Canəli Əkbərovun sənət yoldaşları haqda sərt fikirləri qalmaqal yaratdı

**Xalq artisti Canəli Əkbərovun öz həmkarları haqqında dediyi nalayiq fikirlər iki gündür ki, ölkə mətbuatının gündəmindən düşmür. Yaranmış qalmaqala səbəb isə xanəndənin muğam televiziya müsabiqəsinin münsif heyətinə qatılmaq istəsə də, digər münsiflərin buna etiraz bildirməsi olub. Həmkarlarının onu münsif kürsüsündə görmək istəməməsi xanəndəni özündən çıxarıb və onların ünvanına çox ağır ifadələr işlədib.**

O, muğam ustadı Arif Babayevi "bədbəxt" adlandırıb, xalq artisti Mənsum İbrahimovu qeyri-etik sözlərlə təhqir edərək fərarilikdə suçlayıb, xalq artistləri Səkinə İsmayılova və Əlibaba Məmmədov haqqında ittihamlar səsləndirib.

"Yeni Müsavat" qalmaqalda adı hallanan sənətkarların mövqeyini öyrənib. **Muğam ustadı Arif Babayev** barəsində səslənən ittihamlara bu cür rəy bildirdi: "Bəyəm vacibdir ki, o, hər yerdə olsun? Mən də o qədər yer var ki, orda yoxam, onda mən mətbuata çıxıb söyüş söyməli, təhqir etməliyəm? İlk növbədə mənim mənliyim var. Əgər bir yerdə yoxamsa deməli, məsləhət deyil. Bu cür ifadələri yalnız xəstə adamlar deyə bilər. Biz onun düşməni deyilik ki? O, bizim sənət yoldaşımızdır. Amma çıxıb deyir ki, "mən belə sənətkaram, kimsə mənim kimi oxusa əlimi, başımı kəsərəm" və sairə. Yaxşı da oxu. Axı biz uzun müddət yoldaş olmuşuq, bir yerdə oturub çörək kəsmişik. İnsanın gərək bir mənliyi olsun".

**Xalq artisti Mənsum İbrahimov isə adının bu cür qalmaqalda hallanmasına təəssüfləndiyini dedi:** "Mən sənətlə məşğulam, ömrüm muğama xidmətdə keçib və heç vaxt bir dəfə də olsun kiminsə haqqında nə qeyri-etik ifadə işlətmişəm, nə də kiminsə həyatına müdaxilə etmişəm. Bizi xalqımız yaxşı tanıyır, yəni hər kəsin mədəniyyəti, davranışı, vətəndaşlıq mövqeyini yaxından bilir. Mənim 7 qardaşımın 6-sı müharibə veteranıdır. Mən də demək olar ki, hər ay Qarabağa gedirəm. Aprel hadisələrinin səhəri günü Arif Babayevlə birgə getmişdik Qarabağa. Bilirsiz ki, mən Qarabağa bağlı adamam, bütün nəslim ordadır. Danışır da...



**Arif Babayev:** "Bu cür ifadələri yalnız xəstə adamlar deyə bilər"



**Mənsum İbrahimov:** "Bu, onun yaşına-başına yaraşmayan hərəkətdir"



**Səkinə İsmayılova:** "Onun müsabiqədə olmaması bizlik deyil"

Düşünürəm ki, Canəli Əkbərov yaşlı adamdır, əsəbləri yerində deyil. Ona görə də onun heç bir nalayiq fikirlərinə cavab vermək fikrim yoxdur. Hər kəsin danışığı onun mənəviyyatının göstəricisidir. Mən elə tərbiyə görməmişəm ki, kimisə təhqir edim, o da ola özümdən böyük insanlar. Mən həmişə Canəli müəllimə hörmətlə yanaşmışam, həm özünə, həm də sənətinə. Amma o, nağıl danışır. Özü də təkcə mənim haqqımda deyil, Azərbaycanın böyük, muğam ağsaqqalları Əlibaba müəllim, Arif Babayev haqqında nalayiq danışıb. Onlar bir məktəbdir. Sənət yoldaşları haqqında bu cür danışmaq olmaz. Biz, sadəcə, münsiflər heyətinin ümumi bir rəyini bildirmişik. Nə onun haqqında bir artıq-əskik danışmışıq, nə də təhqir etmişik. Üstəlik, münsiflər heyətini seçmirik, bu, Heydər Əliyev Fondunun layihəsidir. Bundan əvvəl 5 layihə keçirilib və onların heç birində Canəli Əkbərov olmayıb. Bu nə bizim günahımızdır, nə işimizdir. Fikrimizi bildirmişik ki, o, qeyri-obyektiv insandır. Onun cavabında da o nalayiq sözlər işlədib. Bu, onun yaşına-başına yaraşmayan hərəkətdir".

**Mənsum İbrahimov fərarilik ittihamlarına da cavab verib:** "Doğrudur, mən əlimə silah alıb vuruşmamışam, çünki sənət adamıyam. Sovet dövründə də sənət adamları döyüşməyə getmirdi, onlar cəbhə bölgələrinə gedib konsertlə verirdilər. Bunu əlində bayraq edib şou yaratmaq ayıbdır".

**Xalq artisti qalmaqalın ajiotaja çevrilməsində mətbuat nümayəndələrini də qınayıb:** "Bu, şou-aləmi deyil axı. Bir qədər də mətbuat bu məsələni ajiotaja çevirdi. Lap tutaq ki, o adam yaşlı adamdır, əsəbləri yerində deyil, onun danışıqlarından ajiotaj yaratmaq lazım deyildi. Yazıda qeyri-etik sözləri yazmaq da doğru deyildi".

**Xalq artisti Səkinə İsmayılova isə qeyd etdi ki, həmkarının müsabiqədə yer almaması onlardan asılı məsələ deyil:** "Artıq 6-cı Muğam Televiziya Müsabiqəsi başlayıb, rayonlarda da seçimlər oldu, inşallah ki, işə başlayacağıq. Onun müsabiqədə olmaması bizlik deyil ki. Qaldı ki, onun dediklərinə, deyir də. Canəli Əkbərov böyük sənətkardır, hamımız onu yaxşı tanıyırıq. Onun sənətini də bilirik, şəxsən mənim haqqım çatmır ki, onun sənəti haqqında söz deyim. Onun dedikləri özünü ifadə edir, başqa nə deyə bilərik? Müsabiqədə iştirakı üçün bizim rəyimiz əsas deyil, bu məsələni biz həll etmirik".

**"Münsiflər heyətini kim seçir" sualımıza isə xalq artisti bu cür cavab verdi:** "Bunu deyə bilmərəm. Seçim neçə il bundan əvvəl olub. Bu yaxınlarda rəhmətə gedən Ağaxan Abdullayevdən başqa bütün heyət öz yerindədir".

Xatırladaq ki, Muğam Televiziya Müsabiqəsi 2005-ci ildən keçirilir. 2007, 2009, 2011, 2013 və 2015-ci illərdə də muğam müsabiqələri keçirilib və müsabiqə qalibləri Heydər Əliyev Fondu tərəfindən mükafatlandırılıb. Müsabiqənin münsiflər heyətində xalq artistləri Arif Babayev, Əlibaba Məmmədov, Mənsum İbrahimov, Səkinə İsmayılova yer alır.

❑ Xalidə GƏRAY

## Mərhum İlhamə Quliyevanın mirası bölüşdürüldü, oğulluğuna pay düşmədi

### Orxan Nadirov ona mal-mülk verilməməsi ilə bağlı hələlik susur

**Mərhum müğənni İlhamə Quliyevanın qalmaqallı mirası nə oğulluğu Orxan Nadirova, nə də dövlətə qalıb. Müğənninin varislərinin xala uşaqları və bibi uşaqları olması ilə bağlı qətnamə çıxarılıb. Bu barədə müğənninin oğulluğa götürdüyü O.Nadirovun hüququnu müdafiə edən vəkil mətbuata açıqlama verib.**

O bildirib ki, Səbayel Rayon Məhkəməsində şikayətləri təmin olunmayıb: "Övladlığa götürmə faktı var. Biz də şahid ifadələrinə və foto-görüntülərə uyğun olaraq Səbayel Rayon Məhkəməsinə müraciət etdik. Amma şikayətimiz təmin olunmadı. İlhamə Quliyevanın qanun üzrə vərəsələrinə gəldikdə isə, bu kateqoriya beş növə bölünmüşdü: Xala uşaqları, bibi uşaqları ortaya çıxdı. Yasamal Rayon Məhkəməsinin qətnaməsinə əsasən xalauşaqları və bibiuşaqlarının şikayəti təmin olundu və varis kimi tanındı. Miras da onlara qaldı".

Məsələ ilə bağlı xalq artistinin oğulluğu hesab edilən O.Nadirovun münasibətini öyrənməyə çalışdıq. O, musavat.com-a açıqlamasında bildirdi ki, qərarla bağlı münasibətini yalnız fevralın 25-dən sonra bildirəcək.

**Mərhum sənətkarın vəkili olmuş Elmira Məmmədova məhkəmə qərarına öz rəyini bu cür ifadə etdi:** "Tezliklə bu məsələ ilə bağlı Orxanla görüşüb söhbətləşəcəyik. Lakin həmişə qeyd etmişəm ki, Mülki Məcəllədə məcburi pay var, yəni qanunla Orxana da pay düşür".



Xatırladaq ki, ötən il vəkil Elmira Məmmədova mətbuata açıqlama verərək mərhum müğənninin mirasını açıqlamışdı. Vəkilin dediyinə görə, sənətkarın 2 milyonluq dəyərində mirası var ki, bura da 4 ev, 50 sot torpaq, 2 avtomobil, qızıl-zinət əşyaları daxildir. Mərhum sənətkarın mirası ilə bağlı dəfələrlə onun yaxınları, o cümlədən oğulluğu Orxan Nadirov və bacıları, müğənni Əli Mirəliyev arasında qalmaqal yaşanmışdı.

❑ Xalidə GƏRAY

# Həbsxanalarda baş verən ağlasığmaz qətliamlar...

## Məhkumlar öldürülür, həkimlər saxta rəylər yazır, hadisənin üstü bağlanır

**Beynəlxalq hüquq müdafiə təşkilatı “Amnesty International” Suriyanın paytaxtı Dəməşq yaxınlığındakı Saydnaya hərbi həbsxanasında edam və işgəncələr barədə apardığı araşdırmanın nəticələrini açıqlayıb.**



“Amnesty International” təşkilatının hesabatına əsasən, Suriyada “ərəb baharı” başlayandan bu günədək bir həbsxanada gizli şəkildə aralarında çoxu sivil inqilabçılar olmaqla, 13 minə qədər insan asılaraq edam edilib.

Təşkilat iddia edir ki, 2011-2015-ci illər arasında hər həftə Saydnaya həbsxanasında kütləvi edamlar yaşanıb və bütün bunlar Suriya hakimiyyətinin əmri ilə olub.

Suriya hakimiyyəti ona qarşı edilən bu iddiaları bundan öncə də yalanlayıb. Suriyadakı vətəndaş müharibəsi ilə bağlı insan haqlarının ciddi şəkildə pozulması və qeyri-qanuni şəkildə həbs edilən etirazçılara qarşı ağır işgəncələrin verilməsi və onların edam edilməsi xəbərləri 2016-cı ildə BMT ekspertləri tərəfindən səsləndirilsə də, Bəşər Əsəd iqtidarı tərəfindən yalanlanmışdı.

“Amnesty International” bu hesabat üçün adıçəkilən həbsxanada olmuş 84 nəfər gözətçi, məhbus və rəsmi şəxslərdən müsahibə alıb. Təşkilatın araşdırmasına görə, həftədə bir, bəzənsə iki dəfə Dəməşqin şimalında yerləşən bu həbsxanada 20-50 nəfər arası məhbus edam edilir.

Sənəddə o da bildirilir ki, edamlardan öncə məhbuslar Dəməşqin əl-Kabun rayonunda qurulmuş hərbi məhkəməyə çıxarılır və bu məhkəmələr əsasən bir neçə dəqiqə çəkdikdən sonra edam hökmü verilir və hökm dərhal icra edilir.

Köhnə hərbi məhkəmə hakiminin bildirdiyinə görə, bu məhkəmələrdə ittiham olunanlardan baş verən cinayətlərdə iştirak edib-etmədiyi soruşulur. Cavabın “hə”, yaxud “yox” olmasından asılı olmayaraq, ittiham edilən məhbusların edamı qaçılmazdır.

Təşkilatın hesabatında bildirilir ki, edam edildikdən sonra cəsədlər yük maşınına yığılaraq qeydiyyata alınmaq üçün Tişren hərbi xəstəxanasına gətirilir və oradan da bir hərbi əraziyə aparılıb kütləvi şəkildə ümumi qəbirlərdə basdırılır.

“Amnesty International” təşkilatı şahidlərin ifadəsinə əsasən, Saydnaya həbsxanasında 5 il ərzində 5 minlə 13 min arasında insanın edam olunduğunu bildirir.

Bu cür ciddi statistika mötəbər bir qurum tərəfindən verildiyi üçün dünyada böyük səs-küy doğurub. Məlum olub ki, bu günə qədər dünya tarixində səs-küylü həbsxana qətliamları baş verib. Bu olaylardan bir çoxu tarixin qanlı səhifələrində özünə yer edib, illər sonra məhkəməsi baş tutub. Qiyamlar bir çox hallarda insan zorakılıqları ilə müşayiət olunub. “Yeni Müsavat” mövzunun aktuallığını nəzərə alıb, bu günə qədər tarixdə məhkum qətliamları ilə bağlı dosye hazırlayıb.

**“Ağ binanın” zirzəmisində asılanlar...**

“The Guardian” yazır ki, Suriyada münaqişənin ilk aylarında prezident Bəşər Əsədə opponent olan 13 min insan ölkənin ən bədnam həbsxanalarından birində gizli olaraq asılıb. “Amnesty International” bildirir ki, bu adamların edam edilməsi üçün qərarlar hakimiyyətin ən yuxarı eşelonlarında qəbul edilirmiş. Bu da qeyd olunur ki, Saydnaya həbsxanasında minlərlə insan acından və işgəncələrdən dünyasını dəyişib. “Amnesty İnternational” bildirir ki, bu yolla məhv edilənlərin cəsədləri beş il müddətində gecəyarısı ilə sübh arasında Dəməşq yaxınlığındakı iki böyük adsız məzarlıqda basdırılıb.

İnsan sallaqxanası adlanan hesabatda deyilir ki, bu, 400 min insanın öldürüldüyü və ölkənin yarısının evlərindən didərgin düşdüyü bir ölkədə ağlasığmaz vəhşilik iddiasıdır. Hesabatda deyilir ki, 2015-ci ildən sonra da Saydnaya həbsxanasında daha minlərlə insan edam edilə bilərdi, çünki həmin vaxtdan bəri “Amnesty İnternational”a məlumat vermiş həbsxana nəzarətçiləri informasiya mənbəyindən təcrid olunublar.

“Amnesty İnternational”ın məlumat aldığı 84 nəfərdən 4-ü həbsxananın iki korpusunda - “qırmızı və ağ binalarda” çalışan həbsxana keşikçisi olub. Əsəd polisi “qırmızı binada” mülki məhbusları, “ağ binada” isə keçmiş hərbçiləri saxlayır.

Xəbər verilir ki, məhbusları “ağ binanın” zirzəmisində asırdılar. “Amnesty İnternational” bildirir ki, bu araşdırmanı 31 nəfəri müşahidə etməklə 12 ay müddətində aparıblar.

**Məhkumları öldürür, həkimlər “ürək tutması” diaqnozu yazırdılar**

Şahidlər iddia edirlər ki, həftədə bir və ya iki dəfə 20-50 nəfər gizli hərbi tribunalların hökmü ilə asılar və cəsədləri Tişrindəki hərbi hospitala aparılar və orada həkimlər onlara tənəffüs çatışmazlığı və ya ürək tutması kimi diaqnozlar “yazardılar”.

Bu adamların Dəməşqin cənubundakı Nahyədə və qərbdəki balaca Qatana şəhərindəki hərbi torpaqlarda basdırıldığı iddia olunur. Hesabatın müəllifi Nicolette Valdman bildirib ki, gizli qaydada asılanların sayı azı 5 min, yuxarısı 13 min olaraq təxmin edilir. Onun sözlərinə görə, bu prosesin hazırda dayandırıldığını deməyə heç bir əsas yoxdur. Müəllif bildirir ki, saxta məhkəmələr 2-3 dəqiqə davam edər, ölüm hökmlərini Əsədin adından müdafiə naziri imzalayardı.

Valdman deyir ki, sözügedən 13 min edam olunmuşun bundan əvvəl 2011-2013-cü illərdə öldürülmüş 11 min dustağa dair hesabatla əlaqəsi yoxdur. Həmin qətllər Qeysər kod adı ilə işləyən keçmiş hərbi fotoqraf tərəfindən sənədləşdirilmişdi.

**İki məhkum dalaşıb, 111 məhkum öldürülüb**

Tarixə Braziliyadakı Carandiru həbsxanasında baş verən qətliam da qanlı hərflərlə yazılıb. 1992-ci ildə baş verən qətliam nəticəsində 111 nəfər dünyasını dəyişib. Həmin vaxt iki məhkum arasında başlanan mübahisə böyüyərək, böyük bir üsyana çevrilib. Ölkədəki seçkilərə 2 gün qalmış baş tutan üsyanı yatızdırmaq istəyən həbsxana rəhbərliyi əsgərlərdən yardım istəyib. Odlu silahlarla hadisəyə müdaxilə edən əsgərlər qələbəliyə atəş açaraq 111 nəfəri yerindəcə öldürüb. Zamanında 7 min 257 məhbusun saxlandığı Carandiru həbsxanasının yerində hazırda park salınıb.

**Braziliyada 26 məhkumun başını kəsiblər, ikisini isə yandırıblar**

Braziliya həbsxanasında üsyan nəticəsində də 26 məhkum qətlə yetirilib. Alcaçuz həbsxanasında başlayan üsyan vaxtı 26 məhkumun başını kəsiblər. Müdaxilədən sonra üsyan 14 saatdan sonra yatırılıb. Üsyan iki qruplaşma arasında baş verən davadan sonra ortaya çıxıb. Rəsmilərin verdiyi məlumata əsasən, ilkin versiyada 27 nəfərin öldüyü bildirilmişdi. Amma bəzi məhkumların bədəni parça-parça edildiyi üçün bir ölü dustaq iki dəfə sayılıb. Başı kəsilən iki məhkum isə yandırılıb.

Yeni ildən bu yana Braziliyada başlayan həbsxana üsyanlarında 100 nəfər həlak olub. Hökumət şimal əyalətlərindəki həbsxanalarda təhlükəsizliyi təmin etmək üçün ordu qüvvələrini səfərbər edib.

**Məhkumlar görüşə gələnləri girov götürdü, polis 7-sinin başını kəsdi, 6-sını isə yandıraraq qətlə yetirdi**

2016-cı ilin iyun ayında Meksikanın Nuevo-Leon ştatındakı həbsxanaların birində üsyan baş qaldırıb. Gecə saatlarında qiyama qalxan məhkumlarla təhlükəsizlik əməkdaşları arasında silahlı toqquşma baş verib. Bir neçə saat davam edən qarşıdurmadan sonra polislər üsyançıların müqavimətini qıra bilib. Toqquşma zamanı 4 məhkum həlak olub. Daha 14 dustaq isə müxtəlif dərəcəli xəsarətlər alıb. 17 oktyabr 2016-cı ildə Braziliyanın Rorayma əyalətindəki həbsxanada məhkumlar arasında toqquşma baş verib. İki qruplaşma arasında qeydə alınan qarşıdurma zamanı 25 məhkum qətlə yetirilib. Onlardan yeddisinin başı kəsilib, altısı isə yandırılaraq qətlə yetirilib. Digərləri isə kəsici alətlərin qurbanı olub.

Bildirilir ki, toqquşma “məhkumlarla görüş” vaxtına təsadüf edib. Məhkumlar həbsxanaya yaxınları ilə görüşə gələn 100 nəfəri girov götürüb. Lakin xüsusi təyinatlıların əməliyyatı nəticəsində onların hamısı azad edilib.

Diyarbəkir türməsindəki qətliam isə 24 sentyabr 1996-cı ildə baş verib. Yüzlərlə əsgər, polis, məhkəmə nəzarətçisi və özəl təhlükəsizlik xidməti əməkdaşının qatıldığı əməliyyat zamanı 10 dustaq öldürülüb, 24-ü də yaralanıb. Bu olayla bağlı açılan məhkəmə işində 62 məhkəmə işçisinə 5 il həbs cəzası verilib, 20 nəfər isə bəraət edib.

❑ Sevinc TELMANQIZI



# Kaskasız, təhlükəsizlik kəməri olmadan işləyən fəhlələr...

## Onların həyatına məsuliyyəti kim daşıyır? **Sahib Məmmədov:** “Xəsarət alan işçi və ya iş zamanı həlak olan şəxsin vərəsəsi üç məsələni sübut etməlidir...”

**Hər il istehsalatda baş verən qəzalar zamanı həyatını və ya iş qabiliyyətini ömürlük itirən yüzlərlə insan olur. Məhz buna görə bütün dünyada istehsalatda çalışanların, xüsusən də tikintidə çalışanların təhlükəsizliyinə, geyimlərinə, başlarında dəbilqə olmasına xüsusi diqqət yetirilir.**

Azərbaycandan fərqli olaraq digər ölkələrdə xüsusi iş geyimi və dəmir dəbilqəsi olmayan birinin tikintidə işlədiyini görə bilməzsiniz. Həyati təhlükəsizlik üçün bu geyimi elə işçilərin özləri tələb edir. Təəssüf ki, Azərbaycanda buna bir elə əhəmiyyət verilmir. Diqqət etsək görərik ki, hətta yüksək mərtəbəli binaların tikintisində belə usta və ya fəhlə yüksək mərtəbədə işini görür, ancaq əynində xüsusi geyimi və başında dəbilqəsi yoxdur.

Bir sıra fəhlələr əmək müqaviləsi bağlanmadan işə götürüldüyü üçün tikinti şirkətləri onları bu geyimlə təmin etmir və insan sağlamlığına biganə yanaşırlar. Çox az halda görə bilərik ki, fəhlələr kaska, təhlükəsizlik kəməri və digər geyimlərlə təmin olunur. Məhz bunun nəticəsidir ki, hər il bu cür iş qəzaları zamanı yüzlərlə insan həyatını itirir və ya əlil qalır. Bu cür bədbəxt hadisələrin sayı isə ildən-ilə artır. Məsələn, 2016-cı il iyulun 1-nə olan məlumata görə, istehsalatda bədbəxt hadisə zamanı 106 nəfər xəsarət alıb, 57 nəfər dünyasını dəyişib. Bədbəxt hadisələrin 5-i qrup halında baş verib.

**Çox zaman istehsalat zamanı qəza keçirən və ya peşə xəstəliyinə tutulan şəxslər bədbəxt hadisə nəticəsində xəsarət alan zaman hara və kimə müraciət edəcəklərini, haqlarını necə tələb edəcəklərini bilmirlər. Əmək Hüquqları Müdafiə Liqasının rəhbəri Sahib Məmmədov bu cür hallar baş verərsə, bütün məsuliyyətin işə götürənin üzərinə düşdüyünü dedi:** “İstehsalatda bədbəxt hadisə və yaxud da peşə xəstəliyi baş verirsə, bunun səbəbindən insan peşə qabiliyyətini qısamüddətli, uzunmüddətli və ya birdəfəlik itirirsə, yaxud da bu səbəbdən həlak olursa, buna görə məsuliyyət işə götürənin üzərinə düşür. Bu məsuliyyətin həddi var. Bu inzibati məsuliyyətdən tutmuş, cinayət məsuliyyətinə qədər ola bilər. Eyni zamanda 2011-ci ildən sonra istehsalatda bədbəxt hadisə və peşə xəstəlikləri hallarında icbari sığorta haqqında qanuna görə işə götürən öz işçiləri qarşısındakı məsuliyyətini sığortalamalıdır. Biz ötən il monitorinq keçirib gördük ki, bu sığortalanma halı çox zəifdir. Hətta əmək kontraktları olan yerlərdə belə bu, tam əhatə olunmayıb. Bütün istehsalat sahələri 14 risk qrupuna bölünüb. Ən riskli və ən az riskli. Ona uyğun olaraq işçilər sığortalanmalıdır və bədbəxt hadisə, peşə xəstəliyi baş verdikdə, bu səbəbdən insan həlak olduqda birdəfəlik, aylıq kompensasiya ödənilməli və müalicə xərcləri verilməlidir. Əgər işə götürənlə işçi arasında əmək müqaviləsi varsa və işə götürən işçini sığortalamayıbsa belə, o zaman öz əmək haqqı fondundan zəhmət çəkib xərcləri ödəməlidir. Amma işə götürənlə işçi arasında əmək müqaviləsi yoxdursa, burada artıq sübuta yetirmə məsələsi ortaya çıxır. Belə olan halda xəsarət alan işçi və ya iş zamanı həlak olan şəxsin vərəsəsi üç məsələni sübut etməlidir. Bir, işçi həmin iş yerində doğrudan da işləyib, ikincisi, işçi həmin yerdə xəsarət alıb və ya peşə xəstəliyinə tutulub, üçüncüsü isə işçinin əmək haqqı nə qədər olub. Bu məsələləri məhkəmə yolu ilə sübuta yetirə bilərlərsə, əmək müqaviləsinin olub-olmamasından asılı olmayaraq işə götürən məsuliyyət daşıyır”.

❑ Günel MANAFLI

# Torpaq reydləri zamanı qanunsuzluqlar aşkarlandı

**Əmlak Məsələləri Dövlət Komitəsi torpaqlardan istifadə ilə bağlı monitorinqləri və reydləri davam etdirir.**



Novator.az-ın məlumatına görə, fevralın 8-də yayılan rəsmi hesabatda deyilir ki, indiyədək torpaq müfəttişlərinin apardığı monitorinqlər nəticəsində 4900-ə yaxın, 2016-cı ildə isə 1300-ə yaxın qanun pozuntusu aşkarlanıb: "1100-ə yaxın hal üzrə inzibati protokol tərtib edilərək 580 min manatdan çox cərimə tətbiq olunub. Vətəndaşlara torpaq qanunvericiliyi və mühafizə zolaqları ilə bağlı tələblər izah edilir, cərimələrin 30 gün ərzində büdcəyə ödənişinin məcburiliyi, əks halda, qanunauyğun tədbirlərin görüləcəyi bildirilir.

Aparılan monitorinq və torpaq reydlərində kənd təsərrüfatı torpaqlarının təyinatının müvafiq qanunvericiliyin tələbləri pozulmaqla məqsədli şəkildə dəyişdirilməsi, dövlət və bələdiyyə torpaqlarının qeyri-qanuni zəbt olunması, mülkiyyət sənədi olmadan torpaqlar üzərində tikinti-quraşdırma işlərinin aparılması, mühafizə zolaqları ilə bağlı qanunvericiliyin tələblərinin pozulması, torpaqların üst münbit qatının korlanması halları üzə çıxıb. Həmçinin əvvəlki dövrlərdə torpaqların zəbt olunması, hasarlanaraq uzun illər istifadəsiz saxlanması və birbaşa təyinatına uyğun olmayaraq başqa məqsədlərlə istifadəsi halları müəyyən edilib.

Görülən tədbirlər nəticəsində 46 rayon üzrə icarədə olan, lakin istifadəsiz qalan 200 min hektar torpaq sahəsinə dair 935 icarə müqaviləsinə xitam verilib və həmin torpaqlar dövlət mülkiyyətinə qaytarılıb".



## Gəlin maşınını müşayiət edən avtomobil aşdı

**Bakıda gəlin maşınını müşayiət edən avtomobil aşıb. "Report"a xəbər verir ki, hadisə paytaxtın Nərimanov rayonunda qeydə alınıb. Belə ki, Ziya Bünyadov prospektində 6 avtomobildən ibarət kortej gəlin gətirməyə gedib. Kortejdəki "Hyundai" markalı avtomobilin sürücüsü yüksək sürətlə hərəkət edərək tuneldə eyni vaxtda 5 avtomobili ötmək istəyib.**

Nəticədə "Hyundai" beton yolayrıcına çırpılaraq aşıb. Aşan avtomobilin sürücüsü xəsarət alıb. O, xəstəxanaya yerləşdirilib. Prospektin əsas tunelində tıxac yaranıb.

## Polis narkotik alverçilərini tutdu

**Bakıda narkotik alverçiləri yaxalanıb. Daxili İşlər Nazirliyindən (DİN) «Trend»ə verilən məlumata görə, DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Xətai rayonu ərazisində Hacıqabul rayon sakinləri Ayət Orucovdan və Pünhan Dostəliyevdən 6,415 qram, P.Dostəliyevin idarə etdiyi "Mercedes" markalı avtomobilə baxış zamanı isə 450 qram marixuana aşkar edilərək götürülüb.**

Bakı şəhər sakini Yaşar Mövsümovdan isə 3 kiloqram 345 qram marixuana götürülüb.

Fevralın 7-də Nərimanov RPİ 18-ci PB əməkdaşlarının həyata keçirdikləri digər əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakini Yaşar Mövsümovdan 3 kiloqram 345 qram marixuana aşkar edilərək götürülüb.

Həmin gün Nəsimi RPİ əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə Qazax rayon sakini, əvvəllər məhkum olunmuş Taryel Ozbetaşvilidən 530 qram heroin götürülüb.



## 5 ay əvvəl həbsdən çıxan oğru yenə oğurluq etdi və tutuldu

**Siyəzən rayon sakini Yaşar Məmmədovun evindən tikintidə istifadə edilən texniki avadanlıqlar oğurlanıb. ARB Şimal xəbər verir ki, Mirzə Ələkbər Sabir küçəsində yerləşən evdən qarət edilən alətlər 1710 manat dəyərindədir.**

Hadisə yerinə baxış keçirən rayon polis şöbəsinin əməkdaşları dərhal əməliyyat-axtarış tədbirlərinə başlayıb. Qanun keşikçiləri isti izlərlə hadisəni törədən Siyəzən sakini 43 yaşlı Sərvər Dadaşovu saxlayaraq istintaqa təhvil verib.

Sərvər Dadaşovun oğurladığı avadanlıqların evində saxladığı məlum olub. Həmin əşyalar polis tərəfindən götürülüb.

Aparılan araşdırmalar zamanı məlum olub ki, bu Sərvər Dadaşovun ilk cinayət əməli deyil. O, bundan öncə də silsilə oğurluqlar törədib. Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə 4 dəfə məhkumluq həyatı yaşayıb.

## Bakıda gənc oğlan bıçaqlandı

**Bakıda gənc oğlan tanımadığı şəxs tərəfindən bıçaqlanıb. "Report"un xəbərinə görə, hadisə Sabunçu rayonunda qeydə alınıb. Belə ki, 27 yaşlı Məmmədov Elmin Mahir oğlu Pirşağı qəsəbəsində evə gedərkən ona naməlum şəxs qəfildən iki bıçaq zərbəsi vurub. Çoxlu qan itirən E.Məmmədov qonşuların köməkliyi ilə xəstəxanaya yerləşdirilib.**

## "Opel"i dərəyə aşıran sürücü öldü

**Goranboy rayonunun Tatarlı kəndi ərazisində qəza baş verib. ARB TV xəbər verir ki, rayon sakini 33 yaşlı Mahir Mirzəyev "Opel" markalı avtomobillə yüksək sürətlə hərəkətdə olarkən, idarəetməni itirib və avtomobil yoldan çıxaraq dərəyə aşıb.**

Qəza zamanı sürücü nəqliyyat vasitəsindən bir neçə metr kənara düşüb və dünyasını dəyişib.

## Bu gün yağış və sulu qar yağacaq

**Fevralın 9-da Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya bildirilib ki, yarımadanın bəzi ərazilərində sulu qara keçəcəyi ehtimalı var. Mülayim şimal küləyi əsəcək. Havanın temperaturu gecə 0-3° isti, gündüz 3-6° isti, Bakıda gecə 1-3° isti, gündüz 3-5° isti olacaq.**

Atmosfer təzyiqi normadan yüksək 770 mm civə sütunu, nisbi rütubət 85-95 %, təşkil edəcək.

Tibbi-meteoroloji proqnoza gəlincə, fevralın 9-da Abşeron yarımadasında iqlim normasına yaxın temperatur rejimi, meteoroloji amillərin mülayim tərəddüdü meteohəssas insanlar üçün əlverişlidir.

Azərbaycanın rayonlarında arabir yağış, sulu qar, qar yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə duman olacaq, qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-8° isti, dağlarda gecə 2-7° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacaq.


**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

YENİ MÜSAVAT
N 29 (6643) 9 fevral 2017








**“Binə” ticarət mərkəzində alış-veriş tamam “ölüb”. Son aylarda çox az sayda alıcı bu məkana üz tutur. Burada dəyişməyən bir şey var ki, o da ticarət mərkəzinin rəhbərliyinin ticarətçilərə qoyduğu maddi tələblərdir. Məhz elə bu hal rəhbərliklə ticarətçilər arasında narazılıq yaradır...**

# “Binə” ticarət mərkəzi günbəgün “çökür”, rəhbərlik isə ticarətçiləri “soyur”

## Bazarda mağazaların yarıdan çoxu boşalıb; alıcılar yoxa çıxıb

Əvvəlcə onu qeyd edək ki, “Binə” ticarət mərkəzinə gedən yol da çox bərbad vəziyyətdədir. Ticarət mərkəzinə işləyən azsaylı avtobusların sürücüləri ilə söhbətimiz zamanı onlar söylədilər ki, yol uzun müddətdir təmir olunmur. Buna görə də günü-gündən dağılıb gedir.

Biz də elə bu çalalı-çuxurlu yol vasitəsilə irəliləyib, nəhayət, ticarət mərkəzinə çatdıq.

Ticarət mərkəzinin müştərisiz qalması elə buranın girişindən də hiss olunur. Belə ki, ilk sıralarda demək olar ki, bütün mağazalar boş qalıb. Bu mağazaların bir qismi əvvəlcədən icarəyə götürülməyib, digər bir qisminin isə boş qalma səbəbi müştərinin olmamasıdır. Nəticədə bazarpulu, icarə haqqı və digər xərcləri ödəyə bilməyən satıcılar işləməkdən imtina ediblər. Orada olduğumuz zaman müşahidə etdik ki, əksər satıcılar mağazanın içərisində kompüter, yaxud da telefonla məşğuldurlar. Özləri də bildirdilər ki, müştəri olmadığı üçün başlarını bu cür qatırlar.

“Binə” ticarət mərkəzində brend mağazalardan tutmuş, ticarətin nisbətən yaxşı getdiyi söylənilən orta sıraları da gəzdik. Ancaq demək olar ki, müştəriyə rast gəlmədik.

**Satıcı Əsgər Hüseynov “Yeni Müsavat”a bildirdi ki, vəziyyətləri getdikcə pisləşir. Rəhbərlik isə yer pulunda güzəştə getmək fikrində deyil:** “Özünüz gördüyünüz kimi iş getmir. Dolların hər gün bahalaşması isə bizi lap pis vəziyyətə salıb. Bu boyda ticarət mərkəzində alver az da olsa orta sıralarda gedir. Burada belə gün ərzində heç 50 manat xeyrimiz olmur. Buna baxmayaraq, icarə haqqı, bazarpulu dəyişmədən qalıb. Əksinə, rəhbərlik icarə haqqını artırıb. Belə ki, sıradan asılı olmayaraq buradan yer götürmək istəyirsənsə, 900 manat bazarpulu ödəməlisən. Bundan əlavə, 500 manat da mağazanın yiyəsinə icarə haqqı verməlisən. Məsələ bununla da bitmir. 250 manat vergiyə, 10 manat hər ay mühafizəyə, 20 manat da internetə veririk. Bütün bunlardan başqa işıq pulu, karqo pulu da var. Kondisioner işlədənlər 100 manatdan çox elektrik pulu ödəyirlər. Heç bir mağazada sayğac yoxdur. Bu isə az elektrik işlədənlə çox işlədənin arasında fərq qoymur. Dolların qiyməti qalxdıqdan sonra məcbur olub, malı baha satırıq. Onsuz da bura müştəri az gəlirdi, indi isə heç gəlmir. Bir sözlə, vəziyyət çox pisdir”.



“Binə”də maraqlı olan odur ki, digər sıralar boşalsa da, 4-cü, 5-ci sırada boş mağazaya rast gəlmədik. Satıcılar bildirdilər ki, elə ticarət mərkəzinin yalnız bu sıraları doludur. Ona görə də burada icarə haqqını aşağı salmırlar. Məsələ ondadır ki, bu sıralara malı zor-xoş “Binə” rəhbərliyi özü verir.

İcarə haqqının baha olmasına baxmayaraq, müşahidə etdik ki, ticarət mərkəzində təhlükəsizlik tədbirləri, təmizlik çox aşağı səviyyədədir. İlk sıralar demək olar ki, təmirsiz vəziyyətdədir. Bundan əlavə, ticarət mərkəzinə daxil olanlar heç bir xüsusi alətlər vasitəsilə yoxlanılmır. İçəridə də mühafizəçilərə rast gəlmədik. Əksər mağazalarda müşahidə kameraları da mövcud deyil. Bəlkə də buna görədir ki, ticarət mərkəzində tez-tez yanğınlar baş verir.

**Satıcı Elxan bildirdi ki, dəfələrlə rəhbərliyə narazılıqlarını bildirsələr də faydası yoxdur:** “Ötən ilin əvvəllərində satıcılar yığışdılar, aksiya keçirdilər. Deyirdik ki, ticarət yoxdur. Heç olmasa yer pulunu aşağı salın. Ancaq heç bir faydası olmadı. Deyirlər ki, istəmirsən çıx get. Bundan əlavə, ticarət mərkəzinə çox az sayda avtobus işləyir. Bütün avtobuslar ”Sədərək" ticarət mərkəzinə qədər gəlir, oradan da geri qayıdır. Son vaxtlar ümumiyyətlə alıcılar və ticarətçilər “Sədərək”ə üz tutur. Çünki orada həm alıcılar, həm tə satıcılar üçün əlverişli şərait var. Bura işləyənlərin hamısı mini avtobuslardır. Müştərilər aldıqları malları həmin avtobuslar vasitəsilə apara bilmirlər. Çünki tutumu azdır. Yəni bütün bu kimi hallar nəticəsində burada alver yoxdur, ölüb. Ona görə də buradan hər kəs çıxıb gedir. Elə mən də getməyi planlaşdırıram".

**Onu da qeyd edək ki, paytaxtdadan ticarət mərkəzinə gələn “207" nömrəli marşrut xətti də artıq bağlanıb.**

**❑ Əli RAİS**
**Fotolar müəllifindir**

# Uşaqların sevimlisi Barbi uşaq psixologiyasını pozur

## Araşdırmalara görə, belə kuklalar uşaqların sağlamlığına ziyandır, onların yaradıcılıq aktivliyi, fantaziyası, təxəyyülü normal inkişaf etmir...



**Kiçik qızlar olan hər kəsin evində Barbi gəlinciyinə rast gəlmək olar. Əvvəllər bu gəlinciklər qara və ağ zebra zolaqlı şəkildə, sarı, qara saçlı olsa da, zamanla müxtəlif formalarda və geyimlərdə satılmağa başlayıb. Hətta indi yemək yeyə bilən, yeriyən barbilər var.**

“Hello Barbi” adlanan və ötən il istehsal edilən gəlincik uşaqlarla danışır, onların suallarını cavablandıra bilir. Sahib olduğu səstanıma texnologiyası sayəsində istifadəçisini tanıyan “ağıllı” oyuncaq internet bağlantısı ilə yaddaşında olmayan suallara da dəqiq və səlis cavab verə bilir. Bu gəlincik hələ ki Azərbaycanda satışda olmasa da, yaxın gələcəkdə gələcəyi gözlənilir. Satışdakı Barbi gəlinciklərinin qiyməti isə onun hərəkət etməsinə, danışmasına, sadəliyinə, geyimlərinin çox olmasına görə fərqlənir. Qiymət 6-100 manat arasında dəyişir. Satıcılar da uşaq oyuncaqları arasında barbilərin daha çox satıldığını bildirirdilər.

Barbilərin bu qədər maraqlı xüsusiyyətləri olmasına baxmayaraq, əslində uşaqların psixologiyasına ciddi zərər verdiyi məlum olub. Böyük Britaniya alimləri çoxsaylı araşdırmalar nəticəsində belə qərara gəliblər ki, Barbi və bunun kimi gəlinciklər uşağın inkişafı və sağlamlığı üçün ziyanlıdır. Araşdırmalar göstərib ki, Barbi gəlincikləri qızlarda “yalnız arıq insan gözəl ola bilər” kimi sağlam olmayan stereotiplər yaradır. Bu isə uşağın sağlamlığı və gələcəyi üçün ziyanlıdır. Bəzən qızlar “Barbi kimi” olmaq üçün arıqlamağa çalışır, yeməkdən imtina edir, hətta onlarda anoreksiya inkişaf edir. Əslində isə Barbi gəlinciklərinin quruluşunun insanın bədən və üz quruluşundan uzaq olduğu bildirilir.

Barbi gəlinciklərinin ayaqları istehsal olunduğu ilk günlərdən indiyədək çox uzundur. Fizioloqların fikrincə, bu, anormal bir görkəmdir. Alimlərə görə, həqiqətən belə bir qız uşağı dünyaya gəlsəydi, bu cür uzun ayaqlarla o, bir addım da ata bilməzdi. Digər tərəfdən, alimlər sübut edir ki, daim barbilərlə oynayan uşaqların yaradıcılıq aktivliyi, fantaziyası, təxəyyülü normal inkişaf etmir. Nəticədə böyüyəndə onlar elm və texnika kimi sahələrdə uğur qazana bilmirlər. Həmçinin bu gəlinciklər uşaqları reallıqdan, canlı ünsiyyətdən də uzaqlaşdırır.

### Barbi gəlinciyinin tarixi haradan qaynaqlanır?

Barbinin adı çəkilərkən Ruth Handleri yada salmamaq mümkün deyil, çünki dünyaya Barbini tanıdan məhz o olub. Barbi Amerikanın Mattel oyuncaq şirkəti tərəfindən Ruthun sifarişi ilə hazırlanıb. Amerikalı xanım iş adamı Ruth Handler qızı Barbaranın kağız kuklalarla oynadığını görüncə övladı üçün yetkin bədənə sahib olacaq kuklanın necə yaradılması haqqında düşünür və bu fikri Mattel oyuncağı şirkətinin həmtəsisçisi olan həyat yoldaşı Elliot ilə paylaşır. Ailənin Avropaya səyahəti zamanı Ruth Bild Lilli adlandırılan alman kuklası ilə qarşılaşır. Bu onun diqqətini çəkir və oyuncaqdan övladına və əlavə alaraq Mattel kompaniyasına təqdim etmək üçün alır. Oyuncaq dizayneri olan Jack Ryan ilə məsləhətləşərək kuklanı yenidən işləyirlər və Ruth onu qızı Barbaranın şərəfinə “Barbie” (Barbi) adlandırır. Oyuncaq öz debütünü 1959-cu ilin mart ayının 9-da qoyur. Bu tarix Barbinin ad günü hesab olunur.

Mettel şirkəti 1964-cü ildə Bild Lilli oyuncağının hüquqlarını qazanır və Lillinin istehsalı dayanır. İlk Barbi qara və ağ zebra zolaqlı şəkildə, sarı saç, qara saçlı olur və Barbinin libası Mattel dizayneri Charlotte Johnson tərəfindən hazırlanır. İlkin Barbi kuklası Yaponiyada istehsal olunub. Hazırda satılan barbilərin evinin, əşyalarının çəhrayı rəngdə olması da təsadüfi deyil. Belə ki, Barbi yaranan ərəfədə Hollivudda Ceyn Mensfildin cazibədarlığı işıq sürəti ilə yayılırdı. Barbinin prototipi olan Ceyn Mensfild supermen olan cənab Mikki Hargetya ilə evləndi və özləri üçün bağ evi aldılar. Onun evindəki bütün əşyalar çəhrayı rəngə və bir çox digər açıq rənglərə boyadılmışdı. Həmçinin dekorasiyada müxtəlif mələk və qəlb rəsmlərinə də yüksək dərəcədə yer verilmişdi. Buna görə də Barbinin evi məhz çəhrayı rəngdədir. İlk on il Barbi gəlinciyinin sayəsində Hendler ailəsinin cibinə 500 milyon dollardan artıq məbləğ gəlmişdi. 1993-cü ildə Barbi onların ailəsinə 1 milyard dollar məbləğində maliyyə büdcəsi gətirdi, 1994-cü ildə isə bu maliyyə vəziyyəti artıq 2 milyard dollarla əvəz edildi. Hazırda bu gəlinciklər dünyanın 150 müxtəlif ölkəsində bir dənəsi 25-70 dollara satılır.

Tədqiqatçıların fikrincə, dünyada daha çox tələbat yaradan 20 mal içərisində bu gəlincik də yer alır. Hazırda amerikan ailələrin çoxunun evində ən azı 10 ədəd Barbi gəlinciyinə rast gəlmək mümkündür. Bu vəziyyət İtaliya, Fransa ailələrində də belədir, üstəlik, İngiltərədə bu say orta hesabla 5 gəlincikdən ibarətdir. Hər il təxminən 20 milyon dollarlıq Barbi satışı olur. İndiki zamanda Barbi gəlinciklərini Reyçel London geyindirir.

**❑ Günel MANAFLI**
**Foto müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 29 (6643) 9 fevral 2017



# Akulanı sudan çıxaranda videoya çəkdilər, 6.2 min dollar cərimələndilər

Braziliyada videoçəkiliş etmək üçün sudan akula çıxaran turistlər cərimələnəcəklər. Bu barədə "The Daily Mirror" nəşri xəbər verib. Cərimənin məbləği isə 6.2 min dollar olacaq. Nəşrin yazdığına görə, turistlər akulanı Pernambuku ştatındakı Fernandu-di-Noronya sahilindən çıxarıblar. Baxmayaraq ki, sahildə dəniz heyvanlarını yaxalamaq, öldürmək, yedizdirmək və ümumiyyətlə narahat etməməklə bağlı qadağa lövhəsi yer almışdı. Əlində sudan çıxarılmış akulanı tutan 35 yaşlı qadının çəkdirdiyi video 7 fevral tarixində sosial şəbəkədə yayılıb. Çəkilişi onun sevgilisi edib. 6.2 min dollarlıq cəriməni isə bu hərəkəti edən hər bir komanda üzvü ödəyəcək. Bu, heyvanlarla amansız davranışa görə kəsilmiş cəzadır. Bundan başqa, sosial şəbəkədə yayılan video neqativ etirazlara səbəb olub. Sosial şəbəkə istifadəçiləri ümid ediblər ki, turistlərin bu ədəbsiz davranışı cavabsız qalmayacaq və başqalarına da dərs olacaq.

2016-cı ilin fevralında da Argentinada delfinlə şelfi çəkdirmək üçün ona əzab verən şəxslərlə bağlı xəbər yayılmışdı. Sözügedən insident Buenos Ayresdə yerləşən Santa Teresita kurortuna baş vermişdi.

# Arvadından boşandı, 7 gəlinciklə "evləndi"

Çində arvadından boşanan 58 yaşlı Li Çen elastik materialdan hazırlanan 7 qadın gəlinciklə yaşayır. Çinin Guizhou şəhər sakini, Li Chen ləqəbli kişinin bu asılılığı dünya mediasında müzakirə olunan mövzulardandır. O, 2010-cu ildə qumar asılılığı olan arvadından ayrılıb. İngiltərənin "Daily Mail" qəzetinə açıqlama verən Li deyib ki, bu gəlinciklərə kostyumları ilə bərabər 14.4 min dollara yaxın pul xərcləyib. Amma o, iddia edib ki, bu gəlincik-qadınlara cinsi ehtiyacını ödəmək üçün yox, sırf qızları kimi münasibət göstərir. Gününün böyük bir qismini gəlincik-qadınlarla keçirən çinli adam onları geyindirib bəzəyir, tətillərə, istirahətə aparır və bir yerdə musiqili kliplər çəkdirir. 18 yaşına çatan oğlu Yangyanga hədiyyə olaraq belə bir gəlincik-qadın alan Li deyib ki, oğlunun sıradan bir qadınla cinsi ehtiyaclarını təmin etməsini istəməyib və onu qorumaq üçün belə bir hədiyyə alıb. Yangyang isə deyib ki, anası ona zəng edərək, atasına çox da uymamasını, atası kimi vərdişlərə yiyələnməməsini xahiş edib: "Anam dedi ki, bu, psixoloji və cinsi pozğunluq əlamətidir. Amma mən ona dedim ki, gəlincik-qadınların gerçək insanlar kimi qüsurları yoxdur və onlar əsla xəyanət etmirlər".



# Sidikdən elektrik enerjisi alacaqlar




Böyük Britaniya alimləri olduqca maraqlı bir kəşfə imza atıblar. Onlar insan sidiyindən elektrik enerjisi almaq layihəsini uğurla başa vurublar. Bristol Bioenerji Mərkəzi rəhbərinin köməkçisi həkim Conatan Vinfeldin rəhbərliyindəki heyət insan sidiyini elektrik enerjisinə çevirmə gücünə sahib bir prototip ayaqyolu yaradıb.

Musavat.com BBC-türkcəyə istinadən xəbər verir ki, həyata keçirilən testlər sübut edib ki, idrardan elektrik əldə etmək mümkündür. Hətta bu elektrik enerjisindən cib telefonlarını şarj edərkən işıq da almaq olur. Araşdırmaçıların 3 il öncə üzərində işləməyə başladığı layihə Avropadakı bəzi miqrant düşərgələrində tətbiq olunacaq. Alimlər onu da müəyyənləşdirib ki, idrar yeni olarsa, onun yanacaq potensialı daha yüksək olur. Layihə tamamlanandan sonra xüsusən qaçqın düşərgələrindən və geri qalmış bölgələrdən istifadə olunacaq: "Cib telefonuna çatımlı olan bir texnologiyanı test etdik. Bu, necə işə yarayacağının çox açıq bir nümunəsi idi. Bu, tək başına və öz-özünə çalışan bir layihədir. Qaçqın düşərgələrinə, gecəqondu məhəllələrinə və hər hansı infrastrukturu olmayan yerlərə yerləşdirilə bilər".

"Bill and Melinda Gates" Vəqfi ilə Oxfamın dəstək verdiyi layihə Afrika daxilində bəzi qaçqın düşərgələrində qurulacaq və enerji əldə ediləcək.

# Qoroskop




**QOÇ** - Bəri başdan nəzərinizə çatdıraq ki, ixtiyarınıza olduqca məsuliyyətli bir gün düşüb. Belə ki, saat 16-ya qədər çoxlu sayda yeniliklərin şahidi olacaq, maraqlı təkliflər alacaqsınız. Sonra isə diqqətli olun.

**BUĞA** - Naharaqədərki vaxtı səbrlə başa vursanız, qalan saatlardan xoşagəlməzlik gözləməyin. Çünki ulduzlar bu gün şəxsi işlərinizdə böyük dönüş yaratmaq istəyir. Bunun üçün əzmkarlığınızı artırmalısınız.

**ƏKİZLƏR** - Nahara qədər mənfi enerjili Ayın bürcünüzdə qərar tutması ovqatınıza mənfi təsir göstərə bilər. Riskli sövdələşmə və səfərlər məsləhət deyil. Sonrakı saatlarda isə iki yeniliklə rastlaşacaqsınız.

**XƏRÇƏNG** - İlk növbədə səhhətinizə qayğı göstərin. Çünki yalnız sağlam bədəndə sağlam ruh olur. Həmişə başqalarını müzakirə etməkdənsə öz ideya və məramlarınızı analiz edin. Səfərə çıxmayın.

**ŞİR** - İlahinin verdiyi hər məqama şükür edin, bədgüman olmayın. Çünki bu gün sizi narahat edən əksər sahələrdə - qarşılıqlı münasibətlərdə, maliyyə məsələlərində və fəaliyyətdə müsbət nəticələr əldə edəcəksiniz.

**QIZ** - Ulduzlar gün boyu maraqlı insanlarla görüşəcəyinizi bəyan edir. Bu, işgüzar əməkdaşlıq da ola bilər, dostluq-yoldaşlıq da. Hətta ürəyiniz sevgisizdirsə, bəxtiniz açıla da bilər. Bu gün səfərə çıxmayın.

**TƏRƏZİ** - Saat 14-17 arası iştirakçısı olduğunuz situasiyaların əksəriyyəti gərgin fonla müşayiət olunduğundan bütün ciddi işlərinizi təxirə salmağa çalışın. Qalan saatlar normal tərzdə cərəyan edəcək.

**ƏQRƏB** - İstənilən riskdən uzaq olun, təhlükəlidir. Buna baxmayaraq, ailə-sevgi münasibətlərində, eləcə də kollektivlə davranışda mülayimlik göstərsəniz, işləriniz qaydasına düşəcək. Hətta sürpriz də gözlənilir.

**OXATAN** - Bir qədər gərgin ərəfə olsa da, proseslərə neytral yanaşmaqla təhlükələri dəf edə bilərsiniz. Saat 16-18 aralığında istənilən riskli sövdələşmələrdən, köhnə qisasçılıq prinsiplərindən əl çəkin.

**OĞLAQ** - Kifayət qədər düşərli zaman kəsiyindən keçəcəksiniz. Bu prosesi daha ideal səviyyəyə yüksəltmək üçün ətrafınıza sadiq tərəfdaşlar toplamalısınız. Günün "ən varlı" Zodiak işarəsi də məhz siz olacaqsınız.

**SUTÖKƏN** - Xırda maliyyə problemlərinə görə narahat olmayın. Çünki günün elə ilk saatlarından bu istiqamətdə uğurlarınız bol olacaq. Əsas enerjinizi işgüzar sövdələşmələrə yönəldin ki, perspektivlərinizə yol açılsın.

**BALIQLAR** - Ümumi kosmik mənzərə kifayət qədər səmərəlidir. Deməli, bütün vacib planlarınızı yavaş-yavaş həyata keçirməyə başlamalısınız. Amma axşam saatlarında maliyyə məsələləri ilə bağlı ehtiyatlı olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Öncə qadınları hipnoz edir, sonra...



Türkiyənin Adana şəhərində qəribə bir oğru tapılıb. Alış-veriş mərkəzlərində gənc qadınların və qızların çantalarını, pul qablarını oğurlayan 37 yaşlı A.T adlı vətəndaş polis tərəfindən yaxalanıb. Oğru polisə ilk ifadəsində bildirib ki, onun bu əməlini oğurluq adlandırmaq haqsızlıqdır. Çünki o, insanları inandıraraq pullarını alıb. Zərərçəkən qismində ifadə verən qadınlar isə bildiriblər ki, A.T onların çantasını oğurlayıb qaçmayıb. Heç zorla pul qablarını da götürməyib: "O, bizimlə tanış olandan sonra şirin-şirin söhbət edirdi. Telefon nömrəsini verirdi, bizim nömrəmizi alırdı və zəngləşib görüşəcəyimizi deyirdi. Amma o, gedəndən sonra mən və rəfiqəm hiss etdik ki, çantamızdakı bütün pullarımız oğurlanıb". Bunu G.P adlı zərərçəkən qadın deyib.

Oğru isə bildirib ki, qadınlardan zorla heç nə almayıb, onlar könüllü şəkildə ona pullarını və zinyət əşyalarını veriblər: "Mən istedadlı bir hipnozçuyam. Bu isə suç deyil".

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100